RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 136 (9881) 6 iyul 2025-ci il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# Xankəndidən dünyaya

## Qlobal tədbirlərin keçirildiyi unikal ünvana çevrilən Qarabağdan sülh və əməkdaşlıq mesajları verilir

"İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak etmək üçün qədim Azərbaycan torpağı olan Qarabağa, Xankəndiyə xoş gəlmisiniz".

İyulun 4-də Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü zamanı dövlət və hökumət başçılarını, tədbir iştirakçılarını Qarabağ torpağında bu sözlərlə salamladı. Bununla bir daha qalib lider İlham Əliyev Azərbaycanın tarixə, haqqa, ədalətə dayanan qətiyyətli zəfərinin yaratdığı gerçəklikləri dünyaya bəyan etdi.

Bu il ECO-nun 17-ci sammitinə Azərbaycanın evsahibliyi etməsi özlüyündə mühüm əhəmiyyət kəsb edir və bu, ölkəmizin təşkilatın fəaliyyətində böyük rolu olduğunu göstərir. Bu mötəbər tədbirin məhz işğaldan azad edilən Qarabağ torpağında - Xankəndidə keçirilməsi və tədbirdə ECO-ya üzv ölkələrin dövlət və hökumət başçılarının iştirakı həm də ərazi bütövlüyümüzə göstərilən ciddi dəstək kimi xarakterizə olunmalıdır. Azadlığından sonra ilk dəfədir ki, Xankəndidə bu cür yüksəksəviyyəli beynəlxalq tədbir keçirilir. Türkiyə, Pakistan, Özbəkistan, İran, Qırğızıstan, Tacikistan liderlərinin və digər üzv ölkələrin hökumət nümayəndələrinin iştirak etdiyi mötəbər tədbirdə bir daha Azərbaycanla həmrəylik nümayiş olundu.

ECO-nun Zirvə görüşü çərçivəsində Ağdamda İqtisadi Əməkdaşlıq Təşkilatının Gənclər Forumu, Laçında ECO Qadınlar Forumu da keçirildi ki, bütün bu tədbirlərlə əlaqədar Qarabağa və Şərqi Zəngəzura səfər edən əcnəbi iştirakçılar, eyni zamanda təşkilata üzv ölkələrin dövlət və hökumət başçıları işğal dövründə Ermənistan tərəfindən burada törədilən vandalizm aktlarını gözləri ilə gördülər. Həmçinin onlar Azərbaycan dövlətinin qısa vaxt ərzində bu yerlərdə həyata keçirdiyi mühüm quruculuq işlərinin şahidi oldular.

Prezident İlham Əliyev iranlı həmkarı Məsud Pezeşkiana Şuşadakı məscidlərin dağıdılması barədə məlumat verdi, işğal vaxtı məscidlərin viran olunduğunu vurğuladı.

Azərbaycan və Özbəkistan prezidentləri Xankəndidəki "Businesstex JV" tikiş fabrikinin fəaliyyəti ilə tanış oldular, Azərbaycan və Qırğızıstan prezidentləri Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışında iştirak etdilər, Azərbaycan, Özbəkistan və Qırğızıstan prezidentləri Ağdamda Şahbulaq qalasında oldular. ECO-nun 17-ci Zirvə görüşünün iştirakçıları Ağdamdakı "İmarət" Kompleksində Qarabağ atlarının "Zəfər" şousunu izlədilər.

Xankəndinin ECO-nun Zirvə görüşünə evsahibliyi etməsi həm ölkəmizin Şuşa Zəfərini, həm də regionda yaratdığı sülh və əməkdaşlıq mühitini bir daha parlaqlığı ilə gözlər önünə sərdi.

3

## Akademik Yusif Məmmədəliyevin 120 illiyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2025-ci ilin dekabr ayında görkəmli alim və ictimai xadim, Azərbaycan Respublikası Elmlər Akademiyasının təşkilatçılarından biri, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, kimya elmləri doktoru, akademik Yusif Heydər oğlu Məmmədəliyevin anadan olmasının 120 ili tamam olur.

Akademik Yusif Məmmədəliyev Azərbaycan elminin yetirdiyi parlaq simalardandır. Azərbaycanda neft kimyasının bünövrəsini yaratmış alimin qiymətli sənaye məhsullarının alınması üçün böyük tətbiqi əhəmiyyətə malik texnoloji proseslərin işlənib hazırlanmasında müstəsna xidmətləri vardır. Neft-kimya elmində mühüm hadisəyə çevrilən yüksək oktanlı aviasiya yanacaqları istehsalının yeni üsulunu kəşf etməsi Yusif Məmmədəliyevə şöhrət qazandırmışdır. Respublikada bir sıra elmi müəssisə və qurumların təşkili onun adı ilə bağlıdır. Geniş spektrli fundamental tədqiqat işlərini səmərəli pedaqoji fəaliyyətlə paralel surətdə davam etdirən Yusif Məmmədəliyevin formalaşdırdığı Azərbaycan neft-kimya məktəbi ölkənin hüdudlarından çox-çox uzaqlarda tanınmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan elminin inkişafına verdiyi misilsiz töhfələrini nəzərə alaraq, akademik Yusif Məmmədəliyevin anadan olmasının 120 illiyinin keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə akademik Yusif Məmmədəliyevin 120 illiyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyul 2025-ci il*

## Azərbaycan-Venesuela dostluq münasibətləri xoş ənənələrə əsaslanır

### Venesuela Bolivar Respublikasının Prezidenti zati-aliləri cənab Nikolas Maduro Morosa

Hörmətli cənab Prezident!

Venesuela Bolivar Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan-Venesuela dostluq münasibətləri xoş ənənələrə əsaslanır. Əminəm ki, dövlətlərarası əlaqələrimizin möhkəmləndirilməsi, müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımızın böyük potensialının reallaşdırılması istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Venesuela xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2025-ci il*

## *Türkiyə Prezidenti:* "Xankəndidə Azərbaycanla həmrəyliyi bir daha nümayiş etdirdik"



"İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Zirvə görüşünün işğaldan azad edilmiş Xankəndi şəhərində keçirilməsi, eləcə də Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Prezidenti Ersin Tatarın müzakirə zalında olması bu mötəbər tədbiri Türkiyə üçün xüsusi əlamətdar hadisəyə çevirdi".

AZƏRTAC xəbər verir ki, bu fikri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanda keçirilən ECO-nun 17-ci Zirvə görüşündə onu müşayiət edən jurnalistlərlə söhbətində deyib.

O xatırladıb ki, Türkiyə ümumi sahəsi 8 milyon kvadrat kilometr və əhalisi yarım milyarddan çox olan ölkələri özündə birləşdirən ECO regional platformasının qurucularından biridir.

2

## Etibarlı tərəfdaş, təşəbbüskar ölkə




Zirvə görüşü çərçivəsində atılan addımlar həm də türk birliyinin daha da möhkəmlənməsində əhəmiyyətli rol oynadı. Digər tərəfdən İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə toplantısı Azərbaycana mühüm dividendlər qazandırdı. Ölkəmiz bu təşkilatın fəal üzvüdür. 1985-ci ildə yaradılan təşkilatda hazırda Azərbaycan, Türkiyə, İran və Pakistan ilə yanaşı Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan, Türkmənistan da təmsil olunurlar. Bu da onun türk-islam birliyinin güclənməsini şərtləndirən təşkilat olduğunu göstərir.

Təşkilatın yaradılmasında məqsəd dayanıqlı iqtisadi inkişafa nail olmaq, ticarəti təşviq, dünya iqtisadiyyatına inteqrasiya və səmərəli nəqliyyat sistemini inkişaf etdirməkdən ibarət olub. Müstəqilliyini bərpa edən Azərbaycan təşkilata 1992-ci ildə qoşulub. Azərbaycanla yanaşı Mərkəzi Asiya respublikaları da yeni iqtisadi modelə keçidlə əlaqədar olaraq region dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurmaq naminə təşkilata üzv olublar. Azərbaycan ECO-da həm geosiyasi, həm də iqtisadi baxımdan aparıcı dövlətdir. Ölkəmizin irəli sürdüyü və beynəlxalq əhəmiyyətə malik olan layihələrdə təşkilata üzv dövlətlər də iştirak edirlər. Bakı ECO-nun 2006-cı ilin mayında və 2012-ci ilin oktyabrında 9-cu və 12-ci Zirvə görüşlərinə uğurla evsahibliyi edib. Bu toplantılar çərçivəsində qəbul olunan qərarlar təşkilat daxilində əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə keçməsinə şərait yaradıb. Həmin zirvə görüşlərində Azərbaycanın təşəbbüsü ilə enerji təhlükəsizliyi, nəqliyyat bağlantılarının gücləndirilməsi, ekoloji məsələlər və davamlı inkişaf mövzularında vacib sənədlər qəbul olunub.

5

## Azərbaycanın yaratdığı yeni reallıq



Prezident İlham Əliyevin Zirvə görüşü çərçivəsində bu məkanda ECO-nun üzv dövlətlərinin başçıları və digər rəsmiləri ilə çoxsaylı görüşlərinin hər biri istər ikitərəfli, istərsə də beynəlxalq təşkilatlar daxilində əlaqələrin inkişafında yeni səhifə açıb. Prezident İlham Əliyev Zirvə görüşündəki çıxışında "Azərbaycan artıq üçüncü dəfədir ki, ECO-nun Zirvə görüşünə evsahibliyi edir. Əvvəlki iki Zirvə görüşü 2006-cı və 2012-ci illərdə paytaxt Bakıda keçirilmişdir" söyləyərək budəfəki sammitin Qarabağda, Xankəndidə təşkil edilməsinin xüsusi mənası olduğunu bildirib.

Suverenliyimizin tam bərpasından keçən iki ilə yaxın dövrdə Xankəndidə görülən işlərin timsalında bütün azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq tədbirləri barədə aydın təsəvvür yaratmaq mümkündür. Zirvə görüşünün keçirildiyi Xankəndi Konqres Mərkəzinin dövlət başçısı İlham Əliyevin iştirakı ilə iyulun 3-də açılışı oldu. Ümumiyyətlə, Azərbaycan Prezidentinin Qarabağa son səfəri çərçivəsində açılışında və təməlqoyma mərasimində iştirak etdiyi, görülən işlərlə tanış olduğu sosial obyektlərin xronologiyası bu məkanın tərəqqi yolunda inamla addımlamasının aydın mənzərəsini yaradır. Sözügedən Zirvə görüşündə Prezident İlham Əliyevin qeyd etdiyi kimi, işğaldan azad olunmuş bütün Qarabağ və Şərqi Zəngəzurda hazırda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. İndi Azərbaycan Ermənistanın xarabazara çevirdiyi torpaqlarda yeni şəhərlər və kəndlər inşa edir. Böyük qayıdış proqramı icra edilir. Bu günə qədər 16 şəhər və kəndə keçmiş məcburi köçkünlərin qayıdışı təmin edilib.

3

# Milli Aviasiya Akademiyasında "Məzun günü" keçirilib



**Milli Aviasiya Akademiyasında (MAA) 2024-2025-ci tədris ilində bakalavr və magistratura səviyyələrində təhsillərini başa vurmuş tələbələr üçün "Məzun günü" keçirilib.**

Bu barədə AZƏRTAC-a Akademiyadan məlumat verilib. Bildirilib ki, tədbir Vətən uğrunda canlarından keçən şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad olunması və Dövlət himninin səsləndirilməsi ilə başlanıb.

Akademiyanın birinci prorektoru professor Ədalət Səmədov MAA-nın rektoru akademik Arif Paşayevin təbriklərini məzunlara çatdırıb. Qeyd edib ki, MAA-da yaradılan şərait tələbələrin elmi-təcrübi biliklər qazanmasında mühüm rol oynayır.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov isə təhsil sahəsindəki islahatlardan, o cümlədən Akademiyanın Azərbaycan təhsilinə, aviasiya elminə verdiyi töhfələrdən danışıb.

Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru AMEA-nın müxbir üzvü Misir Mərdanov gənclər siyasətində təhsilin xüsusi rolundan bəhs edib.



Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Prezident İlham Əliyevin uzaqgörən siyasəti ilə Azərbaycanda yaranmış sabitlik və iqtisadi yüksəlişin təhsil sektorunun inkişafına da öz təsirini göstərdiyini diqqətə çatdırıb.

MAA-nın məzunu olan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev təhsil ocağı ilə bağlı xatirələrini bölüşüb. Bildirib ki, burada əldə etdiyi mükəmməl təhsil onun əmək fəaliyyətində də uğurlara yol açıb.

Rektorun köməkçisi iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent Gülnarə Əhmədova məzunlara karyeralarında və əmək fəaliyyətində uğurlar arzulayıb.

Sonra yüksək akademik nəticələr əldə etmiş məzun və tələbələrə fərqlənmə diplomları, sertifikatlar təqdim edilib.

Qeyd edək ki, 2024-2025-ci tədris ilində MAA-nı 451 bakalavr, 53 magistr olmaqla ümumilikdə 504 məzun bitirib. Tədbir konsert proqramı ilə davam edib.

# DTX-nin Akademiyasında növbəti məzun buraxılışı olub





**İyulun 4-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasında (Akademiya) məzunların buraxılışı ilə əlaqədar təntənəli mərasim keçirilmişdir.**

Dövlət Təhlükəsizliyi Xidmətindən verilən məlumata görə, tədbirdə DTX-nin rəisi general-polkovnik Əli Nağıyev, xidmətin rəhbər əməkdaşları, təhlükəsizlik orqanlarının veteranları, Akademiyanın professor-müəllim heyəti, məzunlar və onların valideynləri iştirak etmişlər.

Əvvəlcə Akademiyanın Heydər Əliyev Muzeyinin qarşısında ucaldılmış Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunmuş, dahi şəxsiyyətin əziz xatirəsi dərin ehtiramla anılmışdır. Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərimizin müqəddəs xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Dövlət himni səsləndirilmiş, ardınca məzunlara Akademiyanın diplomları təqdim olunmuşdur.

Daha sonra DTX-nin rəisi general-polkovnik Əli Nağıyev çıxış edərək, Akademiyanı müvəffəqiyyətlə bitirdiklərinə görə məzunları təbrik etmiş, gələcək xidməti fəaliyyətlərində uğurlar arzulamışdır. Xidmət rəisi bildirmişdir ki, Ulu Öndərin adını daşıyan bu tədris müəssisəsinin məzunları olan gənc zabitlər fəaliyyətlərini Vətənə və xalqa sonsuz sadiqlik prinsipləri əsasında qurmalı, dövlətin təhlükəsizliyinin qorunması vəzifəsini qarşılarına ali məqsəd kimi qoyaraq hər zaman ayıq-sayıq olmalı, dahi rəhbər Heydər Əliyevin təhlükəsizlik orqanlarındakı peşəkarlıq irsini yaşatmalıdırlar.

Akademiyanın maddi-texniki bazasının və kadr potensialının ildən-ilə daha da təkmilləşdirildiyini vurğulayan general-polkovnik Əli Nağıyev burada təhsil səviyyəsinin müasir dövrün tələblərinə uyğunlaşdırılması, Akademiyadakı mövcud şəraitin davamlı yaxşılaşdırılması istiqamətində də görülən işlərdən ətraflı bəhs etmiş, son illərdə bilik yarışlarında bu xüsusi təyinatlı ali təhsil müəssisənin kursantlarının qazandıqları uğurların sadalanan amillərin məntiqi nəticəsi olduğunu demişdir.

Çıxışının sonunda Xidmət rəisi Əli Nağıyev Akademiyanı bitirən zabitlərin çalışacaqları DTX-nin struktur bölmələrində vəzifə borclarını vicdanla yerinə yetirəcəklərinə, dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin siyasi kursuna sədaqətlə xidmət edərək, təhlükəsizlik orqanlarının sıralarında öz layiqli yerlərini tutacaqlarına qətiyyətlə inandığını bildirmişdir.

Digər çıxış edənlər məzunların Akademiyada mənimsədikləri bilik və bacarıqları gələcək fəaliyyətlərində lazımi qaydada tətbiq edə biləcəklərinə dərin inamlarını, burada kursantlara göstərilən diqqətə və yaradılan şəraitə görə minnətdarlıqlarını ifadə etmişlər.

Təntənəli mərasim xatirə fotoşəklinin çəkdirilməsi ilə sona çatmışdır.

# Gənclər və İdman Nazirliyində UNESCAP-ın İcraçı katibi ilə görüş

**İyulun 5-də gənclər və idman naziri Fərid Qayıbov İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü çərçivəsində ölkəmizdə səfərdə olan Birləşmiş Millətlər Təşkilatı Baş katibinin müavini və BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) İcraçı katibi Armida Salsiya Alişahbana ilə görüşüb.**



Gənclər və İdman Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycanla UNESCAP arasında ikitərəfli əməkdaşlıq məsələləri və gənclər siyasətinin inkişafı mövzusunda fikir mübadiləsi aparılıb.

Həmçinin gələcəkdə həyata keçiriləcək birgə layihələr və təşəbbüslərlə bağlı müzakirələr aparılıb.

# *Türkiyə Prezidenti:* "Xankəndidə Azərbaycanla həmrəyliyi bir daha nümayiş etdirdik"

*Əvvəli 1-ci səh.*



"İştirakçı ölkələrin geosiyasi mövqeyi nöqteyi-nəzərindən İqtisadi Əməkdaşlıq Təşkilatı dövlətlərarası əməkdaşlığın dərinləşməsinə töhfə baxımından xüsusi əhəmiyyət kəsb edir. ECO ölkələri ortaq dəyərləri bölüşür və onların arasında dialoq tarixi qardaşlığa əsaslanır. Biz iqtisadiyyat və ticarətdə səmərəli tərəfdaşlığı hədəfləyirik. Bu barədə konsensus var", - deyə Türkiyə lideri əmin edib.

Türkiyə Prezidenti mayın 28-də - Müstəqillik Günündə də Azərbaycanda səfərdə olduğunu xatırladıb: "Biz Laçında olduq, orada qardaşım İlham Əliyevlə birlikdə hava limanının açılışını etdik", - deyə dövlət başçısı qeyd edib.

"Bu dəfə Xankəndidə sülh, sabitlik və inkişafı dəstəkləyən bəyanatlar səsləndi. Biz Azərbaycanla həmrəy olduğumuzu bir daha nümayiş etdirdik. Ümid edirəm ki, budəfəki səfər ECO ölkələri ilə əlaqələrin və qardaşlığın möhkəmlənməsinə töhfə verəcək", - deyən Rəcəb Tayyib Ərdoğan, həmçinin qəbul edilmiş qərarların uğurla həyata keçiriləcəyinə əminliyini ifadə edib.

O, Türkiyənin dost ölkələrin tam arxalana biləcəyi bir dövlət olduğunu vurğulayıb.

Azərbaycanla münasibətlər mövzusuna qayıdan Türkiyə Prezidenti qeyd edib ki, Ankara ilə Bakı arasında dialoq xüsusi xarakter daşıyır.

O qeyd edib: "Türkiyə və Azərbaycan sadəcə dost dövlətlər deyil, qardaşlıq telləri ilə bir-birinə bağlı ölkələrdir. "Bir millət, iki dövlət" kəlamının konkret əməllərə əsaslanan dərin mənası var. Bizim birliyimiz tarixin sınağından çıxıb".

Rəcəb Tayyib Ərdoğan bildirib ki, Ankara bu bölgədəki prosesləri də düşünməyə bilməz. "Cənubi Qafqazda sülh və sabitlikdən bütün tərəflər faydalanacaq", - deyən siyasətçi Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin diplomatik çərçivəsinin artıq razılaşdırıldığını qeyd edib. "2024-cü ilin sonunda Brüssel, Moskva və Tbilisidə keçirilən danışıqlardan sonra sülh sazişinin yekun mətni razılaşdırılıb. Ermənistan əvvəlcə Zəngəzur dəhlizinə qarşı çıxıb, indi isə daha çevik mövqe nümayiş etdirir, iqtisadi inteqrasiyada iştirak etmək istəyir. Regionda inkişaf təkcə Azərbaycan üçün deyil, həm də Ermənistan, Türkiyə, İran və digər ölkələr üçün bir fürsətdir", - deyə o vurğulayıb.

Rəcəb Tayyib Ərdoğan bildirib ki, Zəngəzur dəhlizinin əhəmiyyəti getdikcə artacaq və bütün region üçün yeni perspektivlər açacaq.

Türkiyə Prezidenti Zəngəzur dəhlizini "geosiyasi və geoiqtisadi inqilabın bir hissəsi" adlandırıb. O əlavə edib: "Zəngəzur dəhlizinin açılması Orta Dəhliz üçün də strateji hadisə olacaq. Bu marşrutdan istifadə etməklə Türkiyə malları Mərkəzi Asiya ölkələrinə və Çinə daha tez bir müddətdə çatdırılacaq".

Rəcəb Tayyib Ərdoğan Zəngəzur dəhlizinin təkcə avtomobil yolu ilə deyil, dəmir yolu ilə də yük axınını artıracağına diqqət çəkib.

Türkiyə liderinin sözlərinə görə, Zəngəzur dəhlizinin açılması həm Qars-İğdır-Naxçıvan dəmir yolu xətti üçün stimul olacaq, həm də Azərbaycanın Qarabağ bölgəsinə investisiyaların artırılmasına imkan verəcək.

O vurğulayıb: "Dünya dəyişir, bu şərait yeni addımların atılmasını tələb edir. Zamanla ayaqlaşmaq və potensialdan istifadə etmək vacibdir. Ermənistan və Azərbaycan arasında sülh sazişi regionda bütün "iqlimi" dəyişəcək və yeni imkanlar pəncərələri açacaq. Bu, münaqişələr və müharibələr səbəbindən uzun müddət istifadə olunmayan nadir faydalı qarşılıqlı fəaliyyət modelinin formalaşması üçün stimul yaradacaq".

Rusiya təhlükəsizlik qüvvələrinin Yekaterinburqda qanunsuz hərəkətləri nəticəsində yaranan gərginliyə gəlincə, Türkiyə Prezidenti qeyd edib ki, Ankara həm Azərbaycan, həm də Rusiya ilə diplomatik və strateji əlaqələrə malikdir: "Biz gərginliyi diqqətlə izləyirik və hər iki tərəfi təmkinli olmağa çağırırıq. İnanırıq ki, diplomatik gərginliyi azaldacaq bəyanatlar vasitəsilə ağlabatan həll yolu tapıla bilər".

Türkiyə Prezidenti ümidvar olduğunu bildirib ki, Moskva ilə Bakı arasında münasibətlərdəki mənfi proseslər tezliklə keçmişdə qalacaq. "Ən böyük arzumuz odur ki, bu hadisələr Rusiya ilə Azərbaycan arasında münasibətlərə çox ciddi zərər vurmasın. Yerli hadisələr və onların nəticələri məqbul həddən kənara çıxmamalıdır. Təmkinli olmaq vacibdir. Əminəm ki, iki dost ölkə bu problemi həll edə biləcək", - deyə o vurğulayıb.

Rəcəb Tayyib Ərdoğan əmin edib ki, Ankara bu məsələnin həllinə dəstək vermək üçün konstruktiv addımlarını davam etdirir. O əlavə edib: "Bizim prioritetimiz artıq kifayət qədər müharibə və münaqişələr yaşamış regionda gərginliyin və sabitliyin pozulması istiqamətində kəskin sıçrayışlarının qarşısını almaqdır".

Türkiyə lideri vəziyyətin diplomatik yolla həllinə əmin olduğunu bir daha bildirib. "Prezident İlham Əliyevlə görüşdə də bu məsələ müzakirə olunub. İlham Əliyev çox ehtiyatlı və diqqətli addımlar atır, eskalasiyanın əleyhinədir", - deyə Rəcəb Tayyib Ərdoğan sözlərini yekunlaşdırıb.

# Azərbaycan və Pakistan arasında Anlaşma Memorandumu imzalanıb

**Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü çərçivəsində Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə bu ölkəyə investisiya qoyuluşunu nəzərdə tutan Anlaşma Memorandumu imzalanıb.**



Bu barədə AZƏRTAC-a Azərbaycan İqtisadiyyat Nazirliyindən məlumat verilib.

Bildirilib ki, sənədi iqtisadiyyat naziri Mikayıl Cabbarov və Pakistanın Baş nazirinin müavini və xarici işlər naziri Məhəmməd İshaq Dar imzalayıblar.

Sənəd iki ölkə liderlərinin qarşılıqlı iqtisadi münasibətlərin və sərmayə tərəfdaşlığının daha da gücləndirilməsi barədə tapşırığının icrasına təkan verəcək.

# UNESCAP-ın 82-ci sessiyasına hazırlıq işləri müzakirə olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit okean ölkələri üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) icraçı katibi Armida Salsiya Alişahbananın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev son illərdə ölkəmizdə həyata keçirilən sosial islahatlar, sosial müdafiə tədbirlərinin gücləndirilməsi və vətəndaş rifahının təminatı istiqamətində görülən işlər barədə məlumat verib. O, gələn il ölkəmizin ev sahibliyi edəcəyi UNESCAP-ın 82-ci sessiyasının regional və qlobal dialoqun gücləndirilməsi, sosial inklüzivliyin təşviqi və yaşlı əhalinin hüquqlarının müdafiəsi baxımından əhəmiyyətini vurğulayıb.

A.S.Alişahbana Azərbaycanda sosial və iqtisadi inkişaf sahəsində görülən işləri yüksək qiymətləndirdiyini, bu istiqamətdə ölkəmizlə UNESCAP arasında davamlı əməkdaşlıqdan məmnunluğunu ifadə edib.

Görüşdə UNESCAP-ın 82-ci sessiyasına hazırlıq işləri müzakirə olunub, gələcək əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

# Azərbaycanın xarici siyasətinin uğurları




# Xankəndidən dünyaya

## Qlobal tədbirlərin keçirildiyi unikal ünvana çevrilən Qarabağdan sülh və əməkdaşlıq mesajları verilir

**Uzun işğal illərində, münaqişənin guya sülh yolu ilə tənzimlənməsi üçün missiyalandırılmış yarıtmaz qurumun mənasız və sonsuz danışıqlar apardığı dövrdə belə heç zaman inamımızı, ümidimizi itirmədik, əmin olduq ki, bir gün mütləq Qarabağ və Şərqi Zəngəzur azadlığına qovuşacaq, ərazi bütövlüyümüz, suverenliyimiz təmin olunacaq. Bu da həqiqətdir ki, bəlkə də bir çoxumuz bu xoşbəxt günləri görə biləcəyimizi düşünmürdük. Amma Tanrının xoşbəxt bəndələriyik ki, biz müasir dövrün azərbaycanlıları bu fəxrli günlərin şahidi olduq...**

Bu il Azərbaycan xalqı ərazilərimizin bütövlüyünün təsvirəgəlməz qürur hissi ilə "Konstitusiya və Suverenlik İli"ni qeyd edir. Cəmi beş ilə yaxın müddət ərzində əzəli sakinlərinə qovuşan Qarabağ və Şərqi Zəngəzur dirçəliş günlərini, quruculuq, qayıdış zəfərlərini yaşayır. Düz üç onillik boyu ölkəmizin müstəqilliyini hədəf alan separatçıların, təcavüzkarların məkrli yuvasına çevrilən Qarabağ və Şərqi Zəngəzur indi yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin, forumların, konfransların keçirildiyi unikal məkan kimi dünyanın diqqətini çəkir.

Bu, ədalətin təntənəsidir ki, cəmi beş il əvvələ qədər silah səslərinin yüksəldiyi, qan-qada qoxusunun gəldiyi, viranəyə, xarabazara çevrilmiş Qarabağ və Şərqi Zəngəzur indi əməkdaşlıq, inkişaf, tərəqqi ünvanı kimi beynəlxalq əhəmiyyətli məsələlərin müzakirə və həll edildiyi məkana çevrilib. Haqq işini döyüş meydanında öz gücünə təmin edən və bölgədə reallıqları tamamilə dəyişən Azərbaycan bu gün məhz işğaldan azad etdiyi torpaqlardan - Şuşadan, Laçından, Xankəndidən, Ağdamdan... dünyaya sülh, əmin-amanlıq mesajları verir, "Qarabağ Azərbaycandır!" deyir.

İyulun 3-4-də Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü ilə əlaqədar üzv ölkələrin dövlət və hökumət başçılarının Qarabağa səfər etmələri də bir daha göstərdi ki, bu torpaqlar artıq mötəbər beynəlxalq tədbirlərin keçirildiyi qlobal platformaya çevrilib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin, İran Prezidenti Məsud Pezeşkianın, Qırğızıstan Prezidenti Sadır Japarovun, Tacikistan Prezidenti Emoməli Rəhmonun iştirak etdiyi tarixi Zirvə görüşündə Prezident İlham Əliyev söylədi ki, bugünkü Zirvə görüşünün Qarabağda, Xankəndidə təşkil edilməsinin xüsusi mənası var: "Ermənistan işğalından azad edilmiş torpaqlarımızda artıq bir neçə mühüm beynəlxalq tədbir keçirilmişdir. 2023-cü ildə Şuşada ECO-nun Nazirlər Şurasının iclasını, 2024-cü ildə Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşünü və bu ilin may ayında Laçında Azərbaycan, Türkiyə və Pakistan rəhbərlərinin üçtərəfli Zirvə görüşünü qeyd etmək istərdim".

### Beynəlxalq tədbirlərin baş ünvanı

Hazırda dünyanın dörd bir yanında, o cümlədən sərhədlərimizin bir addımlığında qanlı toqquşmalar, müharibələr gedir. Dünyanın bu qarmaqarışıq dövründə dövlətimiz tərəfindən həyata keçirilən düşünülmüş və uzaqgörən siyasət sayəsində Azərbaycanda sabitlik, inkişaf və sülh mühiti formalaşdırılıb, ölkəmiz sözün əsl mənasında təhlükəsizlik adasına çevrilib. Azərbaycanın Qarabağ zəfəri ölkəmizin dünyadakı nüfuzunu, gücünü birə min artırıb, regiondakı lider mövqeyini sarsılmaz edib. İstənilən sahədə - iqtisadi, sosial, hərbi sahələrdə sürətli inkişaf əldə edən, dünyanın enerji, nəqliyyat qovşağına çevrilən ölkəmizin qlobal miqyaslı problemlərin həll edildiyi platformaya çevrilməsi, sivilizasiyalararası dialoqların aparıldığı ünvan kimi adından söz etdirməsi də təsadüfi deyil. Vətən müharibəsinəqədərki dövrdə biz adətən beynəlxalq əhəmiyyətli konfransların, forumların Bakıda keçirilməsinə şahidlik etmişdik. Lakin Şuşa zəfərindən sonra bu cür tədbirlərin paytaxtımızla yanaşı, Qarabağ və Şərqi Zəngəzurda da keçirilməsi ənənə halını alıb. Dünyanın dörd bir yanından gələn ali qonaqlar işğaldan azad edilən torpaqlarda toplaşaraq beynəlxalq aləmi narahat edən məsələləri, bəşəriyyətin gələcək çağırışlarını müzakirə edirlər.

Təbii ki, 30 il boyu düşmən vandalizminə məruz qalan, həyata dair bir nişanə belə tapmaq mümkün olmayan bu ərazilərimizdə beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsinin, bu tədbirlərdə iştirak üçün gələn ali qonaqların layiqincə qarşılanıb yola salınmasının elə də asan iş olmadığı hər kəsə bəllidir. Məhz dövlətimizin öz gücü hesabına Böyük qayıdış üçün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi quruculuq və bərpa işləri, gördüyü kompleks tədbirlər sayəsində bunları gerçəkləşdirmək mümkün olub.

"Ağıllı şəhər və kəndlər" salınıb, yollar, tunellər çəkilib, enerji infrastrukturu qurulub, məktəblər, xəstəxanalar, uşaq bağçaları, müasir standartlara cavab verən hotellər, biznes, konqres, mədəniyyət mərkəzləri və sair tikilib istifadəyə verilib.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə görülən işləri şəxsən nəzarətində saxlayır, mütəmadi olaraq həmin yerlərə səfərlər edərək yeni bünövrələr qoyur, açılışlar edir.

Təkcə Zəngilan, Füzuli və Laçında istifadəyə verilən üç möhtəşəm beynəlxalq hava limanı işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən quruculuq işlərinin hansı səviyyədə olduğunu gözlər önünə gətirir.

Qarabağ və Şərqi Zəngəzurda beynəlxalq miqyaslı tədbirlərin keçirilməsinin mütəmadi hal alması da elə görülən kompleks işlərin, yaradılan hər cür şəraitin nəticəsində mümkün olur.

### Zəfər ünvanımızın şan-şöhrətli çağları

2021-ci ilin mayında qələbəmizin rəmzi Şuşada keçirilən və bu torpaqların mədəni ruhunun da özünə qaytarıldığının rəmzi sayılan "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı Qarabağ və Şərqi Zəngəzurda baş tutan tədbirlərin ilki, qaranquşu oldu.

Ötən beş il ərzində mədəniyyət paytaxtımızda çoxsaylı mühüm beynəlxalq tədbir, festival, forum və konfrans keçirilib. Şuşanın tarixindəki ən əlamətdar hadisələrdən biri 2021-ci il iyunun 15-də - Milli Qurtuluş Günündə Prezident İlham Əliyevlə qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzalamaları olub.

Parlaq Zəfərimizdən sonra ilk dəfə 2022-ci ilin aprelində dünya azərbaycanlıları azad Şuşada toplaşdı, Zəfər qurultaylarını keçirdilər. Öz sarsılmaz və əbədi həmrəyliklərini bir daha Şuşadan bütün dünyaya nümayiş etdirdilər.

2022-ci ildə "Cənubi Qafqaz: İnkişaf və Əməkdaşlıq" adlı beynəlxalq forumun iştirakçılarının, həmçinin Bakıda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirak edən dövlətlərin parlament nümayəndə heyətlərinin, eləcə də Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak edən nümayəndə heyətlərinin Şuşaya səfər etmələri qədim şəhərimizin qlobal əməkdaşlıq platformasına çevrilməsini nümayiş etdirdi.

2022-ci ildə Şuşada keçirilən tədbirlərdən biri isə Qoşulmama Hərəkatının (QH) Gənclər Sammitinin Şuşa sessiyası oldu.

2023-cü ildə Şuşa bütün türk dünyasının qürur ünvanı olaraq "Türk dünyasının mədəniyyət paytaxtı" kimi şərəfli missiyanı yerinə yetirdi.

Həmin il mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfrans da Şuşada keçirildi.

Çoxsaylı beynəlxalq tədbirin keçirildiyi Şuşa şəhəri 2023-cü il iyulun 21-də müstəqil Azərbaycanın tarixində ilk dəfə dünyanın aparıcı media, jurnalist təşkilatları rəhbərlərini, informasiya-kommunikasiya sahəsində nüfuzlu ekspertləri, tanınmış jurnalistləri bir araya topladı. Prezident İlham Əliyevin tapşırığına əsasən, "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan milli mətbuatının 148-ci ildönümü ilə bağlı "4-cü Sənaye İnqilabı dövründə yeni media" mövzusunda Şuşada Qlobal Media Forumu keçirildi.

Azərbaycanın Qarabağ zəfəri ümumilikdə türk dünyası adına qazanılan qələbə kimi tariximizə qızıl hərflərlə yazılıb. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam təmin etdikdən sonra ötən ilin elə bu günündə - 6 iyulda Türk Dövlətləri Təşkilatının (TDT) Şuşada qeyri-rəsmi Zirvə görüşünün keçirilməsinin və Qarabağ Bəyannaməsinin imzalanmasının öz rəmzi mənası vardı.

5 oktyabr 2023-cü ildə İranın Ərdəbil şəhərində keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin turizm nazirlərinin 5-ci iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2026-cı il üçün "İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı" elan edilib. Ötən il bununla bağlı Prezident "Şuşa şəhərinin 2026-cı il üçün "İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında sərəncam" imzalayıb.

### Laçın Zirvəsi

Bu il 28 May - Müstəqillik Günündə strateji baxımdan mühüm əhəmiyyət kəsb edən və açılışı Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən həyata keçirilən Laçın Beynəlxalq Hava Limanı ümumilikdə Qarabağ və Şərqi Zəngəzurun iqtisadi dirçəlişini nümayiş etdirdi.

Həmçinin qardaş ölkələrin - Azərbaycan, Türkiyə və Pakistanın liderlərinin ölkəmizin Müstəqillik Günündə Şərqi Zəngəzurun bu dağlar qoynundakı şəhərində Prezident İlham Əliyevin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Zirvə görüşü keçirmələri dünyaya üç qardaş ölkə - Azərbaycan, Türkiyə və Pakistanın sarsılmaz birliyini göstərdi.

Zirvə görüşündə Prezident İlham Əliyev söylədi ki, ölkələrimizin strateji mövqeyindən və dinamik iqtisadi potensialımızdan istifadə etməklə qarşılıqlı faydalar əldə etmək üçün geniş imkanlar var: "Siyasət, iqtisadiyyat, energetika, qarşılıqlı investisiyalar, nəqliyyat, müdafiə, kənd təsərrüfatı, informasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın birgə layihələr və proqramlar vasitəsilə daha böyük sürətlə inkişaf edəcəyinə inanırıq".

MDB Humanitar Əməkdaşlıq Şurasının 8 oktyabr 2024-cü il tarixli qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhəri 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan olunub.

Laçın şəhərinin 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilməsi işğaldan azad edilən torpaqlarımızın mədəni ruhunun özünə qaytarılmasını əks etdirməklə yanaşı, Azərbaycanın Vətən savaşında qazandığı tarixi qələbəsinin, suverenliyinin təmininin MDB məkanında, ümumiyyətlə, dünyada qəbul olunmasının və dəstəklənməsinin növbəti nümunəsidir.

### Xankəndiyə xoş gəlmisiniz!

"İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak etmək üçün qədim Azərbaycan torpağı olan Qarabağa, Xankəndiyə xoş gəlmisiniz".

İyulun 4-də Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü zamanı dövlət və hökumət başçılarını, tədbir iştirakçılarını Qarabağ torpağında bu sözlərlə salamladı. Bununla bir daha qalib lider İlham Əliyev Azərbaycanın tarixə, haqqa, ədalətə dayanan qətiyyətli zəfərinin yaratdığı gerçəklikləri dünyaya bəyan etdi.

Bu il ECO-nun 17-ci sammitinə Azərbaycanın evsahibliyi etməsi özlüyündə mühüm əhəmiyyət kəsb edir və bu, ölkəmizin təşkilatın fəaliyyətində böyük rolu olduğunu göstərir. Bu mötəbər tədbirin məhz işğaldan azad edilən Qarabağ torpağında - Xankəndidə keçirilməsi və tədbirdə ECO-ya üzv ölkələrin dövlət və hökumət başçılarının iştirakı həm də ərazi bütövlüyümüzə göstərilən ciddi dəstək kimi xarakterizə olunmalıdır. Azadlığından sonra ilk dəfədir ki, Xankəndidə bu cür yüksəksəviyyəli beynəlxalq tədbir keçirilir. Türkiyə, Pakistan, Özbəkistan, İran, Qırğızıstan, Tacikistan liderlərinin və digər üzv ölkələrin hökumət nümayəndələrinin iştirak etdiyi mötəbər tədbirdə bir daha Azərbaycanla həmrəylik nümayiş olundu.

ECO-nun Zirvə görüşü çərçivəsində Ağdamda İqtisadi Əməkdaşlıq Təşkilatının Gənclər Forumu, Laçında ECO Qadınlar Forumu da keçirildi ki, bütün bu tədbirlərlə əlaqədar Qarabağa və Şərqi Zəngəzura səfər edən əcnəbi iştirakçılar, eyni zamanda təşkilata üzv ölkələrin dövlət və hökumət başçıları işğal dövründə Ermənistan tərəfindən burada törədilən vandalizm aktlarını gözləri ilə gördülər. Həmçinin onlar Azərbaycan dövlətinin qısa vaxt ərzində bu yerlərdə həyata keçirdiyi mühüm quruculuq işlərinin şahidi oldular.

Prezident İlham Əliyev iranlı həmkarı Məsud Pezeşkiana Şuşadakı məscidlərin dağıdılması barədə məlumat verdi, işğal vaxtı məscidlərin viran olunduğunu vurğuladı.

Azərbaycan və Özbəkistan prezidentləri Xankəndidəki "Businesstex JV" tikiş fabrikinin fəaliyyəti ilə tanış oldular, Azərbaycan və Qırğızıstan prezidentləri Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışında iştirak etdilər, Azərbaycan, Özbəkistan və Qırğızıstan prezidentləri Ağdamda Şahbulaq qalasında oldular. ECO-nun 17-ci Zirvə görüşünün iştirakçıları Ağdamdakı "İmarət" Kompleksində Qarabağ atlarının "Zəfər" şousunu izlədilər.

Xankəndinin ECO-nun Zirvə görüşünə evsahibliyi etməsi həm ölkəmizin Şuşa Zəfərini, həm də regionda yaratdığı sülh və əməkdaşlıq mühitini bir daha parlaqlığı ilə gözlər önünə sərdi.

Eyni zamanda bu mühüm tədbir göstərdi ki, Qarabağ və Şərqi Zəngəzur yalnız Azərbaycanın deyil, regionun, türk və islam aləminin, ümumilikdə dünyanın siyasi, iqtisadi, mədəni və diplomatik ünvanına çevrilməkdədir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanın yaratdığı yeni reallıq

## Ölkəmiz regional inteqrasiya proseslərində fəal iştirakını daha da gücləndirir

**Qədim Azərbaycan torpağının evsahibliyi etdiyi İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü qlobal siyasi gündəmdə təkcə mühüm beynəlxalq hadisə deyil, eyni zamanda Ermənistanın 30 il davam edən işğalının dağıntılarından bərpa-quruculuq dövrünə qədəm qoyan bir şəhərin dirçəlişinin rəmzi kimi dəyərləndirilir. Son beş ilin qürurverici hadisələrindən biri azadlığına qovuşmuş torpaqlarımızın beynəlxalq tədbirlər üçün ideal məkan kimi qəbul edilməsidir.**



Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında bildirib ki, otuz il davam edən işğal dövrünün əsas hədəfi olan "Azərbaycan Bayrağının Qarabağda, o cümlədən Şuşada, Xankəndidə dalğalanacağı gün uzaqda deyil" çağırışı artıq reallığa çevrilməklə yanaşı, hazırda bu torpaqlarda dost, qardaş, müttəfiq ölkələrin dövlət bayraqları Azərbaycan bayrağı ilə birlikdə dalğalanır. Bu cənnət məkanda beynəlxalq tədbirlər keçirilir, Qarabağdan, Şərqi Zəngəzurdan dünyaya mühüm mesajlar ünvanlanır. "İyulun 3-4-də Xankəndi şəhərindən beynəlxalq aləmə türk dünyasının qardaşlığının, həmrəyliyinin, birliyinin növbəti mesajları ünvanlandı. Son illərin Azərbaycan-Türkiyə-Pakistan qardaşlığı, həmrəyliyi də Zirvə görüşünün diqqətçəkən mühüm məqamlarından oldu. Bir sözlə, azad Qarabağımız bu günlərdə daha möhtəşəm, qürurlu anlarını yaşadı", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Prezident İlham Əliyevin Zirvə görüşü çərçivəsində bu məkanda ECO-nun üzv dövlətlərinin başçıları və digər rəsmiləri ilə çoxsaylı görüşlərinin hər biri istər ikitərəfli, istərsə də beynəlxalq təşkilatlar daxilində əlaqələrin inkişafında yeni səhifə açıb. V.Rəhimzadə xatırladıb ki, Prezident İlham Əliyev Zirvə görüşündəki çıxışında "Azərbaycan artıq üçüncü dəfədir ki, ECO-nun Zirvə görüşünə evsahibliyi edir. Əvvəlki iki Zirvə görüşü 2006-cı və 2012-ci illərdə paytaxt Bakıda keçirilmişdir" söyləyərək budəfəki sammitin Qarabağda, Xankəndidə təşkil edilməsinin xüsusi mənası olduğunu bildirib.

Vüqar Rəhimzadə deyib ki, suverenliyimizin tam bərpasından keçən iki ilə yaxın dövrdə Xankəndidə görülən işlərin timsalında bütün azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq tədbirləri barədə aydın təsəvvür yaratmaq mümkündür: "Zirvə görüşünün keçirildiyi Xankəndi Konqres Mərkəzinin dövlət başçısı İlham Əliyevin iştirakı ilə iyulun 3-də açılışı oldu. Ümumiyyətlə, Azərbaycan Prezidentinin Qarabağa son səfəri çərçivəsində açılışında və təməlqoyma mərasimində iştirak etdiyi, görülən işlərlə tanış olduğu sosial obyektlərin xronologiyası bu məkanın tərəqqi yolunda inamla addımlamasının aydın mənzərəsini yaradır. Sözügedən Zirvə görüşündə Prezident İlham Əliyevin qeyd etdiyi kimi, işğaldan azad olunmuş bütün Qarabağ və Şərqi Zəngəzurda hazırda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. İndi Azərbaycan Ermənistanın xarabazara çevirdiyi torpaqlarda yeni şəhərlər və kəndlər inşa edir. Böyük qayıdış proqramı icra edilir. Bu günə qədər 16 şəhər və kəndə keçmiş məcburi köçkünlərin qayıdışı təmin edilib. Hazırda azad edilmiş ərazilərdə 50 mindən çox insan yaşayır, çalışır və təhsil alır".

V.Rəhimzadə vurğulayıb ki, ECO-nun Zirvə görüşü Azərbaycanın regional inteqrasiya proseslərində fəal iştirakını daha da gücləndirməklə yanaşı, ölkəmizin beynəlxalq miqyasda diplomatik və iqtisadi mövqeyinin möhkəmlənməsinə mühüm töhfə verəcək. Cənubi və Mərkəzi Asiyadan Orta Şərqə qədər geniş bir coğrafiyanı əhatə edən və 10 üzv dövləti bir araya gətirən İqtisadi Əməkdaşlıq Təşkilatı regionda iqtisadi inteqrasiya, strateji əməkdaşlıq və davamlı inkişaf üçün önəmli platforma rolunu oynayır. Azərbaycanın xarici siyasətində ECO-ya üzv ölkələrlə əlaqələr vacib yer tutur. Ölkəmiz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində enerji və nəqliyyat sahələrində mühüm strateji mövqeyə malikdir. Azərbaycanın zəngin enerji ehtiyatları və əlverişli coğrafi yerləşməsi onu regionda aparıcı tranzit və enerji mərkəzlərindən birinə çevirib. Azərbaycan yalnız enerji resurslarının hasilatında deyil, həm də onların beynəlxalq bazarlara daşınmasında mühüm rol oynayır. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və "Cənub qaz dəhlizi" kimi layihələr ECO məkanında enerji təhlükəsizliyinin təmin olunmasına əhəmiyyətli töhfələr verir. Azərbaycan yerləşdiyi geostrateji mövqeyə görə həm "Şimal-Cənub", həm də "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin əsas iştirakçısıdır.

Deputat bildirib ki, hər bir beynəlxalq əhəmiyyətli tədbir gündəmə gətirdiyi məsələlərin, onların həllinə nail olmaq üçün atılacaq addımların təqdimatı ilə diqqət çəkir. ECO-ya üzv ölkələrin dövlət başçılarının Zirvə görüşündə çıxışlarında da günümüzün əsas çağırışları öz əksini tapdı: "Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zirvə görüşünün keçirildiyi Xankəndi şəhərinin Qafqaz regionunda yeni inkişaf və sülh mərkəzinə çevriləcəyini vurğuladı, həmçinin Şuşa şəhərinin 2026-cı ildə İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı seçilməsi münasibətilə dövlət başçısı İlham Əliyevin şəxsində bütün Azərbaycan xalqını təbrik etdi. Ticarətdən nəqliyyata, ətraf mühitdən enerjiyə qədər müxtəlif sahələrdə geniş potensiala sahib olan İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşünün iqlim dəyişikliyinə həsr edilməsinin son dərəcə doğru qərar olduğunu bildirdi. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev hər hansı sülh və inkişafın bünövrəsinin öncə iqtisadi əməkdaşlığa söykəndiyini önə çəkərək vurğuladı ki, təşkilat daxilində tərəfdaşlığımız nəinki təbiidir, o cümlədən böyük strateji əhəmiyyətə malikdir. Təşkilatın orta və uzunmüddətli inkişaf prioritetlərini aydın şəkildə müəyyən etmək üçün "İqtisadi əməkdaşlığın strateji məqsədləri 2035" adlı konsepsiyanın qəbulunun zəruriliyi bildirildi. Azərbaycanın ötən il evsahibliyi etdiyi COP29 iqlim konfransında qəbul edilən qərarların uğurlu icrası təqdir olundu. Çıxışların hər birində Zirvə görüşünün qarşıya qoyulan məqsədlərə, planlara nail olmaq işinə stimul olacağı, çoxtərəfli və praktiki əməkdaşlığı yeni səviyyəyə qaldıracağına əminlik ifadə edildi".

V.Rəhimzadə qeyd edib ki, Azərbaycan ECO çərçivəsində əlaqələrin gücləndirilməsində və əməkdaşlığın genişləndirilməsində maraqlı tərəfdir. Xankəndi Zirvə görüşü ölkəmizin ECO daxilində yüksək etimada, təşəbbüskar mövqeyə malik olduğunu, regional əməkdaşlığa verdiyi töhfələrin yüksək qiymətləndirildiyini bir daha təsdiqlədi.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları



## ECO Zirvəsinin Xankəndi gündəliyi

### Yeni təkliflər, əlavə imkanlar

**İki gün öncə Xankəndi şəhəri İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) iqlim dəyişmələrinə həsr olunmuş 17-ci Zirvə görüşünə evsahibliyi etdi. Təşkilata üzv ölkələrin liderlərini və yüksəksəviyyəli nümayəndə heyətlərini bir araya gətirən tədbir təkcə siyasi yöndən deyil, həm də iqtisadi baxımdan böyük əhəmiyyət daşıyır. Müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsi, ticarət əlaqələrinin genişləndirilməsi və dayanıqlı iqtisadi inkişafın təşviqi kimi mövzuların müzakirə edildiyi Zirvə görüşü Xankəndinin regional inteqrasiyada yeni rolunun formalaşmasında da mühüm addım oldu.**

Qeyd edək ki, Zirvə görüşündən əvvəl Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində ECO Həftəsi keçirildi. Bu mühüm hadisə təkcə diplomatik və iqtisadi dairələrdə deyil, həm də ictimaiyyət arasında böyük maraqla qarşılandı. ECO Həftəsində işğaldan azad edilmiş Şuşa, Ağdam və Laçın yenidən diqqət mərkəzinə gəldi. Şuşada təşkil olunmuş ECO Biznes-Forumu regional iqtisadi əməkdaşlığın yeni üfüqlərini müəyyən edərkən Ağdamda keçirilən Gənclər Forumu gələcəyin liderlərini bir araya gətirdi. Laçında baş tutan Qadınlar Forumu isə xanımların iqtisadi və ictimai həyatda artan rolunu vurğulayan mühüm bir platforma oldu. Zirvə çərçivəsində baş tutan bu forumlar təbii ki, təkcə yerli səviyyədə deyil, həm də beynəlxalq miqyasda iqtisadi canlanmanın göstəricisidir. Burada təqdim olunan layihələr xarici investorların marağını cəlb etməklə yanaşı, işğaldan azad edilmiş ərazilərin iqtisadi reabilitasiyası üçün model rolunu oynayır. Forumlarda iştirak edən nümayəndələr Xankəndidə keçirilən Zirvə görüşündə öz təəssüratlarını bölüşdülər, gördükləri işlər və əldə olunan nəticələrlə bağlı tədbir iştirakçılarına bilgi verdilər.

Azərbaycanda üçüncü dəfədir keçirilən ECO Zirvəsi təbii ki, bu dəfə də sıradan bir görüş olmadı. Tədbir ECO məkanında iqtisadi transformasiyanın, inteqrasiya və inkişafın yol xəritəsini müəyyən edən tarixi hadisə kimi diqqət çəkdi. Yeri gəlmişkən, Azərbaycanın təşəbbüsü ilə gündəmə gətirilən ECO çərçivəsində "Təmiz enerji və tədqiqat mərkəzi"nin qurulması istiqamətində görülən işlər ona dəlalət edir ki, yaxın gələcəkdə təşkilat çərçivəsində innovasiya və davamlı inkişafın əsas dayaqları formalaşacaq. Həm regional, həm də qlobal çağırışlara cavab vermək üçün strateji bilik və texnoloji həllərin ünvanı olacaq mərkəz xüsusilə təmiz enerji sahəsində əməkdaşlıq, enerji təhlükəsizliyi və "yaşıl iqtisadiyyat" istiqamətində bölgənin rəqabət qabiliyyətini artıracaq.

17-ci ECO Zirvəsi regionun iqtisadi xəritəsində yeni imkanların açılması baxımından mühüm mərhələ idi. Tədbir iştirakçı ölkələr arasında ticarət, investisiya, nəqliyyat-logistika və enerji sahələrində əməkdaşlığın dərinləşdirilməsi istiqamətində real addımların müzakirə edildiyi və konkret təşəbbüslərin ortaya qoyulduğu strateji platformaya çevrildi. ECO-ya üzv ölkələrin ortaq maraqlarını əks etdirən təşəbbüslər regionda dayanıqlı inkişaf, iqtisadi sabitlik və qarşılıqlı asılılığın gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Bu mənada İlham Əliyevin çıxışında söylədiyi fikirlər mühüm əhəmiyyət kəsb edir: "Bizim ölkəmizdə çox müsbət sərmayə iqlimi vardır. Son 20 il ərzində Azərbaycan iqtisadiyyatına 350 milyard ABŞ dollarına yaxın sərmayə qoyulmuşdur ki, bunun da yarısı xarici sərmayədir. Bu gün Azərbaycan bir çox ölkənin enerji təhlükəsizliyini təmin edir və müxtəlif qaz boru kəmərləri vasitəsilə 12 ölkəyə təbii qaz ixrac edir. Bu göstəriciyə görə biz dünyada ön sıralardayıq. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir və ECO-ya üzv ölkələrin əksəriyyəti bu dəhlizlərdən istifadə edir".

Zirvə çərçivəsində qəbul olunan sənədlər və liderlərin verdiyi mesajlar regionun iqtisadi gələcəyi ilə bağlı ümumi baxışın formalaşdığını göstərir və sübut edir ki, ECO-nun gələcək fəaliyyətində praktiki nəticələrə yönəlmiş əməkdaşlıq, iqtisadi inteqrasiya və ortaq maraqlar əsasında tərəfdaşlıq prioritetlərdən biri olacaq. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev qeyd olunan məsələ ətrafında, daha doğrusu, təşkilatın gələcək planları haqqında fikirlərini belə ifadə etdi: "Əvvəlcə biz təşkilatımızın orta və uzunmüddətli inkişaf prioritetlərini aydın şəkildə müəyyən etməliyik. Bunun üçün "İqtisadi əməkdaşlığın strateji məqsədləri 2035" adlı konsepsiyanı qəbul etmək zəruridir. Ticarət, sərmayə, nəqliyyat, enerji, sənaye, kənd təsərrüfatı, ekologiya, turizm və təhsil kimi ənənəvi sahələrlə yanaşı, biz həmçinin innovasiya, süni intellekt və rəqəmsal texnologiyalar üzrə əməkdaşlığın gücləndirilməsinə xüsusi diqqət yetirməliyik". Özbəkistanın dövlət başçısı diqqəti əmtəə və xidmətlərdə ticarətin asanlaşdırılması, texniki və qeyri-tarif manеələrin tədricən aradan qaldırılması, eləcə də diqqəti elektron ticarətin inkişafına cəlb edərək bu il Daşkənddə ECO-ya üzv dövlətlərin ticarət nazirlərinin toplantısını keçirməyi və Ticarətin Asanlaşdırılması Sazişinin imzalanmasını təklif etdi, "yaşıl dəhliz"lər sistemini yaratmağın vacibliyini vurğuladı.

Ticarətdən nəqliyyata, ətraf mühitdən enerjiyə qədər müxtəlif sahələrdə geniş potensiala malik ECO-nun bu Zirvə görüşü iqlim dəyişmələrinə həsr olunduğu üçün səsləndirilən bütün fikirlərin mərkəzində dayanıqlı inkişaf, ekoloji balansın qorunması və "yaşıl iqtisadiyyat"ın təşviqi dayanırdı. İqlim dəyişmələrinin yaratdığı qlobal təhlükələr fonunda ECO-ya üzv ölkələrin məsələyə vahid mövqedən yanaşması onun ekoloji təhlükəsizlik baxımından nə qədər vacib olduğunu nümayiş etdirdi. Zirvə çərçivəsində təqdim olunan təşəbbüslər - təmiz enerji texnologiyalarının tətbiqi, "yaşıl nəqliyyat" şəbəkələrinin yaradılması, tullantıların idarə olunması və su ehtiyatlarının səmərəli istifadəsi kimi məsələlər gələcəkdə bölgənin iqtisadi inkişaf modelinin formalaşmasına zəmin yaradır. Bu da o deməkdir ki, Xankəndi Zirvə görüşü həm iqlim çağırışlarına cavab vermək, həm də onları yeni iqtisadi fürsətə çevirmək yolunda strateji dönüş nöqtəsi kimi tarixə düşdü.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Xankəndi Zirvə görüşü

### Prezident İlham Əliyevin yaratdığı növbəti nümunə

**İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndidə keçirilən XVII sammiti, əslində, dünya siyasətində müəllifi Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin olduğu növbəti presedentdir.**

Milli Məclisin deputatı Sahib Alıyev qəzetimizə açıqlamasında bildirib ki, birinci presedent əgər BMT yaranandan bəri onun Təhlükəsizlik Şurasının 5 daimi üzvündən 3-ünün açıq şəkildə qarşı çıxmalarına rəğmən Azərbaycanın həmin qurumun qətnamələrini yerinə yetirən tək dövlət olması idisə, ikincisi, son 30 ildə terror yuvasına, ondan xeyli əvvəl çar Rusiyasının regiona gəlişi ilə Qafqazda qarşıdurma ştilxanasına çevrilmiş Xankəndidə Şimali Kipr liderinin Mərkəzi Asiya ölkələrinin rəhbərləri ilə birgə qatıldığı, həm də türk dünyasının birliyinə, onun güc mərkəzi olaraq formalaşmasına öz töhfəsini verən, sözün hər anlamında yüksəksəviyyəli beynəlxalq tədbirin keçirilməsidir.

Deputat qeyd edib ki, Qarabağın necə dəyişdiyini, onun adı çəkiləndə göz önünə görünməmiş quruculuq, sülh və dayanıqlı inkişaf, beynəlxalq əməkdaşlıq, kooperasiya platforması gəldiyini görmək çox qürurvericidir: "Demək ki, dövlətin böyüklüyü torpaq ələ keçirməsi ilə yox, bu qəbildən olan addımlar nəticəsində xarabalığa çevrilən yerləri çox qısa müddətdə yaşayış, turizm, təhsil üçün cəlbedici edə bilməsi ilə ölçülməlidir. Elə bu Zirvə görüşü həm də onu göstərir ki, Azərbaycana imperiya stereotiplərindən yanaşanlar nə qədər yanlış yoldadırlar və etdikləri Danninq-Krüqer hipotetik effektinin bütövlükdə dövlət səviyyəsində təzahürüdür. Ona görə ki, imperiya mərəzindən qurtula bilməyənlər özləri düşündükləri kimi ağıllı olsaydılar, sadəcə Özbəkistanın Bakıda yeni səfirliyinin açılışı zamanı cənab



İlham Əliyevin bir xatırlatmasına diqqət yetirmələri bəs edərdi. Prezident İlham Əliyev Ulu Öndərin hələ 2001-ci ildə Özbəkistana səfirlik üçün yer ayırdığını, 20 ildən artıq orada heç bir tikinti aparılmadığı və ora göz tikənlərin çox olduğu halda səbirlə qardaş ölkənin gəlib işə başlayacağı günün gözlənildiyini bildirdi".

S.Alıyev deyib ki, Heydər Əliyev yolundan bir addım da kənara çıxmayan, onun irsinə, qərar, istək və nəsihətinə son dərəcə həssaslıqla yanaşan iradəli bir liderin kimlərinsə təzyiqlərinə, imperiyanı bərpa cəhdlərinə boyun əyəcəyini düşünmək mümkündürmü? Dövlət başçımız hələ SSRİ mövcudkən 1991-ci il martın 7-də Milli Məclisdə Ulu Öndərin "əgər digər respublikalar ittifaqda qalsalar belə Azərbaycan oradan çıxmalı, onlarla ikitərəfli əlaqələr qurmalıdır" sözlərini unuda bilərmi? Bu gün baş verənlər də təsdiqləyir ki, əsla!

Deputat vurğulayıb ki, bu gün baş verənlər, yəni imperiya təkəbbürü göstərənlərin qətiyyətlə yerlərində oturdulması, əslində, Heydər Əliyevin bütün riskləri öz üzərinə götürərək Mərkəzi Asiyadakı qardaş ölkələrin karbohidrogen ehtiyatlarından ancaq öz milli çıxarlarına uyğun şəkildə faydalanmalarının yolunu açması və onların dünya bazarına çıxarılması üzərindəki inhisarı darmadağın etməsinin başqa bir müstəvidə təkrarlanmasıdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Azərbaycan ECO-ya üzv dövlətlərlə əməkdaşlığın inkişafına töhfə verir

**"Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) çərçivəsində siyasəti ölkəmizin regional və beynəlxalq iqtisadi münasibətlər sistemindəki fəal rolunu əks etdirir. ECO-ya 1992-ci ildən üzv olan Azərbaycan təşkilat daxilində həyata keçirilən bir sıra təşəbbüslərdə fəal iştirak edir və üzv dövlətlərlə iqtisadiyyat, ticarət, enerji, nəqliyyat, turizm, kənd təsərrüfatı və ekologiya sahələrində əməkdaşlığın inkişafına töhfə verir".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə deyib.

Deputat bildirib ki, Azərbaycanın ECO ilə əməkdaşlığı yalnız iqtisadi əlaqələrin genişləndirilməsi deyil, həm də mədəni, elmi və humanitar sahələrdə qarşılıqlı fəaliyyətin gücləndirilməsi baxımından əhəmiyyət daşıyır. Bu əməkdaşlıq ölkənin regional inteqrasiya proseslərinə daha sıx qoşulmasına və ECO məkanında sülh, sabitlik və inkişaf naminə həyata keçirilən birgə təşəbbüslərdə mühüm tərəfdaş kimi çıxış etməsinə imkan yaradır. Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatında iqtisadi təşəbbüsləri və regional liderlik rolu ölkənin son illərdə artan iqtisadi gücü, strateji mövqeyi və çoxşaxəli diplomatik fəallığı fonunda ön plana çıxır. Azərbaycan regionda ticarət, enerji, nəqliyyat və logistika sahələrində irəli sürdüyü təşəbbüslərlə ECO məkanında əməkdaşlığın dərinləşdirilməsinə mühüm töhfələr verir. Bakı-Tbilisi-Qars dəmir yolu, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu və "Cənub qaz dəhlizi" kimi layihələr bu baxımdan xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan ECO-nun üzvü olaraq təşkilatın məqsəd və prinsiplərinə sadiqliyini dəfələrlə nümayiş etdirib. Xüsusilə enerji, nəqliyyat, ticarət, kənd təsərrüfatı və "yaşıl iqtisadiyyat" sahələrində həyata keçirilən əməkdaşlıq təşəbbüsləri ölkəmizin regional və beynəlxalq rolunu daha da gücləndirib. Bu baxımdan Azərbaycan ECO-nun strateji hədəflərinə uyğun addımlar ataraq, regionda sabitliyin və inkişafın təmin olunmasına töhfə verir. Ölkəmiz ECO-nun 2006-cı ilin mayında və 2012-ci ilin oktyabrında Bakıda keçirilmiş 9-cu və 12-ci Zirvə görüşlərinə uğurla evsahibliyi edib. Bu toplantılar çərçivəsində qəbul olunan qərarlar təşkilat daxilində əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə keçməsinə şərait yaradıb. Həmin Zirvə görüşlərində Azərbaycanın təşəbbüsü ilə enerji təhlükəsizliyi, nəqliyyat bağlantılarının gücləndirilməsi, ekoloji məsələlər və davamlı inkişaf mövzularında vacib sənədlər qəbul olunub. Bu da Azərbaycanın ECO daxilində təşəbbüskar və regional lider statusunu bir daha təsdiqləyib.

İyulun 4-də isə ölkəmiz İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci sammitinə evsahibliyi etdi. Sammitin xüsusi özəlliyi onun Xankəndi şəhərində keçirilməsi idi. Liderlər, xarici qonaqlar 30 ildən çox Ermənistanın işğalı altında olmuş Xankəndini Azərbaycan dövlətinin yenidən dirçəltmək əzminə şahidlik etdilər. Həm də işğaldan azad edilmiş ərazilərimiz artıq böyük beynəlxalq tədbirlərə evsahibliyi etmək iqtidarındadır.

Deputatın sözlərinə görə, 17-ci Zirvə görüşündə Prezident İlham Əliyev dərin məzmunlu çıxış edərək tədbirin Xankəndi şəhərində keçirilməsinin xüsusi məna daşıdığını vurğulayıb. Dövlət başçısı işğal dövründə Ermənistanın törətdiyi vandalizmi, eləcə də azad olunmuş ərazilərimizin bərpası yönündə görülən işləri diqqətə çatdırıb. Prezident İlham Əliyevin dediyi kimi, azad olunmuş ərazilərimizdə mühüm beynəlxalq tədbirlər keçirilir. O cümlədən Azərbaycanın təşəbbüsü ilə bu il ilk dəfə ECO Həftəsi keçirilib. Şuşada ECO-nun Biznes-Forumu, Ağdamda Gənclər Forumu, Laçında isə Qadınlar Forumu təşkil edilib. ECO-nun Azərbaycanda yerləşəcək Tədqiqat Mərkəzinin və Təmiz Enerji Mərkəzinin fəaliyyətə başlamasının təmin olunması istiqamətində isə işlər davam edir.

"Bütövlükdə, İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci sammitinin Azərbaycanda keçirilməsi ölkəmizin bu nüfuzlu regional qurum çərçivəsində artan rolunun və fəallığının təsdiqidir. Bu mühüm tədbir Azərbaycanın təşkilat daxilində təşəbbüskar mövqeyə malik olduğunu, regional əməkdaşlığa verdiyi töhfələrin yüksək qiymətləndirildiyini göstərir. Bu sammit Azərbaycanın regional inteqrasiya proseslərində fəal iştirakını daha da gücləndirməklə yanaşı, ölkənin beynəlxalq miqyasda diplomatik və iqtisadi mövqeyinin möhkəmlənməsinə də mühüm töhfə verəcək. Eyni zamanda Azərbaycanın təklif etdiyi yeni əməkdaşlıq formatlarının və layihələrin ECO məkanında həyata keçirilməsi üçün əlverişli imkanlar formalaşacaq. Beləliklə, Azərbaycanın ECO çərçivəsində əməkdaşlığın genişləndirilməsində maraqları kompleks və strateji xarakter daşıyır, bu təşkilatla əlaqələrin inkişafı ölkənin regional və beynəlxalq mövqeyinin daha da möhkəmlənməsinə xidmət edir" deyən YAP İdarə Heyətinin üzvü vurğulayıb ki, Şuşa şəhərinin 2026-cı ildə "ECO-nun turizm paytaxtı" elan olunması Qarabağın incisini dünyaya turizm mərkəzi kimi tanıdacaq. Şuşanın turizm potensialı bunu deməyə tam əsas verir.

## *Ekspert:* "ECO-nun Zirvə görüşü Azərbaycan, üzv ölkələr və region üçün yeni perspektivlər yaradır"

**"İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü beynəlxalq münasibətlər sistemində islam ölkələrinin qarşılıqlı əməkdaşlıq potensialını nümayiş etdirmək baxımından böyük əhəmiyyət kəsb edir. Bu cür yüksəksəviyyəli tədbirlər yalnız siyasi dialoqu gücləndirmir, həm də iqtisadi, mədəni və təhlükəsizlik sahələrində konkret təşəbbüslərin formalaşdırılmasına təkan verir. Azərbaycan üçün bu Zirvə görüşü həm regional, həm də qlobal miqyasda mövqeyini daha da möhkəmləndirmək üçün əlamətdar hadisədir".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri Eyyub Kərimli söyləyib. O bildirib ki, Azərbaycan üçün ECO-nun Zirvə görüşü bir neçə vacib aspektdə əhəmiyyətlidir. Əvvəla, bu platforma vasitəsilə ölkəmiz öz xarici siyasət kursunu islam aləmi ilə daha sıx koordinasiya edə bilər. Qarabağ məsələsində Azərbaycanın ədalətli mövqeyinin İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlər tərəfindən dəstəklənməsi, beynəlxalq ictimaiyyətdə haqlı mövqeyin tanıdılması baxımından vacibdir.

Bundan əlavə, Azərbaycanın təşəbbüsü ilə ticarət, enerji, nəqliyyat və turizm sahələrində yeni əməkdaşlıq formatlarının təşviq edilməsi mümkündür. Xüsusilə Orta dəhliz və Zəngəzur dəhlizi kimi nəqliyyat layihələrinin ECO çərçivəsində müzakirəsi Azərbaycanın regiondakı strateji rolunu daha da artırır.



"ECO-nun 17-ci Zirvə görüşü iştirakçı ölkələrə qarşılıqlı iqtisadi asılılığın azaldılması və ortaq iqtisadi layihələrin həyata keçirilməsi üçün mühüm platforma təqdim edir. Qlobal ərzaq və enerji təhlükəsizliyi məsələləri fonunda üzv ölkələrin resurs potensialı birgə səylərlə səmərəli idarə oluna bilər. Birgə sərmayə fondlarının yaradılması, İqtisadi Əməkdaşlıq Təşkilatı daxili ticarət proqramlarının genişləndirilməsi və texnologiya transferi bu baxımdan xüsusilə aktuallaşır. Bundan əlavə, islamofobiya ilə mübarizə, təhsil və elm sahələrində ortaq layihələrin təşviqi, qadınların və gənclərin inkişafına yönəlik proqramların reallaşdırılması İqtisadi Əməkdaşlıq Təşkilatının gündəliyində prioritet istiqamətlər kimi qalmaqdadır", - deyə E.Kərimli vurğulayıb.

Ekspertin sözlərinə görə, Zirvə görüşü təkcə üzv dövlətlər üçün deyil, bütövlükdə region üçün sabitlik və inkişaf imkanları yaradır: "Orta Şərq, Qafqaz, Mərkəzi Asiya və Afrikada baş verən geosiyasi proseslər fonunda İqtisadi Əməkdaşlıq Təşkilatının vahid və prinsipial mövqe nümayiş etdirməsi beynəlxalq təhlükəsizlik sistemində yeni dinamika yarada bilər.

Regional nəqliyyat və enerji layihələrinin inkişafı, tranzit ölkələrin rolunu artırmaqla, həm də ticarət əlaqələrinin genişlənməsinə şərait yaradır. Eyni zamanda ekoloji problemlər, su ehtiyatlarının idarə olunması, iqlim dəyişikliyi kimi qlobal çağırışlara qarşı ortaq mexanizmlərin formalaşdırılması zəruridir.

ECO-nun 17-ci Zirvə görüşü yalnız bir diplomatik tədbir deyil, eyni zamanda islam dünyasının ortaq inkişaf və həmrəylik vizyonunun formalaşdırılması üçün strateji imkan pəncərəsidir. Azərbaycan üçün bu görüş iqtisadi diplomatiyanın gücləndirilməsi, regional liderliyin möhkəmləndirilməsi və islam həmrəyliyinin təcəssüm etdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Görüş çərçivəsində qəbul ediləcək qərarlar və irəli sürüləcək təşəbbüslər gələcəkdə daha ədalətli və davamlı beynəlxalq münasibətlər sisteminin qurulmasına töhfə verə bilər.

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider



## Etibarlı tərəfdaş, təşəbbüskar ölkə

### Xankəndi Zirvə görüşü iqtisadi inteqrasiya, davamlı inkişaf üçün önəmli platforma rolunu oynadı

**Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşünün keçirilməsi Azərbaycan üçün növbəti tarixi hadisə kimi yaddaşlara yazıldı.**

Düzdür, indiyədək Azərbaycan təşkilatın 2 Zirvə görüşünə evsahibliyi etmişdi. Amma bu dəfə sammitin suverenliyini tam bərpa etmiş ölkəmizin gözəl şəhərlərindən biri olan Xankəndidə keçirilməsinin Prezident İlham Əliyevin söylədiyi kimi xüsusi mənası var. Dost və qardaş ölkələrin liderlərinin Qarabağ torpağına növbəti səfərləri, İlham Əliyevin işğaldan azad etdiyi ərazilərdə cəmi 5 ilə yaxın müddətdə yaratdığı xarüqələri canlı seyr etmələri Azərbaycanı istəməyən, yüksəlişini həzm edə bilməyən qüvvələrə tutarlı zərbə oldu.

İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü ölkəmizin müasir siyasi kursunun, iqtisadi hədəflərinin və regional liderlik ambisiyalarının göstəricisi kimi qiymətləndirilə bilər. Həm simvolik, həm də siyasi baxımdan böyük əhəmiyyət daşıyan sammit bir daha dünyanın diqqətini Qarabağa yönəltdı. Beyəlxalq ictimaiyyət ilk növbədə son beş ildə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərini gördü. Eyni zamanda Azərbaycanın həm təşəbbüskar ölkə olduğunu, həm də istənilən konfransa yüksəksəviyyəli evsahibliyi təcrübəsinə sahibləndiyinə şahidlik etdi.

Xankəndi sammiti bir daha göstərdi ki, bu gün paytaxt Bakı ilə yanaşı, artıq azad edilmiş ərazilərimiz də beynəlxalq tədbirlər üçün ideal məkandır. İndi azad Qarabağımız və Şərqi Zəngəzur xoşbəxt günlərini yaşayır.

Zirvə görüşü çərçivəsində atılan addımlar həm də türk birliyinin daha da möhkəmlənməsində əhəmiyyətli rol oynadı. Digər tərəfdən İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə toplantısı Azərbaycana mühüm dividendlər qazandırdı. Ölkəmiz bu təşkilatın fəal üzvüdür. 1985-ci ildə yaradılan təşkilatda hazırda Azərbaycan, Türkiyə, İran və Pakistan ilə yanaşı Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan, Türkmənistan da təmsil olunurlar. Bu da onun türk-islam birliyinin güclənməsini şərtləndirən təşkilat olduğunu göstərir.

Təşkilatın yaradılmasında məqsəd dayanıqlı iqtisadi inkişafa nail olmaq, ticarəti təşviq, dünya iqtisadiyyatına inteqrasiya və səmərəli nəqliyyat sistemini inkişaf etdirməkdən ibarət olub. Müstəqilliyini bərpa edən Azərbaycan təşkilata 1992-ci ildə qoşulub. Azərbaycanla yanaşı Mərkəzi Asiya respublikaları da yeni iqtisadi modelə keçidlə əlaqədar olaraq region dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurmaq naminə təşkilata üzv olublar. Azərbaycan ECO-da həm geosiyasi, həm də iqtisadi baxımdan aparıcı dövlətdir. Ölkəmizin irəli sürdüyü və beynəlxalq əhəmiyyətə malik olan layihələrdə təşkilata üzv dövlətlər də iştirak edirlər. Bakı ECO-nun 2006-cı ilin mayında və 2012-ci ilin oktyabrında 9-cu və 12-ci Zirvə görüşlərinə uğurla evsahibliyi edib. Bu toplantılar çərçivəsində qəbul olunan qərarlar təşkilat daxilində əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə keçməsinə şərait yaradıb. Həmin zirvə görüşlərində Azərbaycanın təşəbbüsü ilə enerji təhlükəsizliyi, nəqliyyat bağlantılarının gücləndirilməsi, ekoloji məsələlər və davamlı inkişaf mövzularında vacib sənədlər qəbul olunub.

Cənubi və Mərkəzi Asiyadan tutmuş Orta Şərqə qədər geniş bir coğrafiyanı əhatə edən və 10 dövləti bir araya gətirən İqtisadi Əməkdaşlıq Təşkilatı bu gün regionda iqtisadi inteqrasiya, strateji əməkdaşlıq və davamlı inkişaf üçün önəmli platforma rolunu oynayır.

Zirvə görüşündə çıxış edən Prezident İlham Əliyev bir daha bəyan etdi ki, Azərbaycan ECO-nun işində həmişə fəal olub və təşkilata üzv ölkələrlə əlaqələr uğurla inkişaf edir. Keçən il tarixdə ilk dəfə olaraq ECO məkanında COP29 konfransı keçirilib. Bu konfransda 197 ölkə, 70 dövlət və hökumət başçısı iştirak edib, 77 min şəxs qeydiyyatdan keçib. Konfransda əldə edilmiş əsas nailiyyətlər inkişaf etməkdə olan ölkələrə maliyyə yardımının 100 milyarddan 300 milyard ABŞ dollarına qədər artırılması, İtki və Zərər Fondunun işlək vəziyyətə gətirilməsi və karbon bazarları barədə razılaşmalardan ibarət olub: "Azərbaycanın təşəbbüsü ilə bu il ilk dəfə ECO Həftəsi keçirilir. Şuşada ECO-nun Biznes-Forumu, Ağdamda Gənclər Forumu, Laçında isə Qadınlar Forumu təşkil edilmişdir. Forumda iştirak etmiş nümayəndələr bu gün burada görülmüş işlərlə bağlı məruzələr təqdim edəcəklər. ECO-nun Azərbaycanda yerləşəcək Tədqiqat Mərkəzinin və Təmiz Enerji Mərkəzinin fəaliyyətə başlamasının təmin olunması istiqamətində işlər davam edir". Prezident həmçinin 2026-cı ilin Şuşa şəhərinin "ECO-nun Turizm paytaxtı" elan edilməsinə görə təşkilat üzvlərinə təşəkkürünü bildirib.

Xankəndi Zirvə görüşündə müzakirə edilən məsələlər iqtisadi sahədə əməkdaşlığı dərinləşdirmək üçün real imkan yaratdı. Bu sammit eyni zamanda Azərbaycanın təşkilat daxilində təşəbbüskar mövqeyə malik olduğunu, regional əməkdaşlığa verdiyi töhfələrin yüksək qiymətləndirildiyini bir daha təsdiqlədi.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## *Oral TOĞA:* "Ankara və Bakı ECO-nun təmiz enerjiyə keçidində regional yolgöstəriciləri ola bilər"

**AZƏRTAC Türkiyənin beynəlxalq münasibətlər üzrə eksperti, İran Araşdırmaları Mərkəzinin (IRAM) baş elmi əməkdaşı Oral Toğa ilə müsahibəni təqdim edir.**



*- Siz İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Şuşada keçirilən 6-cı ECO biznes-forumunun iqtisadi gündəmini necə qiymətləndirirsiniz? Türkiyə və Azərbaycan arasında iqtisadi artım və dayanıqlılıq baxımından ən perspektivli əməkdaşlıq sahələri hansılardır?*

- Şuşada keçirilən 6-cı ECO biznes-forumunun iqtisadi gündəmi simvolik bəyanatlardan konkret regional strategiyalara keçidin baş verdiyini göstərir. Əsas diqqət ticarətin asanlaşdırılmasına, gömrük prosedurlarının rəqəmsallaşdırılmasına və ECOTA (İqtisadi Əməkdaşlıq Təşkilatı Ticarət Razılaşması) çərçivə sazişinin praktik tətbiqinə yönəlib. Bütün bunlar təşkilata üzv ölkələrin iqtisadi reallıqlarına uyğunlaşdırılmış davamlı inkişaf modelini təşviq etməklə yanaşı, bölgədaxili ticarət potensialının reallaşdırılmasına xidmət edir. Türkiyə-Azərbaycan əməkdaşlığı kontekstində ən perspektivli sahələrə enerji tranzit infrastrukturlarının inkişafı - TANAP və Cənub Qaz Dəhlizi kimi layihələr - daxildir. Bununla yanaşı, Bakı-Tbilisi-Qars dəmir yolu və planlaşdırılan Zəngəzur dəhlizi vasitəsilə transsərhəd logistikanın gücləndirilməsi də xüsusi əhəmiyyət daşıyır. Əlavə olaraq, kənd təsərrüfatı və rəqəmsal transformasiya sahəsində də ciddi potensial mövcuddur. Bu sahələr həm hər iki ölkənin strateji məqsədləri ilə üst-üstə düşür, həm də regional inteqrasiyanı təşviq edərək inklüziv iqtisadi artım üçün dayanıqlı əsaslar yaradır.

*- Biznes-forumunun əsas istiqamətlərindən biri ECO ölkələri arasında ticarətin inkişafı oldu. Təşkilat çərçivəsində, xüsusilə ECOTA Ticarət Sazişinin mexanizmlərindən istifadə etməklə, qarşılıqlı ticarətin artırılması məqsədləri nə dərəcədə real görünür? Bu prosesdə Azərbaycan və Türkiyə hansı rolu oynaya bilər?*

- ECO daxilində ticarət həcminin artırılması məqsədləri iddialıdır, lakin əlverişli siyasi iradə və iştirakçı dövlətlərin uzun müddətdir mövcud olan normativ və logistik maneələrin aradan qaldırılmasına sadiqliyi olduğu təqdirdə, bu məqsədlərə nail olmaq mümkündür. ECOTA sazişi ratifikasiya edilsə də, onun tətbiqi yavaş və qeyri-bərabər şəkildə irəliləyir. Bu isə tarif cədvəllərinin uzlaşmaması, rəqəmsal inteqrasiyanın aşağı səviyyədə olması və mübahisələrin həlli mexanizmlərinin zəifliyi ilə əlaqədardır. Bununla belə, xüsusilə Şuşada keçirilən biznes-forumda müşahidə olunan dinamika ECOTA-nın aktivləşdirilməsinə yönəlmiş səylərin yenidən canlandığını göstərir. Bu, gömrük prosedurlarının sadələşdirilməsi, mənşə qaydalarının uyğunlaşdırılması və qarşılıqlı inzibati yardım mexanizmlərinin inkişaf etdirilməsi vasitəsilə həyata keçirilə bilər.

Türkiyə və Azərbaycan bu prosesin lokomotivi olmaq üçün bütün imkanlara malikdir. Türkiyə Avropa İttifaqı ilə gömrük ittifaqı çərçivəsində qazandığı institusional təcrübəyə sahibdir, Azərbaycan isə əlverişli logistik mövqeyə və genişlənən tranzit infrastrukturuna malikdir. Əgər bu iki ölkə ECOTA ilə uyğun gələn pilot ticarət dəhlizləri və rəqəmsal platformaların tətbiqi üzrə səylərini uzlaşdıra bilsələr, onlar regional ticarətin mərhələli şəkildə liberallaşdırılması üçün praktik bir model yarada bilərlər.

*- Gözlənilir ki, yaşıl enerji sahəsində iqtisadi əməkdaşlıq gücləndiriləcək - xüsusilə, ECO-nun Təmiz Enerji Mərkəzinin fəaliyyəti müzakirə olunur. Ankara və Bakı üçün "yaşıl transformasiya"nın hansı istiqamətləri ortaq prioritetlərə çevrilə bilər?*

- Ankara və Bakı öz milli enerji strategiyalarını regionda daha geniş davamlı inkişaf məqsədləri ilə uyğunlaşdırmaq istiqamətində getdikcə daha çox maraq göstərirlər. ECO-nun Təmiz Enerji Mərkəzinin çərçivəsində hər iki ölkə "yaşıl transformasiya"nın əsas sahələrində birgə liderlik potensialına malikdir. Prioritet istiqamətlərə günəş və külək enerjisi infrastrukturlarının inkişafı, sərhədlərarası "ağıllı şəbəkə"lərin (smart grids) yaradılması, habelə hidrogen texnologiyaları və enerji saxlama sistemləri üzrə əməkdaşlıq daxil ola bilər. Qarabağı "yaşıl enerji zonası"na çevirmək hədəfi Türkiyənin sürətlə inkişaf edən bərpaolunan enerji sektoruyla yaxşı uyğunlaşır. Şəbəkələrin inteqrasiyası, təmiz texnologiyaların transferi və "yaşıl maliyyələşdirmə" mexanizmlərinin yaradılması üzrə birgə layihələr hər iki ölkənin uzunmüddətli dekarbonizasiya hədəflərinə töhfə verə bilər. Pilot təşəbbüslər və normativ-hüquqi bazanın uyğunlaşdırılması sayəsində Ankara və Bakı ECO-nun təmiz energetikaya keçidində regional nümunə müəyyən edə bilərlər.

*- Azərbaycan və Türkiyə Orta dəhlizin əsas iştirakçılarıdır. Hər iki ölkənin regionun nəqliyyat-logistika infrastrukturlarının inkişafına töhfəsini necə qiymətləndirirsiniz? Bu marşrutun iqtisadi potensialının ECO çərçivəsində maksimum realizə olunması üçün hansı addımlar atılmalıdır?*

- Azərbaycan və Türkiyə Orta dəhlizi Şərq və Qərb arasında ticarət axınları üçün real alternativə çevirməkdə əsas rol oynayırlar. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt limanı və perspektivli Zəngəzur dəhlizi kimi strateji layihələr regionun logistika əlaqələrini xeyli gücləndirib. Bu təşəbbüslər yalnız iki ölkənin maraqlarına xidmət etməklə qalmayıb, həm də ECO-nun inteqrasiya olunmuş və dayanıqlı təchizat zəncirlərinin yaradılması üzrə daha geniş gündəliyinin həyata keçirilməsinə töhfə verir. Orta dəhlizin iqtisadi potensialını ECO çərçivəsində tam açmaq üçün bir sıra addımlar atılmalıdır. Bunlara gömrük prosedurlarının harmonizasiyası, multimodal nəqliyyat qovşaqlarına investisiyalar, vahid rəqəmsal tranzit sistemlərinin işlənib hazırlanması və regional logistika standartlarının formalaşdırılması daxildir. Türkiyə və Azərbaycan koordinasiyalı infrastruktur diplomatiyası və siyasi əlaqələndirmə vasitəsilə bu islahatların genişləndirilməsində dayaqlı ölkələrə çevrilərək, Orta dəhlizi ECO daxilində sistemlərarası ticarətin əsasına çevirə bilərlər.

*- Şuşada keçirilən ECO biznes-forumu və orada əldə olunmuş razılaşmalar Türkiyə ilə Azərbaycan arasında yeni investisiya layihələri üçün stimul ola bilərmi? Hansı sahələrdə ən böyük potensialı görürsünüz?*

- Şuşada keçirilən ECO forumu Türkiyə ilə Azərbaycan arasında investisiya əməkdaşlığının yeni mərhələsi üçün möhkəm təməl qoyub və ümumi bəyanatlardan çox konkret əməkdaşlıq mexanizmlərinə diqqət yetirilib. Gömrük sahəsində əməkdaşlıq və ticarətin inkişafı ilə bağlı memorandumların imzalanması, eləcə də ECOTA sazişinin icrasına dair dialoqun fəallaşması özəl sektorun iştirakı üçün əlverişli institusional mühit yaradır. Ən böyük potensial üç bir-birini tamamlayan istiqamətdə müşahidə olunur: Ağdam və Füzuli kimi azad olunmuş ərazilərdə sənaye zonalarının inkişafı; Mərkəzi Asiyanı Avropaya birləşdirən logistika dəhlizləri; həmçinin rəqəmsal iqtisadiyyat - xüsusilə fintech, elektron ticarət və ağıllı infrastruktur sahələrində. Türkiyənin texnoloji və istehsal potensialı Azərbaycanın bərpa planlarını və regional tranzit ambisiyalarını effektiv şəkildə tamamlayır. Hədəflənmiş təşviqlər və sərhədlərarası investisiya platformalarının mövcudluğu ilə bu sahələr ikitərəfli iqtisadi inteqrasiyanın strateji təməlini təşkil edə bilər.

*- ECO daxilində, o cümlədən Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafına hələ də hansı institusional və normativ maneələr təsir edir? Bu maneələrin vahid yanaşma çərçivəsində aradan qaldırılması mümkündürmü?*

- Güclü siyasi iradənin mövcudluğuna baxmayaraq, ECO daxilində iqtisadi inteqrasiyanı məhdudlaşdıran bir sıra institusional və normativ problemlər hələ də qalmaqdadır. Bunlara parçalanmış gömrük rejimləri, ECOTA sazişi üzrə tarif güzəştlərinin nizamsız tətbiqi, standartlar və sertifikatların məhdud qarşılıqlı tanınması, həmçinin effektiv mübahisələrin həlli mexanizminin olmaması daxildir.

Bundan əlavə, rəqəmsal infrastrukturların müxtəlif səviyyədə inkişafı və bürokratik ləngimə ticarətin asanlaşdırılması səylərini ləngidir. Bununla belə, bu maneələrin tamamilə aşılması mümkündür. Mərhələli harmonizasiya və institusional potensialın artırılmasına əsaslanan vahid yanaşmanın tətbiqi, xüsusilə Türkiyə və Azərbaycan kimi fəal dövlətlərin təşəbbüsü ilə realdır. ECO Katibliyi yanında ümumtəşkilati rəqəmsal gömrük platformasının yaradılması, ümumi mənşə qaydalarının qəbul edilməsi və daimi texniki koordinasiya orqanının təsis edilməsi sərhədlərarası iqtisadi fəaliyyəti xeyli sadələşdirə bilər. Belə addımlar institusional etimadı gücləndirər və regionda daha dərin və dayanıqlı iqtisadi-ticarət əlaqələrin əsasını qoyar.

*- Siz Azərbaycanı ECO-nun cənub zolağında tranzit ölkə kimi necə qiymətləndirirsiniz? Rəsmi Bakının iqtisadi siyasəti təşkilatın digər ölkələri üçün model ola bilərmi?*

- Azərbaycan ECO-nun cənub zolağında əsas tranzit mərkəzinə çevrilib və Mərkəzi Asiya, Cənubi Qafqaz və Avropanı sürətlə modernizə olunan nəqliyyat-logistika infrastrukturu vasitəsilə birləşdirir. Ələt limanının inkişafı, dəmir yolu əlaqələrinin möhkəmləndirilməsi üzrə investisiyalar və Orta dəhlizin strateji inteqrasiyası Bakını transregional ticarətin vacib dayaqlarından birinə çevirib. Azərbaycanın coğrafi üstünlüyü artıq infrastruktura diqqət yetirən, tənzimləyici prosedurların sadələşdirilməsinə və beynəlxalq koordinasiyaya əsaslanan siyasətlə tamamlanır. Bakı iqtisadi strategiyası, xüsusilə müharibədən sonrakı bərpa vizyonu və ticarətin asanlaşdırılmasına olan sadiqliyi, milli inkişafla regional inteqrasiyanı uzlaşdırmağa çalışan digər ECO ölkələri üçün qiymətli nümunədir. Dövlət-özəl tərəfdaşlığı, xüsusi iqtisadi zonaların yaradılması və gömrük sahəsinin rəqəmsallaşdırılması üzrə fokus, orta səviyyəli iqtisadiyyata malik ölkələrin coğrafi mövqeyindən məqsədyönlü islahatlarla necə səmərəli istifadə edə biləcəyini göstərir. Bu model genişləndirilib kontekstuallaşdırıldıqda Azərbaycan təcrübəsi ECO məkanında ən yaxşı təcrübələrdən biri ola bilər.

*- Pandemiyadan sonra yaranmış geoiqtisadi transformasiyalar və davam edən geosiyasi böhranlar fonunda Türkiyə və Azərbaycan iqtisadi alyansı ECO çərçivəsində daha geniş davamlı inkişaf strategiyasının əsasına çevrilə bilərmi?*

- Bəli, Türkiyə və Azərbaycan arasındakı iqtisadi alyans ECO daxilində daha geniş davamlı inkişaf strategiyasının dayağı olmaq üçün unikal potensiala malikdir. Pandemiya sonrası dövrdə və davam edən geosiyasi qeyri-müəyyənlik şəraitində hər iki ölkə diversifikasiya olunmuş infrastruktur investisiyaları, enerji əməkdaşlığı və rəqəmsal innovasiyalar vasitəsilə dayanıqlılıq nümayiş etdirib. Onların ikitərəfli əməkdaşlığı yalnız ortaq maraqlara əsaslanmır, həm də institusional uyğunluq və uzunmüddətli strateji planlaşdırmaya söykənir. Bu tərəfdaşlıq ECO üçün katalizator rolunu oynaya bilər. Nəqliyyat dəhlizləri, bərpaolunan enerji və gömrük prosedurlarının modernləşdirilməsi kimi sahələrdə birgə liderlik sayəsində Türkiyə və Azərbaycan ECO-nu sadəcə məsləhətləşmə platformasından nəticəyönümlü iqtisadi bloka çevirmək potensialına malikdir. Onların alyansı göstərir ki, etimad və konkret fəaliyyətə əsaslanan regionalizm qlobal qeyri-müəyyənlik şəraitində belə real inkişaf nəticələri verə bilər.

## *Aygün ATTAR:* "ECO-nun Xankəndidəki Zirvə görüşü Prezident İlham Əliyevin daha bir uğurudur"

**"Azərbaycan beynəlxalq dialoqun yüksək səviyyədə təşkilini dünyaya bir daha nümayiş etdirdi. İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşünün işğaldan azad edilmiş Xankəndidə keçirilməsi Bakının qüdrətinin, Prezident İlham Əliyev kursunun uğurunun növbəti göstəricisinə çevrildi".**



AZƏRTAC xəbər verir ki, bu fikri Türkiyə televiziyasının efirində Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) rəhbəri, Türkiyə Prezident Administrasiyası Təhlükəsizlik və Xarici Siyasət Şurasının sabiq üzvü, professor Aygün Attar deyib.

O, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası istiqamətində həyata keçirilən irimiqyaslı layihələrə diqqət çəkib. "Ermənistanın təcavüzü və işğalı nəticəsində dəyən ziyanı 150 milyard ABŞ dolları dəyərində qiymətləndirilən ölkə qısa müddətdə həqiqətən nəhəng işlər görə bildi, o cümlədən işğaldan azad edilmiş bölgələrdə bir neçə beynəlxalq hava limanı istifadəyə verildi. Vətənin hüdudlarından kənarda yaşayan bütün azərbaycanlılar adından Prezident İlham Əliyevə Azərbaycanın iqtisadi, hərbi və diplomatik müstəvidə qazandığı iqtisadi qələbəyə görə təşəkkür etmək istəyirəm. Bu triumf ECO-nun Xankəndidə keçirilən Zirvə görüşündə də nümayiş etdirildi", - deyə TADİV rəhbəri bildirib.

Onun sözlərinə görə, müasir Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyinə mühüm töhfə verən nüfuzlu və güclü dövlətdir. Professor bununla bağlı Prezident İlham Əliyevin dünyanın 12 ölkəsinə qaz nəqli ilə bağlı sözlərini xatırladıb.

"Azərbaycan rəhbərliyi düşünülmüş çoxvektorlu siyasət aparır ki, bu da islam dünyası ölkələrinə münasibətdə özünü büruzə verir", - deyə TADİV rəhbəri qeyd edib.

O, Azərbaycanın Türkiyə və Pakistanla yaxınlığını və sıx əməkdaşlığını da diqqətə çatdırıb. "Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan üçün Azərbaycanın hər bir guşəsi ikinci vətəninin bir hissəsidir və Pakistanın Baş naziri son 45 gündə ikinci dəfə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər edib", - deyə professor vurğulayıb.

Professor eyni zamanda tamaşaçıların diqqətini ECO-nun Xankəndidə keçirilən Zirvə görüşünün Şimali Kipr Türk Cümhuriyyəti üçün əhəmiyyətinə yönəldib. O əlavə edib: "Dövlət başçılarının iştirakı ilə Qarabağda atların "Zəfər" şousunda bu mötəbər tədbirin digər iştirakçılarının bayraqları ilə birlikdə milyonlarla insanın qarşısında Şimali Kiprin bayrağı da dalğalandı və Lefkoşanın müzakirələrdə müşahidəçi statusuna malik müstəqil ölkə kimi iştirakı elan olundu. Bütün bunlar Şimali Kiprin dövlət başçısının daha bir diplomatik uğuru oldu".

# Türkiyə və ŞKTC mediası ECO Zirvə görüşünə geniş yer ayırıb




**Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) aparıcı telekanalları, informasiya agentlikləri, çap mediası və xəbər saytları İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Xankəndidə keçirilən 17-ci Zirvə görüşünü geniş işıqlandırıb.**

AZƏRTAC xəbər verir ki, "ECO məkanında əməkdaşlıq üçün kritik əhəmiyyətə malik" kimi xarakterizə olunan Zirvə görüşünü işıqlandıran media strukturları prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın çıxışlarına xüsusi diqqət yetirib.

Bakının İqtisadi Əməkdaşlıq Təşkilatındakı tərəfdaşları ilə əlaqələri daha da dərinləşdirməyə hazır olması ilə bağlı Azərbaycan dövlət başçısının mövqeyi Türkiyə və ŞKTC-nin çoxmilyonlu auditoriyasına çatdırılıb. Dünyanın 12 ölkəsini təbii qazla təmin edən Azərbaycanın uğurlu enerji siyasəti xüsusi vurğulanıb.

Xankəndidə keçirilən Zirvə görüşü çərçivəsində ikitərəfli görüşlərə dair ayrıca xəbər materialları hazırlanıb.

# Qazaxıstan mətbuatında Xankəndidə keçirilən ECO-nun 17-ci Zirvə görüşü geniş işıqlandırılıb




**Qazaxıstan mediası Baş nazir Oljas Bektenovun İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak etmək üçün Xankəndi şəhərinə səfərini geniş işıqlandırıb.**

AZƏRTAC-ın məlumatına görə, Qazaxıstanın Inform.kz, Kazlenta.kz, Kapital.kz, Ortcom.kz və Dknews.kz kimi informasiya resursları qeyd edir ki, sammit çərçivəsində ECO-ya üzv dövlətlər arasında iqtisadi əməkdaşlıq məsələləri müzakirə olunub. Xüsusi diqqət nəqliyyat və logistika, energetika, iqlim təhlükəsizliyi, rəqəmsal transformasiya və digər sahələrdə qarşılıqlı fəaliyyətə yönəlib.

Yayımlarda Qazaxıstan hökumət başçısının Trans-Əfqanıstan dəmir yolunun regionun iqtisadi inkişafı üçün əhəmiyyətini vurğuladığı bildirilir. Oljas Bektenovun "Turqundi-Herat" dəmir yolu xəttinin tikintisinə Qazaxıstanın sərmayə yatırmağa hazır olduğunu bildirdiyi fikirlərə yer verilir.

"Qazaxıstan Respublikası hökuməti bu layihənin həyata keçirilməsi ilə bağlı niyyətlərini təsdiq edir. Yaxın vaxtlarda tərəflər arasında müvafiq memorandum imzalanacaq", - deyə Baş nazirin sözləri mediada sitat gətirilir.

# *Ersin TATAR:* "Şimali Kiprə xüsusi diqqətinə görə İlham Əliyevə minnətdaram"

**Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Prezidenti Ersin Tatar Şimali Kiprə göstərdiyi xüsusi diqqətə görə Azərbaycan Prezidenti İlham Əliyevə və bütün Azərbaycan xalqına minnətdarlığını bildirib.**



AZƏRTAC xəbər verir ki, Şimali Kiprin lideri İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Xankəndidə keçirilən 17-ci Zirvə görüşündə iştirak etmək üçün Azərbaycana səfərinin yekunlarına dair mətbuat konfransı keçirib.

O deyib: "Mən Lefkoşanın türk dövlətləri ilə əlaqələrinin inkişafına, o cümlədən ədalətsiz sanksiyaların və embarqoların aradan qaldırılmasına verdiyi töhfəyə görə, Azərbaycan və Türkiyəyə təşəkkür edirəm. Azərbaycanla əlaqələrin hərtərəfli inkişafı faktı bizi xüsusilə sevindirir".

Onun sözlərinə görə, ECO-nun Xankəndində keçirilən Zirvə görüşü dünya ictimaiyyətində ŞKTC ilə bağlı məlumatlılığı artırıb. "ECO çərçivəsində münasibətlər tarixində ilk dəfə olaraq biz belə yüksək səviyyədə təmsil olunduq, özümüzü böyük bir ailənin bir parçası kimi hiss etdik. Zirvə görüşünün keçirildiyi zalda digər dövlətlərin bayraqları ilə yanaşı ŞKTC bayrağının da asılması Lefkoşanın dialoq tərəfdaşı kimi tanınmasından xəbər verir", - deyə siyasətçi qeyd edib.

ŞKTC-nin Baş naziri Ünal Üstel də sosial şəbəkələrdə müvafiq paylaşım edərək Azərbaycan və Türkiyəyə minnətdarlığını bildirib.

# *Məhəmməd Şahbaz ŞƏRİF:* "Pakistanla Azərbaycan arasında ticarət və investisiyaları strateji sahələrdə inkişaf etdirmək barədə razılığa gəldik"



**"Mən əziz qardaşım Prezident İlham Əliyevin sədrliyi ilə İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) mötəbər toplantısında iştirak etmək üçün nümayəndə heyətimlə birlikdə burada idim. Biz bu gün iki üzv ölkə arasında qardaşlıq bağlarını daha da inkişaf etdirmək, ticarəti, sərmayələri, mədəniyyəti, təhsili, səhiyyəni və su ehtiyatlarını təşviq etmək barədə razılığa gəldik".**

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif söyləyib. Baş nazir bildirib: "Prezident İlham Əliyevlə görüş çox məhsuldar keçdi. Biz Pakistanla Azərbaycan arasında ticarət və investisiyalarımızı strateji sahələrdə də inkişaf etdirmək barədə razılığa gəldik".

# *Türkiyəli diplomat:* "ECO-nun Xankəndidəki Zirvə görüşü Prezident İlham Əliyevin siyasi uğurunun göstəricisidir"

**"Onilliklər boyu gərginlik və erməni işğalı ilə xarakterizə olunan Qarabağ bölgəsi bu gün tarixi Zirvə görüşlərinin keçirildiyi məkandır. Bunlar Prezident İlham Əliyevin nüfuzunun və düşünülmüş siyasətinin uğurunun göstəricisidir".**



Bu fikri AZƏRTAC-a müsahibəsində Türkiyənin Azərbaycandakı keçmiş səfiri, Sosial İnkişafa Dəstək İctimai Birliyinin ("İMZA") Türkiyədəki nümayəndəsi Hulusi Kılıç söyləyib.

O, bu günlərdə dünya ictimaiyyətinin diqqətinin İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşünün keçirildiyi Xankəndinə yönəldiyini vurğulayıb. "Xankəndidə keçirilən Zirvə görüşü bir daha dünyaya göstərdi ki, Qarabağ Azərbaycandır!", - deyə "İMZA" Birliyinin nümayəndəsi ümumilikdə yarım milyarddan çox insanın yaşadığı ECO-ya üzv dövlətlərinin yüksək potensialını xatırladıb.

Kılıçın sözlərinə görə, ECO Zirvə görüşü platforması kimi tədbirlər yeni əməkdaşlıq körpülərinin qurulmasına, liderlər arasında dialoqun möhkəmləndirilməsinə və mühüm qərarların qəbul edilməsinə imkan verir.

H.Kılıç Xankəndidə ikigünlük Zirvə görüşünün uğurla başa çatması münasibətilə Azərbaycan rəhbərliyini və xalqını təbrik edib.

"İMZA" Birliyinin nümayəndəsi Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) beynəlxalq mövqelərinin gücləndirilməsi kontekstində ECO Zirvə görüşünün əhəmiyyətini də diqqətə çatdırıb. "Azərbaycan Prezidenti Şimali Kiprə diqqətini bir daha nümayiş etdirdi. ŞKTC lideri Ersin Tatarın Qarabağa dəvət edilməsi Lefkoşa və onun dünyada tanınması üçün çox mühüm jest idi", - deyə H.Kılıç bildirib.

# Türkiyənin hakim partiyasının sədr müavini Zəngəzur dəhlizinin əhəmiyyəti barədə paylaşım edib

**Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının türk dövlətləri ilə əlaqələr üzrə sədr müavini Kürşat Zorlu Zəngəzur dəhlizinin açılması istiqamətində birgə səylərin əhəmiyyətindən bəhs edib.**



AZƏRTAC xəbər verir ki, K.Zorlu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirakı haqqında sosial şəbəkələrdə paylaşım edib. O, Türkiyə və Azərbaycan liderlərinin dialoqunu iki ölkənin qardaşlığının sarsılmazlığı rəmzi adlandırıb. Partiya sədrinin müavini qeyd edib: "Prezident Ərdoğanın qeyd etdiyi kimi, Türkiyə ilə Azərbaycanı sadəcə dostluq deyil, möhkəm qardaşlıq əlaqələri birləşdirir. ""Bir millət, iki dövlət" kəlamı xüsusi məna ilə zənginləşib. Ölkələrimiz tarixin ən kritik və mühüm məqamlarında dəfələrlə bir-birinə dəstək nümayiş etdirib".

Siyasətçi bildirib ki, Zəngəzur dəhlizinin açılması təkcə Azərbaycan deyil, bütün region üçün yeni imkanlar yaradacaq. Onun paylaşımında qeyd olunur: "Bu marşrut təkcə geosiyasi deyil, həm də geoiqtisadi əhəmiyyətə malikdir. Zəngəzur dəhlizi Türk dünyası ölkələrini daha çox yaxınlaşdıracaq, həmçinin Orta Dəhliz üçün strateji stimul olacaq. Türkiyə Prezident Ərdoğanın rəhbərliyi ilə bu məqsədə çatmaq istiqamətində qətiyyətli səylərini davam etdirəcək. Zəngəzur dəhlizinin açılması üzrə atılan birgə addımlar həm Türkiyə, gəm də bütün Türk dünyası üçün tarixi prosesdir".

# *Britaniyalı ekspert:* "Azərbaycan beynəlxalq arenada öz nüfuzunu bir daha yüksəldib"

**"Azərbaycan beynəlxalq arenada öz nüfuzunu bir daha yüksəldib".**

Bu sözləri AZƏRTAC-a beynəlxalq əlaqələr üzrə ekspert Tobi Qreqori Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü çərçivəsində deyib.

Onun sözlərinə görə, bu mühüm tədbir Azərbaycanın Asiya və Avropa arasında diplomatik və iqtisadi körpü kimi meydana çıxdığını göstərir.



Ekspert bildirib: "Azərbaycan artıq bir neçə nüfuzlu beynəlxalq tədbirə, o cümlədən Zirvə görüşlərinə, forumlara və konfranslara evsahibliyi edib. Ölkəniz pozitiv dialoq aparmaq naminə insanları beynəlxalq və yerli səviyyədə bir araya gətirir. Burada keçirilən zirvə görüşü həmin təqdirəlayiq səylərin bariz nümunəsidir".

# Qafqaz Müsəlmanları İdarəsində qanvermə aksiyası keçirilib









**İyulun 5-də Qafqaz Müsəlmanları İdarəsində qurumun təşkilatçılığı, Respublika Qan Bankının dəstəyi ilə Aşura günü ilə əlaqədar qanvermə aksiyası keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə başda olmaqla, idarə əməkdaşları, Milli Məclisin deputatları və ölkəmizdəki dini konfessiyaların nümayəndələri iştirak ediblər.

# Elxan NAĞIYEV: "Sevindirici haldır ki, Şuşa və Ağdam məscidlərində də qanvermə aksiyası keçirilir"

**"Hər il olduğu kimi, bu il də humanist ənənə davam etdirilərək qanvermə aksiyası təşkil olunub. Sevindirici haldır ki, bu gün Qarabağın incisi olan Şuşa şəhərindəki Yuxarı Gövhər ağa məscidində və Ağdamın Cümə məscidində də qanvermə aksiyası keçirilir".**




Bu sözləri AZƏRTAC-a açıqlamasında Respublika Qan Bankının icraçı direktoru Elxan Nağıyev Qafqaz Müsəlmanları İdarəsinin təşkilatçılığı ilə keçirilən qanvermə aksiyasında deyib.

O bildirib ki, ölkə üzrə qanvermə aksiyası səhər saatlarından başlayaraq 16:00-dək davam edəcək.

"Saat 10:00-a olan məlumata görə, artıq 400 nəfərə yaxın könüllü donor aksiyada iştirak edib. Gün ərzində bütün məntəqələrdə iştirakçı sayının artacağı gözlənilir", - deyə icraçı direktor əlavə edib.

# Səhiyyə Nazirliyi: 362 nəfər könüllü qan verib

**Azərbaycanda Aşura günü münasibətilə könüllü qanvermə aksiyası davam edir. Səhər saatlarından etibarən paytaxt və bölgələrdə yerləşən qanvermə məntəqələrində vətəndaşlar aksiyada fəal iştirak edirlər.**



Səhiyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, saat 10:00-a olan məlumata əsasən, ümumilikdə 362 nəfər könüllü qan verib. Həmin şəxslərdən ümumilikdə 162,9 litr qan tədarük olunub.

Builki aksiyalar ölkənin 30 şəhər və rayonu üzrə ümumilikdə 38 məntəqədə təşkil edilib. Qanvermə məntəqələrinə 23 məscid və ziyarətgahla yanaşı, 15 tibb müəssisəsi də daxildir.

Qanvermə aksiyaları səhər saat 08:00-dan etibarən başlayıb və gün ərzində davam edir.

Qeyd edək ki, aksiya Səhiyyə Nazirliyi və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə qana ehtiyacı olan xəstələrə yardım məqsədilə həyata keçirilir.

# Mərakeşli jurnalistlər Milli Kitabxanada olublar

**İyulun 5-də Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Azərbaycana səfər edən mərakeşli jurnalistlər Azərbaycan Milli Kitabxanasının qonağı olublar.**




Milli Kitabxanadan AZƏRTAC-a bildirilib ki, direktor professor Kərim Tahirov Azərbaycan Milli Kitabxanasının dünyanın 57 Milli Kitabxanası ilə qarşılıqlı əməkdaşlıq haqqında memorandum imzaladığını, Mərakeş Milli Kitabxanası ilə isə mövcud müqavilənin oktyabr ayında yenilənəcəyini diqqətə çatdırıb. Beş milyona yaxın kitab fondu olan Azərbaycan Milli Kitabxanasının 2023-cü ildə 100 illik yubileyinin qeyd edildiyini vurğulayan direktor Milli Kitabxananın dünyanın 95-dən artıq milli və universitet kitabxanaları ilə beynəlxalq kitab mübadiləsi etdiyini söyləyib. O, Azərbaycan Milli Kitabxanasının bir çox beynəlxalq qurumlara da üzv olduğunu deyib.

Direktor son iki ildə Mədəniyyət Nazirliyi ilə birlikdə Azərbaycan Milli Kitabxanasının dünyanın 6 Milli Kitabxanasında Azərbaycan ədəbiyyatı guşəsinin açıldığını diqqətə çatdırıb. Həmçinin Azərbaycanın tarixinin, mədəniyyətinin, ədəbiyyatının, adət-ənənələrinin təbliği istiqamətində Milli Kitabxananın dünyaya açılan pəncərələrdən biri olduğunu qeyd edib.

Sonra Kərim Tahirov Mərakeşin Elektron Media Nyus jurnalının jurnalisti Driss Lyakoubi, "Morocco World News" jurnalının həmtəsisçisi və direktoru Adnane Bennis, "Maroc Habdo" fransızdilli həftəlik siyasi jurnalın jurnalisti Aissa Amourag və digər jurnalistlər tərəfindən verilən sualları cavablandırıb.

Adnane Bennis tərəfindən "The Self-Determination Delusion: How Activist Scholars and Journalists Have Hijacked the Western sahara Case" kitabı Azərbaycan Milli Kitabxanasının direktoruna hədiyyə edilib.

Sonra Azərbaycan Milli Kitabxanası ilə tanışlıq olub.

Sonda Kərim Tahirov qonaqlara Milli Kitabxananın 100 illik yubileyi münasibətilə çap olunan "Azərbaycan Milli Kitabxanası" fotoalbomunu hədiyyə edib.

# Britaniyanın ticarət elçisi: "Azərbaycanla ticarət və investisiya sahələrində geniş əməkdaşlıq potensialı var"

**Böyük Britaniyanın Azərbaycan və Mərkəzi Asiya üzrə ticarət elçisi, Lordlar Palatasının üzvü Lord Con Alderdays AZƏRTAC-a eksklüziv müsahibəsində iki ölkə arasında ticarət və investisiya sahələrində geniş əməkdaşlıq potensialının olduğunu vurğulayıb. O, xüsusilə nəqliyyat, səhiyyə və təhsil sahələrində əməkdaşlığın genişlənə biləcəyini qeyd edib.**



Con Alderdays bildirib ki, Britaniya və Azərbaycan enerji və faydalı qazıntıların hasilatı kimi sahələrdə artıq əməkdaşlığa başlayıb. Onun sözlərinə görə, bu sahələrdə infrastrukturun inkişafı da olduqca vacibdir: "Təkcə hasilat deyil, eyni zamanda, bu resursların daşınması üçün dəmir yolu və digər nəqliyyat infrastrukturlarına ehtiyac var".

Elçi əlavə edib ki, təbii ehtiyatlar sahəsində əməkdaşlıq paralel olaraq ali təhsil və ekspertizanın inkişafını da stimullaşdırır: "Əvvəllər az olan universitetlərarası əməkdaşlıqlar bu gün daha da intensivləşir. Bundan çox məmnunam".

O, səhiyyənin də tərəfdaşlıq üçün önəmli istiqamətlərdən biri olduğunu deyib. Tibb sahəsində təlimlər və xəstəxana infrastrukturunun inkişafı üzrə əməkdaşlıq imkanlarının mövcud olduğunu bildirən Con Alderdays, Britaniya mütəxəssislərinin təcrübələrinin paylaşılmasının və azərbaycanlı tələbələrin Böyük Britaniyada təhsil almasının iki ölkə arasında insan resurslarının inkişafına töhfə verəcəyini qeyd edib.

Ticarət elçisinin sözlərinə görə, belə tərəfdaşlıqların qurulmasında beynəlxalq platformaların da rolu mühümdür. O, Xəzər Siyasət Mərkəzi kimi qurumların müxtəlif ölkələrdən olan iştirakçıları bir araya gətirməklə uzunmüddətli biznes əlaqələrinin qurulmasına imkan yaratdığını vurğulayıb: "Belə tədbirlərin təkcə Londonda deyil, həm də Şotlandiya, Uels və Şimali İrlandiyada keçirilməsi vacibdir".

Con Alderdays həmçinin Azərbaycana yeni investisiyaların yatırılmasının planlaşdırıldığını bildirib: "Hazırda biznes fəaliyyəti göstərən şirkətlərə dəstək verməklə yanaşı, digər Britaniya şirkətlərinin də Azərbaycandakı imkanları tanıması üçün çalışıram. Çoxları hələ bu imkanlardan xəbərsizdir və bu məsələdə rolu öz üzərimə götürürəm".

O, yaxın aylarda Azərbaycanı ziyarət etməyi planlaşdırdığını bildirib: "Ölkənizdə olmuşam, lakin bu vəzifədə ilk səfərim olacaq. Həmçinin payız aylarında Qazaxıstana da səfər planlaşdırılır".

# "Tərlan - 2025" təlimində iştirak edəcək Qazaxıstan hərbçiləri ölkəmizə gəliblər

**Azərbaycan və Qazaxıstan Hərbi Hava Qüvvələri (HHQ) arasında keçiriləcək "Tərlan - 2025" birgə taktiki-uçuş təlimində iştirak etmək üçün Qazaxıstan Respublikasından cəlb olunan heyət ölkəmizə gəlib.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, HHQ-nin "N" hərbi hissəsində hərbi qulluqçuların qarşılanma mərasimi keçirilib.

Qeyd edək ki, iyulun 8-dən 10-dək keçirilməsi planlaşdırılan ikitərəfli təlimin məqsədi hərbi qulluqçuların Pilotsuz Uçuş Aparatları (PUA) sahəsində peşəkarlığının artırılması və qarşılıqlı təcrübə mübadiləsidir.

# Azərbaycan hərbçiləri "Anadolu Qartalı - 2025" beynəlxalq təlimində iştirak ediblər

**Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) bir qrup şəxsi heyəti Türkiyədə keçirilən "Anadolu Qartalı - 2025" beynəlxalq taktiki-uçuş təlimində iştirak edib.**

Müdafiə Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a verilən məlumata görə, təlim müddətində iştirakçılara təhlükəsizlik qaydaları, hərəkət marşrutları, icra olunacaq tapşırıqlar, meteoroloji vəziyyət barədə brifinq təqdim olunub.

Ssenarinin praktiki icra mərhələsində texniki heyət aviasiya vasitələrini hazır vəziyyətə gətirdikdən və son yoxlamaları apardıqdan sonra hərbi pilotlarımız aviabazadan qrup şəklində uçuşlar həyata keçirərək, hava kəşfiyyatının aparılması, hava üstünlüyünün əldə olunması, şərti hədəflərin məhv edilməsi və digər tapşırıqları yerinə yetiriblər.

Plana uyğun olaraq, hərbi pilotlarımız hava-hava, hava-yer təyinatlı tapşırıqların icrası ilə yanaşı, Türkiyə HHQ-sinin aviasiya heyətləri ilə birlikdə uçuşlar da həyata keçiriblər.

İyulun 4-də Konya şəhərində keçirilən bağlanış mərasimində Azərbaycan HHQ-sinin şəxsi heyətinin "Anadolu Qartalı - 2025" beynəlxalq taktiki-uçuş təlimi zamanı sərgilədiyi yüksək peşəkarlıq xüsusi vurğulanıb.

Qeyd edək ki, iştirakçı ölkələrin HHQ-ləri arasında qarşılıqlı əməkdaşlığı, birgə fəaliyyət qabiliyyətini və döyüş hazırlığını artırmaq məqsədilə keçirilən təlimdə Azərbaycan, Amerika Birləşmiş Ştatları, İordaniya, Macarıstan, Qətər, Səudiyyə Ərəbistanı, Türkiyə və NATO-nun HHQ nümayəndələri iştirak ediblər.

# Turizm kəndlərin əlavə imkanlarını üzə çıxarır

**Son illər dünya miqyasında alternativ turizm növlərinə marağın artması kənd yerlərinin iqtisadi və sosial potensialını ön plana çıxarmışdır. Bu baxımdan, kənd turizmi yalnız bir istirahət növü deyil, həm də regional inkişafın, dayanıqlı iqtisadiyyatın və yerli icmaların sosial güclənməsinin əsas sütunlarından biri kimi qəbul edilir.**



Azərbaycanda da kənd turizmi son illər sürətlə inkişaf edir. Bir çox rayon və kəndlərdə artıq bu sahədə real təşəbbüslər həyata keçirilir. Hər cür şəraitlə təmin olunmuş kənd evləri qonaqlara təqdim olunur, yerli məhsullar turizm dəyəri qazanır, gözəl təbiətə malik meşəlik ərazilərdə ekoloji istirahət mərkəzləri qurulur və s.

Kənd turizminin mahiyyəti kəndin təbii, mədəni və sosial resurslarının turizm məqsədilə istifadəsidir. Lakin bu, sırf kommersiya fəaliyyətindən fərqli olaraq, daha çox yerli dəyərlərin qorunması, mədəni irsin qorunub saxlanılması, sadə həyat tərzinin nümayişi və insanla təbiət arasında harmoniyanın yaradılması üzərində qurulur. Azərbaycanda bu model xüsusilə Qəbələ, Şəki, Qax, Oğuz, İsmayıllı, Lerik, Lənkəran və Quba kimi rayonlarda özünü göstərməyə başlamışdır. Sözügedən bölgələrdə kənd evləri ailəvi şəkildə idarə olunur, qonaqlar yerli mətbəxlə tanış olur, eko-yürüşlər, yaylağa səfərlər, arıçılıq və toxuculuq kimi yerli peşələrlə bağlı təcrübələrdə iştirak edirlər. Beləliklə, kənd turizmi kənd həyatını turistik təcrübəyə çevirir.

Bu sahənin iqtisadi dəyəri isə təkcə fərdi gəlirlər səviyyəsində deyil, daha geniş iqtisadi müstəvidə özünü göstərir. Kənd turizmi kənd təsərrüfatı ilə birbaşa əlaqəlidir. Yerli əhali həm turistə evində yer ayırır, həm də məhsullarını təklif edir. Bununla kənd təsərrüfatı məhsulları üçün yeni bazar formalaşır və bu bazar həm sabit, həm də qiymət baxımından daha sərfəlidir. Turistin ödədiyi vəsait yalnız qida və yaşayışa görə deyil, eyni zamanda yerli məhsulun ekoloji təmizliyi, təbii dadı və hazırlanma üsuluna görə formalaşır. Bu, fermerlərə stimuldur: artıq məhsul yalnız bazar üçün yox, turistin süfrəsi üçün hazırlanır. Bu motivasiya kənd təsərrüfatında məhsuldarlığı artırır və məhsul keyfiyyətinə diqqəti yüksəldir.

Digər tərəfdən, kənd turizmi sosial strukturda mühüm dəyişikliklərə səbəb olur. Əvvəllər yalnız ev və ailə çərçivəsində fəaliyyət göstərən qadınlar indi bu sistemin mərkəzinə çevrilir. Qonaqları qarşılayan, süfrə açan, yerli yeməkləri təqdim edən, evin təmizliyinə cavabdeh olan qadınlar turizmin görünməyən dayaq sütunlarıdır. Bu fəaliyyətlər onlara həm iqtisadi müstəqillik qazandırır, həm də cəmiyyət içində sosial statuslarını artırır. Kənd turizmi qadınların ev ətrafı işini gəlirli və dəyərli fəaliyyətə çevirir. Bu, eyni zamanda gender bərabərliyinə xidmət edən mühüm sosial mexanizmdir.

Gənclər üçün isə kənd turizmi alternativ bir həyat tərzidir. Şəhərə köçməkdənsə, kənddə qalaraq turizm sahəsində fəaliyyət göstərmək onlar üçün həm maraqlı, həm də gəlirli bir seçimə çevrilir. Gənclər müasir texnologiyaları bu sahəyə tətbiq etməyə başlayır - sosial media vasitəsilə kəndlərinin tanıtımını aparır, onlayn bron sistemləri yaradır, turistlərə bələdçilik edir, ekoturlar təşkil edir, kənddə mini startaplar qururlar. Bu proses gəncləri kənd həyatına bağlayır və onların doğma məkanda özlərini reallaşdırmaq imkanlarını artırır.

Kənd turizmi yalnız fərdi rifahı deyil, ümumi regional inkişafı da stimullaşdırır. Turizmin inkişaf etdiyi kəndlərdə infrastruktur təkmilləşir, yollar çəkilir, su və kanalizasiya sistemləri bərpa olunur, internetləşmə sürətlənir. Bu da həm turistlərin rahatlığı, həm də yerli əhalinin yaşayış keyfiyyətinin yüksəlməsi baxımından əhəmiyyətlidir. Eyni zamanda kəndlərdə yeni sahibkarlıq növləri formalaşır: kənd restoranları, əl işləri, yerli suvenir satış nöqtələri, kəndiçi nəqliyyat xidməti, əyləncə və təlim proqramları kimi fəaliyyətlər ortaya çıxır. Beləliklə, kənd turizmi bir sahəni deyil, bir çox sahəni canlandırır - bu isə kəndlərin iqtisadi dövriyyəyə aktiv qoşulmasına səbəb olur.

Nəticə etibarilə kənd turizmi Azərbaycanda regional inkişafın yeni mərhələsinin xəbərçisidir. Bu sahənin səmərəli təşkili həm iqtisadi, həm sosial, həm də ekoloji baxımdan mühüm nəticələrə səbəb olur. Kəndin sadəliyi, təbiətin gözəlliyi, yerli icmanın səmimiliyi turizmə çevrildikcə, kəndlər təkcə yaşamaq üçün deyil, həm də yaşatmaq üçün məkanlara çevrilir. Bu isə Azərbaycanın davamlı inkişaf strategiyasında kənd turizminə verilən önəmin daha da artırılmasını zəruri edir.

Artıq dünyanın bir çox ölkəsində kənd turizmi "yaşıl iqtisadiyyat", "ağıllı kənd", "eko-kənd" və "dijital kənd turizmi" kimi çağdaş konsepsiyalarla birgə inkişaf edir. Azərbaycan da bu trendlərə inteqrasiya etməklə öz kəndlərini rəqabətqabiliyyətli turizm mərkəzlərinə çevirmək imkanına malikdir. Gələcəkdə kəndlərimiz yalnız təbiət gözəlliyi və səmimi qonaqpərvərliyi ilə deyil, rəqəmsal texnologiyalarla təchiz olunmuş, ekoloji təmiz enerji ilə işləyən, yerli brendlər yaradan, turizm bazarına inteqrasiya olunmuş "ağıllı kəndlər" modeli ilə tanına bilər.

Gözləntilər ondan ibarətdir ki, qarşıdakı illərdə kənd turizmi yalnız fərdi təşəbbüslərlə deyil, kooperativlər və regionlar üzrə turizm marşrutları şəklində inkişaf etdiriləcək. Məsələn, Şəki-Qax-Zaqatala xətti üzrə balıqçılıq və dağ yürüşləri turizmi, Lənkəran-Lerik-Astara bölgəsində subtropik və çay plantasiyalarına əsaslanan turizm, Quba-Qusar istiqamətində isə meyvəçilik, xalçaçılıq və dağ kəndlərinin təcrübəsinə əsaslanan marşrutlar formalaşdırıla bilər. Bu cür tematik turlar həm iqtisadi baxımdan daha cəlbedici, həm də mədəni müxtəliflik baxımından daha zəngin olacaq.

Digər tərəfdən, kənd turizminin gələcəyi ekoloji baxımdan davamlı modellərə əsaslanmalıdır. Bu isə o deməkdir ki, turizm fəaliyyəti kəndin təbiətinə ziyan vurmadan, əksinə, onun qorunmasını təmin etməlidir. Məsələn, gələcəkdə "eko-kəndlər" layihələri genişlənə, günəş və külək enerjisi ilə işləyən evlər, təkrar emal sistemləri və kənd təsərrüfatı üsulları geniş tətbiq oluna bilər. Bununla kənd turizmi yalnız gəlir gətirmir, həm də ekoloji dəyərlərin daşıyıcısına çevrilir.

Bu sahənin uzunmüddətli və sistemli inkişafı üçün dövlət tərəfindən turizm qanunvericiliyinin təkmilləşdirilməsi, vergi güzəştləri, sahibkarlara sərfəli kreditlər, peşə hazırlığı və mentorluq proqramları, yerli və beynəlxalq təcrübə mübadiləsi təşviq olunmalıdır. Eyni zamanda kənd turizmi üzrə ixtisaslaşmış təhsil və sertifikat proqramlarının yaradılması, bu sahəyə gənc mütəxəssislərin cəlb edilməsi daha məqsədəuyğun olar.

Nəticə etibarilə kənd turizmi yalnız bir sahənin deyil, bütövlükdə kəndlərin inkişafıdır. Bu inkişaf isə həm insanın torpağa, təbiətə və köklərinə qayıdışı, həm də iqtisadi sistemin daha ədalətli, inklüziv və dayanıqlı bir modelə keçidi deməkdir. Azərbaycanın kəndləri yüzillərlə qoruyub saxladıqları dəyərlərlə artıq təkcə tarixin mirası deyil, onların həm də gələcəyin qurucusuna çevrilmək potensialları var.

***Nərminə ƏSGƏROVA,***
***"Azərbaycan"***

# REGİONLAR

## Taxıl zəmilərinin 70,4 faizində biçin başa çatıb

### Sahələrdən 2,2 milyon tondan çox məhsul yığılıb



**Taxıl biçini yekun mərhələyə qədəm qoyub. Ölkə üzrə payızlıq taxıl əkini aparılmış 61 rayondan 20-də biçin yekunlaşıb, o cümlədən 16 rayonda buğda, 34 rayonda arpa biçini başa çatıb.**

Taxıl biçini ilə əlaqədar Kənd Təsərrüfatı Nazirliyində yaradılmış Mərkəzi Qərargahın iyulun 4-nə olan operativ məlumatına əsasən, ölkə üzrə taxıl sahələrinin 70,4 faizi biçilib. Sahələrdən 2 213 592 ton taxıl, o cümlədən 996 336 ton buğda, 1 217 227 ton arpa yığılıb.

Taxıl üzrə ümumi məhsuldarlıq 33,8 sent/ha təşkil edir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 sent/ha çoxdur. Orta məhsuldarlıq göstəricisi buğdada 36,7 sent/ha, arpada 31,8 sent/ha-ya çatıb.

Bu il respublikada taxıl üzrə orta məhsuldarlığın yüksək olmasında düzgün toxum seçimi, aqrotexniki qulluq qaydalarının vaxtında həyata keçirilməsi, xüsusilə alaq otlarına qarşı mübarizənin düzgün təşkili, məhsulun vaxtında və itkisiz yığılması, kombaynların sürətli dislokasiya planının hazırlanaraq həyata keçirilməsi əsas rol oynayıb.

Hazırda taxıl biçini əsasən respublikanın dağlıq və dağətəyi rayonlarında aparılır. Biçin prosesində 1 344 kombayn iştirak edir. Bunlardan 475-i "Aqroservis" Açıq Səhmdar Cəmiyyətinin, 869-u isə fiziki və hüquqi şəxslərin balansında olan kombaynlardır.

## Şəmkirdə festival festivala qarışdı

**Şəmkirdə kənd təsərrüfatının inkişafına, yerli məhsulların tanıdılmasına və aqrar sahibkarlığın təşviqinə xidmət məqsədilə Aqrar Biznes və Tərəvəz festivalları keçirilib.**

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi, Şəmkir Rayon İcra Hakimiyyəti və Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilən festivalın əsas məqsədi regionun kənd təsərrüfatı potensialını tanıtmaq, aqrar sahəyə investisiya cəlb etmək, yerli məhsulların daxili və xarici bazarlara çıxışını genişləndirmək, həmçinin fermerlərlə biznes qurumları arasında əməkdaşlığı gücləndirmək olub.

Festival çərçivəsində yerli fermerlər, aqrar sahədə fəaliyyət göstərən müəssisələr və kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan şirkətlər öz məhsullarını və xidmətlərini nümayiş etdiriblər. Tərəvəz Festivalında Şəmkir rayonunun zəngin tərəvəz çeşidləri - pomidor, xiyar, bibər, badımcan və digər yerli məhsullar təqdim olunub. Festivalda Qazax-Tovuz iqtisadi rayonu üzrə Şəmkir, Ağstafa, Gədəbəy, Qazax, Tovuz rayonlarından fermerlər və yerli rayon sakinləri iştirak ediblər.

Aqrar Biznes Festivalı çərçivəsində aqrar sahəyə dair müasir kənd təsərrüfatı texnikası və texnologiyalar, yüksək məhsuldar toxum nümunələri, orqanik və mineral gübrələr, eləcə də bitki mühafizə vasitələri sərgilənib. Festival iştirakçıları yerli fermerlərin yüksəkkeyfiyyətli, ekoloji cəhətdən təmiz məhsulları ilə tanış olmaq və birbaşa istehsalçılardan alış etmək imkanı əldə ediblər. Festivalda kənd təsərrüfatı məhsullarının sərgisi ilə yanaşı, istixana sahibləri və fermer təsərrüfatlarının dəstəyi ilə festival ziyarətçiləri üçün açıq havada ziyafət təşkil edilib.

Festivalın ənənəsinə uyğun olaraq həmçinin bank və bank olmayan kredit təşkilatlarının və dövlətin maliyyə qurumlarının iştirakı ilə kredit yarmarkası keçirilib.



Panel sessiyalarda Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Dövlət Məşğulluq Agentliyi, Biznesin İnkişafı Fondu, Aqrar Sığorta Fondu, banklar və kredit təşkilatlarının nümayəndələri iştirak ediblər. Panel sessiyası zamanı dövlətin kənd təsərrüfatı sektoruna yönəltdiyi maliyyə dəstək alətləri, subsidiyalar, güzəştli kreditlər, aqrar sığorta imkanları və fermerlər üçün yaradılan maliyyə mexanizmləri barədə məlumatlar verilib. Həmçinin festival çərçivəsində Aqrar Xidmətlər Agentliyinin Aqrar Təlim Mərkəzinin mütəxəssisləri tərəfindən fermerlər üçün " Kartof bitkisinin xəstəlik və zərərvericiləri, onlara qarşı mübarizə tədbirləri" mövzusunda təlim keçirilib.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Masallıda barama tədarükü yekunlaşıb

**Masallıda barama istehsalı üzrə əhəmiyyətli artım müşahidə olunur. 2025-ci ildə rayonda mövsümün başlanğıcında kümçülərə 90 qutu barama qurdu paylanılmışdır.**

Rayonda barama istehsalının artırılması üçün vaxtında lazımi tədbirlər həyata keçirilmiş və nəticədə istehsal 1560 kiloqrama çatdırılmışdır.



Kümçülərlə imzalanan müqaviləyə əsasən, istehsal olunmuş yaş barama "Azəripək" MMC tərəfindən təhvil alınmışdır və yaxın günlərdə hər kiloqram yaş baramaya görə subsidiya ödəniləcəkdir.

*"Azərbaycan"*

## Naftalanda Qərbi Azərbaycanla bağlı yazılmış kitab təqdim edildi

**Naftalan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının təqdimatı keçirilmişdir.**

Tədbir iştirakçıları əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək xatirəsinə ehtiramlarını bildirmişlər. Sonra qərbi azərbaycanlıların öz ata-baba yurdlarından qovulmasından bəhs edən sənədli filmin nümayişi olmuşdur.

Tədbiri şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzov açaraq diqqətə çatdırmışdır ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsindəki Zəfərdən sonra qarşıda yeni perspektivlər açılmışdır: "Qazandığımız qələbə işğaldan azad olunan ərazilərə məcburi köçkünlərimizin qayıdışını təmin etməklə yanaşı, həm də soydaşlarımızın əzəli Qərbi Azərbaycan torpaqlarına qayıdışının təməlini qoymuşdur".

Sonra Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elşad Musayev çıxış edərək vurğulamışdır ki, Qərbi Azərbaycandan zorla çıxarılmış soydaşlarımızın beynəlxalq səviyyədə və təhlükəsiz öz doğma torpaqlarına geriyə qayıtmaları, onların fundamental hüquqlarının bərpa və təmin edilməsi ölkəmizin qarşısında duran ən vacib məsələlərdəndir: "Məlum olduğu kimi, Qərbi Azərbaycandakı soydaşlarımıza qarşı beynəlxalq hüquqazidd əməllərin cəzasız qalmasından arxayınlaşan Ermənistan 30 ildən çox müddətə Azərbaycan torpaqlarını işğal altında saxlamışdır. Ermənilər tərəfindən azərbaycanlılara qarşı yalnız etnik təmizləmə siyasəti həyata keçirilməmiş, eyni zamanda soydaşlarımıza məxsus maddi-mədəni irsin Yer üzündən tamamilə silinməsinə yönəlmiş vandalizm aktları da törədilmişdir".

Tədbirin sonunda Qərbi Azərbaycan İcmasına yeni üzv olan soydaşımıza üzvlük vəsiqəsi təqdim edilmişdir.

*"Azərbaycan"*

## Göygölün qədim memarlıq abidəsi - Qabriyel məbədi

**Qabriyel məbədi Göygöl rayonunun Şəhriyar kəndi ərazisində yerləşən, Azərbaycanın xristian dini və memarlıq irsinin mühüm nümunələrindən biri sayılan tarixi alban məbədidir. Bu tikili həm memarlıq xüsusiyyətləri, həm də dini-mədəni dəyəri baxımından bölgənin nadir abidələrindən hesab olunur.**

Qabriyel məbədi Göygöl rayonu ərazisində xristianlıq dövrünü əks etdirən azsaylı abidələrdən biridir. Onun həm Qafqaz Albaniyasına, həm də sonrakı dövrlərdə bölgəyə gəlmiş alman mədəniyyətinə aid izlər daşıması bu abidəni unikal edir. Məbəd Azərbaycanın multikultural tarixi kontekstində araşdırılmağa dəyən tarixi-mədəni sərvətlərindən biridir. O, turizm və dini irs tədqiqatları baxımından da böyük potensiala malikdir. Məbədin ilkin təməl qatlarının Qafqaz Albaniyasının xristianlıq dövrünə təxminən IV-VII əsrlərə aid olduğu ehtimal edilir. Daha sonrakı dövrlərdə məbəd təmir olunmuş və yenidən inşa edilmiş, son mərhələdə isə bölgəyə köçürülmüş alman kolonistlər tərəfindən istifadəyə yararlı hala gətirilmişdir.



"Qabriyel" adı böyük ehtimalla Baş Mələk Cəbrayıl (Gabriel) ilə bağlıdır və bu, məbədin dini-simvolik əhəmiyyətini daha da artırır. Abidə, alban xristian memarlıq xüsusiyyətləri ilə alman protestant üslubunun birləşməsini özündə əks etdirir. Məbəd yerli daşlardan inşa olunmuş, dik dam örtüyü, uzununa plan quruluşu, tağvari (yarımdairəvi) pəncərələri və sadə kompozisiyalı, alban ornamentlərinə bənzər bəzək izləri ilə seçilir.

Abidədə zəng qülləsi və ya günbəz izlərinə rast gəlinmir, lakin vaxtilə belə bir konstruksiyanın olub-olmaması dəqiq məlum deyil. Hazırda məbəd fəaliyyət göstərmir və yalnız tarixi abidə kimi qorunur.

Bəzi mənbələrdə bu məbəd Qariyel, Qabriyel, Qabriel və ya Qariyəl kilsəsi adı ilə də qeyd olunur ki, bu da mənbə fərqliliyindən və fonetik təhriflərdən irəli gəlir. Ətraf kənd sakinləri isə onu əsasən keçmiş alman kilsəsi və ya daş məbəd kimi tanıyırlar.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

## Belə davam etsə, Goranboy da tütünçülük rayonu olacaq



**Son illər bir çox kənd təsərrüfatı məhsulu istehsalında artım müşahidə edilir ki, bunun da əsas səbəblərindən biri aqrar sektora verilən dövlət dəstəyidir. Kənd təsərrüfatının inkişafı baxımından zəruri sayılan layihələrin maliyyə təminatını öz üzərinə götürən dövlət aqrar sektorda çalışanlara geniş güzəştlər edir.**

Bütün bunlar söz yox ki, ölkədə ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafını təmin edir, vaxtilə iqtisadiyyatda xeyli payı olan sahələrə marağı artırır. Belə sahələrdən biri də tütünçülükdür.

İqtisadi əhəmiyyətinə görə ikinci texniki bitki sayılan tütün hələ keçən əsrin 70-ci illərində respublikamızda kənd təsərrüfatının əsas sahələrindən biri olmuşdur. Lakin 90-cı illərin əvvəllərində digər sahələr kimi tənəzzülə uğradı. Yalnız 2016-cı ildə dövlət başçısının təşəbbüsü və qayğısı ilə bu gəlirli sahə yenidən dirçəlməyə başladı.

Bu dirçəliş tütünçülük üçün əlverişli şəraitə malik olan Goranboyda hiss olunur. Hazırda tütün rayonun Zeyvə, Yenikənd, Şəfəq, Qarbucaq, Todan və Qaraçanaq kəndlərində əkilir. Keçən il həmin kəndlərdə 8 hektar tütün əkən şirkətlər hər hektardan 1,5 ton olmaqla ümumilikdə 14,7 ton tütün yarpağı toplamışlar.

Rayonda tütün istehsalını artırmaq üçün 14 istixana qurulması nəzərdə tutulmuşdur. Onların artıq 6-nın qurulması başa çatdırılmışdır. Bu istixanalarda yetişdirilən şitillər artıq sahələrə köçürülmüşdür. Cari ilin məhsulu üçün 291 hektar sahəni əhatə edən plantasiyalarda 5 mülkiyyətçi ilə müqavilələr bağlanmışdır.

Qeyd edək ki, ən çox "Virciniya" sortunun əkildiyi plantasiyaların suvarılması müasir texnologiyalarla təmin edilmişdir.

*"Azərbaycan"*

## Burada gələcəyin çempionları yetişir

### Neftçala Olimpiya İdman Kompleksi yeniyetmə və gənclərin sevimli ünvanıdır







**İdmanın inkişafı bu gün dövlətimizin prioritet istiqamətlərindəndir. Bütün məsələlər kimi, bu mühüm sahə də Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Bunun sayəsində ölkənin hər yerində Olimpiya İdman kompleksləri, idmanın ayrı-ayrı növləri üzrə mərkəzlər tikilir, idman qurğuları lazımi avadanlıqlarla təchiz edilir, kadr potensialı möhkəmləndirilir.**

İdman sahəsində görülən tədbirlər gənclərimizin fiziki və mənəvi cəhətdən möhkəmlənməsinə, onların asudə vaxtlarının səmərəli keçməsinə, gənclərin pis vərdişlərdən uzaqlaşmasına, onlarda vətənpərvərlik hisslərinin güclənməsinə, fəal vətəndaşlıq mövqeyinin inkişafına vəsilə olur. Azərbaycan gənclərinin müntəzəm olaraq idmanla məşğul olması nəticədə onların hərbi sahədəki uğurları ilə birbaşa bağlıdır. 44 günlük Vətən müharibəsində bu cəhət özünü bariz şəkildə göstərdi. Şuşa kimi alınmaz qalanın mənfur düşməndən heç bir hərbi texnika tətbiq etmədən təmizlənməsində gənc əsgərlərimizin idmançı çevikliyinin, igidliyinin, cəsurluğunun necə böyük rol oynadığı hamının yadındadır.

Azərbaycan idmançıları müxtəlif növlər üzrə keçirilən beynəlxalq yarışlarda uğurla çıxış edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxır, bayrağımızı dalğalandırır, himnimizi səsləndirirlər. Bunlar hər bir azərbaycanlının qəlbini qürur hissi ilə doldurur. İdmançılarımız qazandıqları qələbələrə görə dövlət tərəfindən yüksək mükafatlarla təltif olunurlar. Məhz bunların nəticəsidir ki, ölkəmizdə bu gün idman və bədən tərbiyəsi kütləvi hal almışdır.

Neftçalada idmanın zəngin ənənələri var. Keçən əsrin 60-80-ci illərində rayonda idmanın boks, ağırlıqqaldırma, futbol növləri üzrə uğurlu nəticələr əldə olunub. Respublika, eləcə də keçmiş SSRİ miqyasında keçirilən müxtəlif yarışlar və turnirlərdə uğurlu çıxış edən rayonun idmançıları Azərbaycanın, o cümlədən doğulub boya-başa çatdıqları Neftçalanın idman şərəfini layiqincə qorumuşlar. İdman ustası titulunu daşıyan həmin idmançılar yaşlı nəslin nümayəndələri tərəfindən bu gün də xoş və unudulmaz xatirələrlə anılırlar.

Adından da göründüyü kimi, Neftçala neft ərazisidir. Burada neft və qazçıxarma, yod-brom, kimya və balıqçılıq müəssisələri uzun illərdən bəri mövcuddur. Yaxın keçmişə qədər həmin idarələr tam gücləri ilə fəaliyyət göstərirdi. Bu müəssisələrdə çalışan cavanlar rayonda idmanın inkişafına da öz töhfələrini vermişlər. İndi SOCAR-ın balansında olan futbol stadionu o illərin yadigarıdır. Stadion bu gün neft şirkətinin diqqət mərkəzindədir. Vaxtaşırı olaraq təmir edildiyi üçün stadionda tez-tez yarışlar və digər kütləvi idman tədbirləri keçirilir.

Neftçala Olimpiya İdman Kompleksi isə 2022-ci ildən fəaliyyət göstərir. Açılışında Prezident İlham Əliyevin iştirak etdiyi kompleks 4 hektar ərazidə salınmışdır. Möhtəşəmliyi ilə özündən əvvəlkilərdən fərqlənən Olimpiya kompleksi memarlıq cəhətdən Neftçala şəhərinə xüsusi yaraşıq verir. Burada 770 yerlik universal zal, süni örtüklü açıq və qapalı mini-futbol meydançası, 224 tamaşaçı yerlik üzgüçülük hovuzu, aerobika, boks, ağır atletika, trenajor, şahmat, gimnastika, güləş, taekvando-karate zalları, 28 nəfərlik kafe-restoran, 28 qonaq otağı olan mehmanxana, açıq havada idman meydançaları, qaçış zolağı, digər köməkçi və texniki binalar var. Təcrübəli məşqçilərin təşəbbüsü ilə kompleksə cəlb edilən yeniyetmələr və gənclər futbol, üzgüçülük, bədii gimnastika, trenajor, boks, güləş, cüdo, ağır atletika, stolüstü tennis idman növləri üzrə tərtib edilmiş qrafik əsasında müntəzəm məşq edir, seçdikləri idman növünün sirlərini dərindən mənimsəyirlər. Və bütün bunlar, təbii ki, nəticəsiz qalmır. Mirzəqurbanlı kənd tam orta məktəbin 8-ci sinif şagirdi Aynişan Rzazadə bu yaxınlarda qızlar arasında keçirilən boks birinciliyində 48 kiloqram çəki dərəcəsi üzrə gümüş medalın sahibi olmuşdur. Gimnastika üzrə məşqçi Flora Babaşova isə



hər həftə 3 dəfə Bakıdan Neftçala şəhərinə gələrək yeniyetmə qızlara bu zərif idmanın sirlərini öyrədir. Çəkdiyi zəhmət də hədər getmir. Artıq neftçalalı qızlardan ibarət 11 nəfərlik komanda formalaşıb. "Gimnastika hamı üçün" layihəsi çərçivəsində bu günlər Bakıda keçirilən beynəlxalq tədbirdə həmin komanda uğurla çıxış edərək 3-cü olmuşdur.

Kompleksdə vaxtaşırı dövlət qulluqçuları, müəllimlər, həkimlər, tələbələr, şagirdlər arasında intellektual yarışlar, "Şahin" hərbi idman oyunları, rayon və respublika birincilikləri keçirilir. Ölkənin ali məktəblərinin müəllim-tələbə heyəti hər il bir neçə dəfə kompleksin qonağı olaraq fiziki hazırlıqlarını möhkəmləndirir, Xəzərin sahilində yerləşən Neftçala şəhərinin sosial həyatı ilə tanış olurlar. Elə bu yaxınlarda ayrı-ayrı günlərdə Sumqayıt, Lənkəran, Zaqatala dövlət universitetlərinin tələbələri 3 gün kompleksdə həm qonaq olmuş, həm də fiziki hazırlıqlarını möhkəmləndirmişlər.

Söz düşmüşkən onu da qeyd edək ki, Neftçala Olimpiya İdman Kompleksində hər cür şərait olduğundan Neftçala Uşaq-Gənclər İdman Məktəbi bura köçürülmüşdür.

Olimpiya idman kompleksində həyat, necə deyərlər, hər gün bulaq kimi qaynayır. Yeniyetmələr, gənclər çiyinlərində idman çantası ya kompleksə daxil olur, ya da məşqi başa çatdıraraq evlərinə yollanırlar. Onların hər birinin çöhrəsində sevinclə bərabər, qələbə hissi də görmək olur. Bu, Neftçalanın keçmiş idman şöhrətini yaxın vaxtlarda geri qaytarmaq inamından doğan bir hissdir.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*





## Vətən deyəndə...





**İşğaldan azad olunmuş Qarabağa, eləcə də başqa bölgələrimizə səfər edəndə ürəyimiz iftixar və qürur hissi ilə döyünür. Gördüklərimizin, şahidi olduqlarımızın təəssüratları uzun müddət yaddaşımızda yaşayır. Aparılan quruculuq işləri, çəkilən geniş yollar, salınan körpülər, kilometrlərlə ölçülən qazılmış tunellər bölgələrin sabahkı uğurlu inkişafından, tərəqqisindən xəbər verir.**

# Qarabağın ağ günləri

Yenə də yolumuz işğaldan azad olunmuş Qarabağ bölgəsinədir. İnanırıq ki, bu səfərdə də gördüklərimiz, eşitdiklərimiz ovqatımıza ovqat qatacaq. Ağdam keçid məntəqəsində insanları Qarabağa aparacaq avtomobillərin uzun növbəsi yaranıb.

Sənədlərin yoxlanışı çox vaxt aparmır. Bir azdan keçid məntəqəsi arxada qalır və biz geniş və rahat yolla üzü Qarabağa gedirik. Yeni çəkilmiş dəmir yolu və asfalt yollara baxdıqca ürəyimiz qürur və iftixarla dolur. Xatırlayırıq ki, 2021-ci ildə Ağdamda ezamiyyətdə olanda istehkamçılar buradan yolların çəkilməsi üçün ərazini minalardan və partlamamış silah-sursatlardan təmizləyirdilər. Şükürlər olsun ki, ötən illər ərzində artıq ərazilər minalardan təmizlənib, həm dəmir, həm də şose yolları çəkilib. İndi insanlar bu yollarla çox rahatcasına Ağdama, Əsgərana, Xocalıya, Xənkəndiyə, Şuşaya və başqa bölgələrə gedirlər. Bütün görülən bu işlər isə ürək açır, qəlb oxşayır.

### Hər addımda erməni vəhşiliyinin qanlı izləri qalıb

Düşmənlərin otuz ilə yaxın işğalda saxladıqları və evlərini uçurub dağıtdıqları Ağdam rayonunun kəndlərinin yaxınlığından keçirik. Erməni vəhşiliyi, erməni vandalizmi bir zamanlar cənnəti xatırladan bu yerləri cəhənnəmə döndərib. Nə qədər ətrafa boylansaq da, salamat qalmış bir ev, bir həyət, bir divar gözə dəymir. Hər addımda erməni vəhşiliyinin, barbarlığının qanlı izləri qalıb. Bütün bu ürəkdağlayan mənzərələr ovqatımızı korlayır, düşmənə olan nifrət hissimizi daha da artırır.

Bir az irəli gedəndən sonra mənzərə dəyişir. Yenidən tikilən, qurulan ruhlar şəhərinin getdikcə boy verən evlərini, binalarını görürük. Bu mənzərəni seyr etdikcə korlanmış ovqatımız yavaş-yavaş düzəlir, ürəyimiz açılır. Ağdam rayonunda aparılan quruculuq işləri bir an da olsun dayanmır. Hündürmərtəbəli binaların "başının" üstündə kranlar işləyir, ağırtonnajlı maşınlar fasiləsiz olaraq qum, çınqıl, daş və başqa tikinti materialları daşıyır. Həm yollarda, həm də tikinti gedən ərazilərdə müxtəlif təyinatlı texnikalar hərəkət edir. Sabahlarımıza gur işıq salacaq, yaraşıq verəcək quruculuq işləri gündəlik axarından qalmır.

Yeni tikilən Xıdırlı kəndinin yaxınlığından keçəndə də gördüklərimizdən ürəyimiz açıldı, gözlərimiz güldü. Demək olar ki, evlərin tikintisi başa çatıb, yaşıllıqlar salınıb. Geniş həyətlərə dəmir tor çəkilib. Məhəllələr abadlaşdırılır, kəndarası yolların çəkilişi üçün zəruri hazırlıq işləri görülür. Hiss olunur ki, bu yaşayış məntəqəsində tamamlama işləri aparılır. Kənddə tikilmiş inzibati binalar da forması və gözəlliyi ilə diqqətimizi özünə çəkir. Çox keçməyəcək ki, Ağdamın başqa kəndləri kimi, Xıdırlı da doğma sakinlərini qoynuna alacaq.

Ağdam rayonunu keçib üzü Əsgərana tərəf gedirik. İki dağın ətəyindəki geniş ərazidə yerləşən Əsgəran gözəlliyi ilə görənləri ilk baxışdan, ilk görünüşdən heyran edir. Yaşıllığa bürünmüş dağların qoynundakı damları müxtəlif rənglərdə olan evlər ətrafa xüsusi yaraşıq verir, rəngarənglik yaradır. Bir-birinə bənzəməyən evlər bizə güllərin, çiçəklərin arasından sevinə-sevinə Yer üzünə boylanan göbələkləri xatırladır. Başqa bölgələrdə olduğu kimi, Əsgəranda da abadlıq və quruculuq işləri aparılır. Yolların genişləndirilməsi əraziyə xüsusi yaraşıq verməklə yanaşı, insanların rahatlığını da təmin edir.

Bir az irəli gedəndən sonra quruluşu, forması və möhtəşəmliyi ilə əsrlərdən bəri insanları özünə cəlb edən Əsgəran qalasını ziyarət etmək üçün dayanırıq. Qarabağa üz tutan insanlar mütləq burada ayaq saxlayıb qalanı ziyarət edirlər. Əsgəran qalası sanki Qarabağa açılan əbədi-əzəli qapıdır. Qalaya baxdıqca onun bənzərsiz quruluşuna bir daha heyran olduq. Qarabağda belə möhtəşəm qalalar tikən ataların, babaların torpaqları əbədi olaraq erməni işğalında qala bilməzdi. Necə ki, qalmadı da!

### Sakinlər doğma ocaqlarına Xocalını dirçəltmək üçün qayıdıblar

Qaladan aldığımız xoş təəssüratlarla yolumuza davam edirik. Əsgərandan bir az irəli gedəndən sonra illərdən bəri ağrı-acılarını ürəyimizdə yaşatdığımız Xocalı rayonunun ərazisinə daxil oluruq. Rayonun adı yazılan yerdə bir anlıq ayaq saxlayırıq. Xocalının gözoxşayan yaşıllığa bürünmüş dağlarına, düzlərinə baxırıq. İndi dayanıb gözəlliyinə tamaşa etdiyimiz bu dağları, bu düzləri erməni işğalçıları 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə şəhər sakinlərinin qanına boyadılar. Soyuq bir qış gecəsində daşnakların törətdiyi bu faciə amansızlığı və qəddarlığı ilə eşidənləri və görənləri sarsıtdı, erməni vəhşiliyinin iç üzünü açıb bütün dünyaya göstərdi. Həmin gün tariximizə Xocalı soyqırımı kimi yazıldı. O vaxtdan bu qanlı faciədə şəhid olanların xatirəsi həmişə hörmətlə anılır, ehtiramla yad edilir. Həm 44 günlük Vətən müharibəsində, həm də 19-20 sentyabr antiterror əməliyyatlarında şəhidlərin qisası erməni işğalçılarından alındı. Uzun illərdən bəri gözüyaşlı qalmış Xocalının dağlarının üzü güldü, ürəyi açıldı. Bundan şəhidlərin ruhu da rahatlıq tapdı.

Şanlı Azərbaycan Ordusu Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında başqa şəhər və kəndlərimiz kimi, Xocalını da erməni işğalından azad etdi. Artıq şəhər sakinləri doğma ocaqlarına dönərək dövlətimizin tikdiyi hərtərəfli şəraiti olan evlərdə yaşayırlar. Sakinlər doğma ocaqlarına Xocalını dirçəltmək, yaşatmaq, gözəlləşdirmək üçün qayıdıblar. Onlar qayıdışları, dönüşləri ilə Xocalıya yeni həyat verəcəklər, şəhəri yenidən dirçəldəcəklər. Keçmiş sakinlər doğma ocaqlarına döndükdən sonra Xocalının Ballıca kəndində dünyaya yeni körpə göz açdı. 1992-ci ilin soyuq bir qış günündə erməni vandallarının qana buladığı Xocalının dağları, düzləri illərdən bəri həsrətini çəkdiyi körpə qığıltısını da eşitdi. Sanki bu səsdən, bu qığıltıdan yaraları bir az sağaldı. Valideynləri yenicə dünyaya göz açan uşağın adını Mehdi qoyublar. Mehdi qaçqınlıqdan sonra Xocalıda doğulan ilk körpədir, özü də oğlan uşağıdır. Bu körpə böyüyüb yurdun, el-obanın müdafiəçisi olacaq, düşmənlərə qan udduracaq.

### Ordumuz xəyallarımızı gerçəkləşdirdi

Şəhərdən çıxhaçıxda yaşıllıqlara qulluq edən işçilərdən biri ilə görüşüb tanış olduq. Öyrəndik ki, İlkin İdrisov əslən Xocalıdandır. Amma 1993-cü ildə valideynlərinin məskunlaşdığı Bakı şəhərində dünyaya göz açıb. İlkin dedi ki, heç vaxt Xocalı şəhərini görməyib: "Yalnız valideynlərimdən, yaxınlarımdan onun adını eşitmişdim. Doğmalarım erməni işğalçılarının onlara verdiyi dözülməz işgəncələrdən, düşmənlərin qəddarlığından ürək ağrısı, göz yaşı içində söz açırdılar. Xocalı mənim üçün nağıllar şəhəri idi. Çünki mən onu həmişə xəyallarımda canlandırırdım. Şükürlər olsun ki, ordumuzun qəhrəman zabit və əsgərləri həm 2020-ci ilin İkinci Qarabağ müharibəsində, həm də 19-20 sentyabr 2023-cü il antiterror əməliyyatlarında igidlik və cəsarətləri ilə xəyallarımızı gerçəkləşdirdilər. Bir zamanlar xəyallarımda canlandırdığım nağıllar şəhərində indi həm yaşayır, həm də işləyirəm. Bu müqəddəs torpağa addım qoyanda gördük ki, Xocalı deyildiyindən də, təsvir olunduğundan da gözəl imiş.







Xocalıdan sonra yolumuz Qarabağın mərkəzi şəhəri olan Xankəndiyədir. Yolboyu hər yerdə quruculuq işlərinin aparıldığını gördük. Darısqal, yöndəmsiz yollar genişləndirilir, abadlıq işləri aparılır. Təmir və bərpa işlərinin tez bir zamanda başa çatması üçün xüsusi texnikalar da cəlb olunub. Sürətlə aparılan quruculuq işləri sabahkı gözəlliyə zəmin yaradır. Deməli, doğma Xənkəndi getdikcə daha da gözəlləşəcək.

Xankəndinin girişindəki keçid məntəqəsindən bir az irəli gedəndən sonra yolun kənarında çoxlu avtomobilin dayandığını gördük. Maşından düşəndə öyrəndik ki, bura həmişə televiziya ekranlarından gördüyümüz ermənilərin hələ sovet dövründə hündür bir təpənin üstündə qoyduqları "Biz və bizim dağlar" abidəsinin ərazisidir. Bu abidənin ilkin adı "Nənə və baba" olub. Ermənilər bu abidəni qoyanda Azərbaycan hökuməti bu ada qarşı çıxıb. Hökumətin etirazına baxmayan ermənilər həmişə olduğu kimi, yenə də Moskvada özlərinə xeyli havadar tapıblar. Amma nə qədər onlara arxalansalar da, abidənin adını "Nənə və baba" kimi saxlaya bilməyiblər. Beləcə, abidənin adını "Biz və bizim dağlar" qoyublar. Ermənilər bu adla da Qarabağın onlara məxsus olduğunu dünyaya sübut etməyə çalışırlar. Hansı ki abidədə əks olunan kişi və qadın obrazının nə Qarabağa, nə də onun buludlara baş çəkən dağlarına aidiyyəti var.

### Xankəndi əsl xanın kəndinə çevrilir

Otuz ilə yaxın torpaqlarımızı işğal altında saxlayan ermənilər ərazidə olan bütün tarixi abidələrimizi, müqəddəs məkanlarımızı uçurub dağıtmışdılar, təhqir etmişdilər. İnsanlıqdan, bəşəri hisslərdən xeyli uzaq olan daşnaklar abidələrin içində donuz, inək və başqa heyvanlar saxlamışdılar. Amma 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələri üzərində qazandığı Zəfərdən sonra ermənilərin ərazilərdə qalmış qondarma abidələrinə kimsə toxunmur.

Ötən ildən fəaliyyətə başlayan Qarabağ Universitetinin qarşısında da xeyli ziyarətçi var idi. Biz də vaxt itirmədən, fürsəti əldən vermədən onlara qoşulduq. Universitet binasının qeyri-adi gözəl quruluşu, arxitekturası diqqətimizi cəlb etdi. Ali təhsil ocağının qarşısındakı geniş həyət gül qoxuyurdu. Ətrafda hökm sürən təmizlik, səliqə-sahman könülləri oxşayırdı. Belə yaraşıqlı, işıqlı, hərtərəfli şəraiti olan ali təhsil ocağında oxumaq olduqca xoşdur.

Suverenliyimiz və ərazi bütövlüyümüz bərpa olunandan sonra 8 noyabr 2023-cü ildə Xankəndidə ilk dəfə Zəfər paradının keçirildiyi meydana da baş çəkirik. Təkrarolunmaz o gözəl, qürurverici anları xatırladıqca ürəyimiz sevinclə dolub-daşırdı. Şəhərin başqa yerlərində olduğu kimi, burada da bərpa və abadlıq işləri görülürdü. Bir zamanlar xunta rejiminin yerləşdiyi binanın qarşısında aparılan bərpa işləri bu yerləri indikindən daha da yaraşıqlı göstərir.

Xankəndinin bir-birindən gözəl küçələrində maşınlar hərəkət edir, işıqforlar da yolları, gediş-gəlişi nizamlayır. Ətrafda yol patrul xidmətinin əməkdaşları da gözə dəyirdi. Onlar iş başında idilər. Mağazalar işləyir, kafe, restoran və hoteller fəaliyyət göstərirdi. Xankəndinin küçələrində üçrəngli bayrağımızı dalğalanan görəndə ürəyimiz sevincə büründü. Başqa cür ola da bilməzdi, çünki həmişə arzusunda olduğumuz günün sevincini yaşayırdıq. Təki həyatımızda belə sevincli günlərimiz çox olsun.

Qarabağın mərkəzi şəhərinin küçələrindən keçənlərlə də söhbət etməyə imkan tapdıq. İlk həmsöhbətimiz olan Rasim Verdiyev dedi ki, Şəki rayonunda dünyaya göz açıb: "Amma Qarabağa gəlmək, bu gözəl yerləri görmək çoxdankı arzum idi. Şükürlər olsun ki, Azərbaycan Ordusunun qəhrəman zabit və əsgərləri Ermənistan silahlı qüvvələrini diz çökdürərək bizi bu arzumuza çatdırdılar. İndi budur, Qarabağda, onun gözəl şəhəri olan Xankəndidəyik. Oğlum və qızımın həyat yoldaşı indi burada çalışırlar. Biz də həyat yoldaşımla gəlib onların yanında qalır, bəzi işlərinə əl atırıq. Xankəndi çox gözəl şəhərdir. Gəldiyim elə ilk gündən şəhər məni özünə çəkib doğmalaşdırdı. İndi Xankəndiyə elə vurulmuşam ki, sanki mən Şəkidə yox, elə burada doğulmuşam".

- Əvvəlki illər heç ağlımıza da gəlməzdi ki, biz nə vaxtsa gəlib Qarabağda, Xankəndidə yaşayacağıq, - deyə Rasimin həyat yoldaşı Xuraman Verdiyeva söhbətimizə qoşuldu. - Beş-altı aydır ki, burada yaşayırıq, özüm də camaşırxanada işləyirəm. Burada iş yerləri çoxdur. Xankəndinin hər tərəfində abadlıq və təmir işləri aparılır. Günlər keçdikcə şəhər daha da gözəlləşir. Bütün bunları görəndə ürəyimiz sevinclə, qürurla dolur. Çünki biz doğmadan doğma olan, əbədi-əzəli torpaqlarımıza qayıtmışıq. Qarabağda yaşadığımız arxada qalan həftələr, aylar ömrümüzün ən yaddaqalan, unudulmaz günləridir. İnanıram ki, bu günlərin ömrü əbədiyyətə qədər uzun olacaq.

### Erməni işğalçıları Kərkicahanı da vəhşicəsinə dağıtmışdılar

Xankəndinin bizə olduqca doğma olan küçələrindən keçəndə yaraşıqlı bir tikilinin qarşısına "Qədim Kərkicahan" kafesi yazıldığını gördük. Naharı burada etməyi qərara aldıq. Küçə və meydanlarda olduğu kimi, burada da adam çox idi. Uzun yol gəlib yorulmuş insanlar bu məkanda oturub həm çörək yeyir, həm də dinclərini alırdılar. Yemək sifariş verib gözlədik. Kərkicahan qəsəbəsi uğrunda gedən döyüşlər haqqında kifayət qədər məlumatımız var idi. Azərbaycanlıların yaşadıqları bu qəsəbə ermənilərin işğal etdikləri ilk yaşayış məntəqələrindən biri olmuşdu.

Sifariş verdiyimiz yeməkləri masaya gətirən Mübariz Hətəmovla qısa tanışlıq zamanı öyrəndik ki, o, Bakı şəhərində dünyaya göz açsa da, valideynləri ermənilərin dağıdıb odlara qaladıqları Kərkicahandandır. Mübariz bir anlıq ötüb-keçənləri xatırlayaraq dedi ki, bu qəsəbənin adını ilk dəfə valideynlərinin dilindən eşidib. Onlar həmişə doğma ocaqlarının həsrətini çəkə-çəkə yaşayırdılar. Kərkicahanın işğaldan azad olunduğunu eşidəndə valideynləri elə seviniblər ki!.. Xankəndiyə gələndən bir müddət sonra gedib adını eşidib üzünü görmədiyi babalarının ruhu dolaşan qəsəbəni gəzib dolanıb. Doğrudan da, Kərkicahan çox gözəl, bənzərsiz bir yerdir. Amma təəssüflər olsun ki, erməni işğalçıları qəsəbəni vəhşicəsinə dağıtmışdılar. Dövlətimiz çox güclü və qüdrətlidir. İnanırıq ki, yaxın zamanlarda başqa şəhər və kəndlərimiz kimi Kərkicahan qəsəbəsi də yenidən qurulacaq.

Elə biz də böyük sevinc içində yaraşığı, bənzərsizliyi ilə qəlbimizə, ruhumuza yatan Xankəndi şəhərindən çıxıb əlçatmaz zirvədə yerləşən, gözəlliyi ilə dünyaya meydan oxuyan Şuşaya qalxırıq. Bizi qolları üstünə alıb, musiqi beşiyimiz olan Şuşaya qaldıran yollarda da bərpa və təmir işləri aparılırdı. Köhnə yolların yaxınlığından yenisi çəkilirdi. İşlər ləngimədən, səngimədən davam edirdi. Yolların geniş yerlərində maşınını saxlayan insanlar sevinc içində bu uca zirvələrdən Xənkəndiyə, Xocalıya, Əsgərana, Şuşanın kəndlərinə tamaşa edirdilər. Onların üzlərindən, gözlərindən hiss olunurdu ki, qarşılarında açılan bu gözəllikdən, bu füsunkarlıqdan doymurlar. Baxdıqca baxmaq istəyirlər.

Dolaylarına, döngələrinə heyran qaldığımız yollar on beş-iyirmi dəqiqədə bizi Şuşaya gətirib çıxarır. Ürəyimizdən, qəlbimizdən süzülüb gələn ən xoş sözlərlə gözəl şəhərimizə salam veririk, onunla asta-asta pıçıldaşırıq, danışırıq. Həmişəki kimi yenə də şəhərin küçələrində sıxlıqdır. Bayram günü olduğuna görə Şuşaya gələnlərin sayı əvvəlki vaxtlardan çox gözə dəyir. Turla gələn avtobuslar yolun kənarında bir-birinin ardınca düzülüb. Qonaqlar o qədər çoxdur ki, şəxsi avtomobilləri ilə gələnlər maşınlarını saxlamağa yer tapmaqda çətinlik çəkirlər. Bütün bunlar xalqımızın Şuşaya olan sevgisinin, məhəbbətinin göstəricisidir. Elə 44 günlük Vətən müharibəsində də, ondan sonrakı antiterror əməliyyatlarında da Zəfər bu sevgidən, bu məhəbbətdən doğdu.

### Arzunun arzusu Şuşaya tez-tez gəlməkdir

Cıdır düzünə də, görkəmli Azərbaycan şairi, şeirləri, qəzəlləri poeziyamızın saf incisi hesab edilən Molla Pənah Vaqifin məqbərəsinə gedən yolda da sıxlıq müşahidə olunurdu. Amma bütün bunlara baxmayaraq, Cıdır düzünü də, Vaqifin möhtəşəm məqbərəsini də ziyarət etdik. Meşənin dərinliklərində, yaşıllıqlar qoynunda yerləşən İsa bulağına da baş çəkdik. Şuşanın harasında olduqsa, hara getdiksə, orada gözəl mənzərə ilə qarşılaşdıq. İsa bulağının qarşısında sanki insan seli dayanmışdı. Gələnlərin hamısı illərdən, əsrlərdən bəri qaynayıb coşan bu bulaqdan su içmək, hələ əlindəki qabları da doldurmaq istəyirdi.

Şuşanın Qala qapısının qarşısında da böyük canlanma var idi. Bu müqəddəs məkana gələnlərin hamısının üzü gülür, ürəyi açılırdı. Əlil arabasında ortayaşlı bir kişinin ziyarətə gəldiyini görəndə bir anlıq heyrət bizi bürüdü. Düşündük ki, deməli, onun da ürəyi zaman-zaman Şuşa həsrətiylə, Şuşa sevgisi ilə döyünüb. İllər uzunu Şuşanı görmək arzusu ilə yaşayıb. O günü, o anı səbirsizliklə gözləyib. İndi budur, arzusuna çatıb, istəyinə yetib, Qarabağın tacı olan şəhərin ziyarətinə gəlib.

Ziyarətçilərin arasında balaca bir qızcığazın da əlində tutduğu bayrağı yellədə-yellədə Qala divarının önündə qoyulmuş "Xarıbülbül" rəsminin yanında həvəslə şəkil çəkdirməsi diqqətimizdən yayınmadı. Tanış olanda öyrəndik ki, Arzu Bakı şəhər Tofiq Məmmədov adına 239 nömrəli orta məktəbin 4-cü sinfində oxuyur. Şuşaya ilk gəlişi olduğundan onun sevinci balaca ürəyinə sığmırdı. Gördüklərinin təəssüratlarını bizimlə bölüşən məktəbli qız dedi:

- Şuşanın şəkillərini həm dərslik, həm də oxuduğumuz başqa kitablarda, baxdığımız televiziya verilişlərində görürdüm. Amma istəyirdim ki, günlərin birində Şuşaya gedim, bu gözəl yerləri canlı-canlı görüm. Ən böyük istəyim isə Qala qapısının qarşısında üçrəngli bayrağımızı dalğalandıra-dalğalandıra şəkil çəkdirmək idi. Bu gün neçə vaxtdan bəri ürəyimdə gəzdirdiyim arzuma çatdım. Şuşanın ən gözəl yerlərini gəzdim. Cıdır düzündən, İsa bulağından, Qala qapısından, şəhərin küçələrindən, məscidlərindən, onu əhatə edən başıdumanlı dağlarından, meşələrindən çox xoşum gəldi. İnnən belə bu doğma yerlərə tez-tez gələcəyəm.

Şuşanı ziyarətə gələnlərin ardı-arası kəsilmirdi. Böyük həvəslə şəhərə üz tutan insanlar elə həmin həvəslə də şəhərin ən görməli, gəzməli yerlərini ziyarət edirdilər. Gülməyən bir üz, sevinc süzülməyən bir göz görməmək mümkün deyildi. Sanki 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər sevincə, təbəssümə, fərəhə çevrilərək insanların üzündə, gözündə parlaq şəkildə bərq vururdu. Qoy üzlərdən, gözlərdən Zəfər qoxulu sevinc, təbəssüm heç vaxt əskik olmasın.

Qarabağa həm ziyarətə, həm də yaşamağa gələn insanların üz-gözündən süzülən sevinci görəndə qürur hissləri keçirdik. Uzun illərin erməni işğalına son qoyan Zəfərdən sonra Qarabağda həyat yenidən başlayıb. Doğma ocaqlarımızda başlayan bu həyat isə hamımıza bol-bol sevinc bəxş edir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

**Bura yaşıl bir adaya bənzəyir. Sanki hündür, qollu-budaqlı ağaclar dörd bir tərəfdən binanı qucaqlayaraq bağrına basıb. Ağacların arasında "yerini bərkitmiş" oturacaqlarda dincələn körpə fidanlar gözə dəysə də, həyətdə lal sükut hökm sürür. Ətrafı seyr edirəm. Nədənsə bizə elə gəlir ki, oturacaqda əyləşən uşaqlar üz-üzə olduğu yoldaşları ilə yox, ürəkləri ilə danışırlar.**



# "Anam, atam yoxdur, əvəzində dövlətim var"

## Bu, 3 saylı Uşaq evinin bir sakininin səmimi ürək sözüdür

Qulağımıza yaşıl yarpaqların arasında gizlənib nəğmə oxuyan bülbülün "nəğmə"si hakim kəsilir, səsində bir qeyri-adi yanğı, ah-nalə olduğu üçün. Bilmirik, bəlkə oxuyan da heç bülbül deyil, valideyn həsrəti çəkən, ana qayğısı duymaq istəyən bir körpənin naləsidir eşitdiyimiz...

Heç ağlımızdan belə keçirməmişdik ki, nə vaxtsa 17 yaşlı bir gəncin ilk kitabının ilk sətirləri bir ömür əbədi olaraq gözlərimizə yazılacaq: "Düşündüyünüz kimi deyil bu həyat, o, axar gedər. Sən baxarsan, susarsan, amma içindəki sən susmaz, dayanmadan danışar... Mənimlə söhbət edən daha bir mən var beynimdə. Hərdən "sus" deyirəm, amma o susmur, susdura bilmirəm. Çox maraqlıdır. Nə vaxt böyüdüm? Vaxt nə tez keçdi? Görəsən, sevgi asan bir şeydimi? Yaxşı, bəs nədir sevgi? Məncə, sevgi anadır. Ana sevginin təmiz, saf halıdır".

Bakının Xətai rayonunda yerləşən 3 saylı Uşaq evi sosial xidmət müəssisəsindəyik. Buranı dövlətin vətəndaşına sahiblik hissinin, valideyn himayəsindən məhrum olmuş uşaqlara qayğısının əsl nümunəsi də hesab etmək olar. Öyrənirik ki, Uşaq evinin səliqə-sahmanlı, geniş və yaraşıqlı binası 1976-cı ildə 12 qrupluq körpələr evi-uşaq bağçası üçün inşa edilib. 1990-cı ildən 110 yerlik Uşaq evi olaraq fəaliyyətini davam etdirir.

Ötən il bu Uşaq evi sosial xidmət müəssisəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinə verilib. Söhbət zamanı müəssisənin direktor müavini Günay Manafova qeyd etdi ki, hazırda 95 yerlik müəssisədə yaşa və cinsə görə 5 qrup var. Müəssisədə hər qrupda 2 mentor, 2 gecə, 2 gündüz dayəsi çalışır.

Günay Manafovanın sözlərinə görə, beynəlxalq təcrübəyə əsasən, bu sahə uşaqların tərbiyəsində yetkinlik yaşına çatdıqda peşə və əmək reabilitasiyasının təşkil edilməsi məqsədəuyğun hesab olunur: "Uşaqlar hazırda idman sahələrinə (reqbi, futbol, voleybol və tennis) istiqamətləndiriliblər. Nəticələr də ürəkaçandır. Biz seçim zamanı xüsusi diqqət göstəririk. Çalışırıq balalarımızı elə istiqamətləndirək, idmanın elə növü ilə məşğul olsunlar ki, gələcəkdə onlarda aqressiya olmasın. Məhz bu məqsədlə də övladlarımızı ağır idman növlərindən uzaqlaşdırmışıq".

Müəssisənin direktor müavini xüsusi olaraq vurğuladı ki, buradakı uşaqların əksəriyyəti xüsusi qabiliyyətləri, istedadları ilə seçilirlər. Qabiliyyətləri ilə fərqlənən uşaqlar rəsm və əl işlərinin hazırlanması ilə məşğul olur və müsabiqələrdə fəal iştirak edirlər: "Qürurla qeyd edə bilərəm ki, övladlarımız bir qayda olaraq əksər müsabiqələrdə ilk üçlükdə yer alırlar".

Bələdçimizlə birlikdə otaqları gəzirik. Gənc bir qızın kiçik yaş qrupunun oğlan uşaqları ilə məşğuliyyəti diqqətimizi çəkir. Tanış oluruq. Uşaq evinin sakini Sara Mehtiyevanın 17 yaşı var. Sara yaşından tez böyümüş, düşüncəli, gələcəyi görən incə qəlbli bir gəncdir. Xəyallarını poetik misralara çevirib şeirlə ifadə edir. 2024-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın dəstəyi ilə "Ümid işığı" adlı kitabı işıq üzü görüb. Sara deyir ki, uşaq evinə gələnə kimi bibisinin yanında yaşayıb. Artıq 9 ildir ki, uşaq evinin sakinidir. Ata-anası haqqında məlumatı yoxdur.

Sara ilə söhbətə körpü salmağa çalışırıq. Açığını deyək ki, haradan başlayacağımızı bilmirik. O, Uşaq evinə gəlişinin ilk günlərini xatırlayır. Soruşanda ki "çətin olmadı", "yəni..." deməklə keçir. Fikrə gedir. Xəyalları onu harasa çəkib aparır. Düşüncələrində nə olduğunu bilə bilmirəm. Gözlərində dupduru göz yaşı gilələnib muncuq kimi yanağına süzülür...

Bir xeyli susduqdan sonra pıçıltı ilə "incəsənət yönümlüyəm, aktrisa, yaxud da rejissor olmaq arzusundayam" deyib söhbətə ara verir. Gözlərini üzümə zilləyib baxır. Hər yerdə ata, ana, bəlkə də doğma bir səs arayan bu gözlərə baxa bilmirik. Sual verməyə, söz soruşmağa ehtiyat edirik. Elə zənn edirik ki, ataya, anaya aid nəsə soruşsaq, bu körpə fidanın ürəyinə toxunarıq. Ürəyimizdən keçənləri gözlərimizdən oxuyur: "Aktrisa və ya rejissor olsam, ən gözəl ana obrazını yaradaram. Elə bir ana obrazı yaradaram ki, heç kim körpəsini atmaz. Tək olanda kitab kimi öz taleyimi oxuyuram. Hardasa bir günahsız körpənin incidildiyini görəndə çığırıb-bağırmaq, üsyan etmək istəyirəm. İmkanım olsa, hamıya deyərəm ki, uşaqların ürəyini qırmayın. Uşaqları sevin, onları incitməyin, atmayın. Uşaqlar mələkdirlər" deyir.






















Sonra da susur, barmaqlarını dartışdırır, nə isə fikirləşir. Astadan, lap güclə eşidiləcək bir səslə "Bir də dövlətimiz var. Bu dövlət olmasaydı, harada yaşayardıq? Kim qayğımızı çəkərdi? Nə edərdik? Bura bizim öz doğma evimiz kimidir" deyərək sözünə ara verir. Amma bu fasilə uzun çəkmir: "Bura həyatın bir mərhələsidir. Konkret olaraq bu həyatın bitəcəyi tarix də aşağı-yuxarı bəllidir. Buranın ata evi olmadığını bilirik. Bilmirəm ki, atalar necə olur... Yəqin mənim də atam olub. Bilmirəm mənim günahım nə olub ki, mən belə həyat yaşamağa məcbur olmuşam? Bilirsiniz, nə fikirləşirəm? Doqquz ildir buradayam. 8 yaşımda ağlaya-ağlaya gəldiyim yeri bəlkə də ağlaya-ağlaya tərk edəcəyəm. Təəssüf ki, öz həyatımızı biz özümüz yaza bilmirik. Həyat bizi öz cızdığı yol ilə aparır. Hələlik bu belədir".

Sara deyir ki, övlad dünyaya gətirmək valideyn olmaq demək deyil: "Gərək dünyaya gətirdiyin körpəni böyüdəsən, sevgi verəsən, lazım gəlsə, nazını çəkəsən. Bu insanlar necə rahat yaşaya bilirlər, anlaya bilmirəm ki? Çalışacağam, mübarizə aparacağam ki, öz yolum, dəst-xətim olsun. Bundan sonra arzuladığım həyatı yaşaya bilim. Atam, anam yoxdur, dövlətim var. İnsanıq da... İnsanın gözü var, nəfsi var, arzuladığı, xoşu gəldiyi gözəl şeylər var. Bu gün məni dövlətim yaşadır. Hətta paltar verəndə xoşum gələni, zövqümə uyğun olanı seçməyə belə imkan verir. Türklərdə "Dövlət baba" ifadəsi var. Bu gün dövlətimiz bizə əsl babalıq edir. Biz, bizi dünyaya gətirən insanlardan görmədiyimiz sevgini, məhz sevgini dövlətimizdən görürük. Bizi dünyaya gətirənlər bizi küçəyə atdılar, dövlətimiz isə bizə sahib durdu. Bu dövlətin borcunu əsl vətəndaş olaraq yaxşı işlərimlə, əməllərimlə qaytaracağam".

Dəhlizdəki yağlı boya ilə kətan üzərində çəkilmiş "Xudafərin körpüsü" əl işi diqqətimizi çəkir. Günay xanım deyir ki, bu, Şıxbabanın əl işidir. Söhbətimizi balaca rəssam Şıxbaba Muxtarovla davam etdiririk. 15 yaşı var. Üç ildir Uşaq evində yaşayır. Deyir ki, Fatmayi kəndindəndir. Anası xəstə, atası isə həbsdədir.

Şıxbaba özünü Uşaq evində rəssam kimi tanıdıb. O, dünyanı rənglərin gözü ilə görür: "Mavi rəngi çox sevirəm. Bir baxın göy üzünə, buludlar da mavidir. Məncə, göy üzü mavi olmasa, günəş də elə gözəl görünməz. Xəzər də mavidir. Mənə elə gəlir ki, bütün rənglərdən mavi gözəldir".

Şıxbaba deyir ki, arzusu hərbçi olmaq, vətənin keşiyində durmaqdır: "Hərbçilik kişi sənətidir. Vətənin keşiyində durmaq isə böyük xoşbəxtlikdir. Heyif ki, atam həbs olunub. Düşünürəm ki, bu arzumu da gerçəkləşdirə bilməyəcəm. Əvvəllər tətillərdə bibim gəlib məni aparırdı, amma indi yox. Doğmalarla birlikdə yaşamaq tamam başqadır. Orada həyat daha maraqlı olur. Uşaqlarla oynayıram. 18 yaşımı tamam edib əsgərliyə gedəcəyəm. Çalışacağam ki, məni yaşadan dövlət üçün layiqli vətəndaş olum".

Uşaq evinin digər bir sakini Zeynəb Qurbanova ilə həmsöhbət oluruq. O, 5 ildir buranın sakinidir. Deyir ki, əvvəllər 10 il "Ümid" Uşaq Evində yaşayıb: "Özüm haqqında bildiyim budur ki, körpəlikdə vərəm dispanserində olmuşam. Bəlkə də soyuq havada məni küçəyə atdıqları üçün ciyərlərimə soyuq olubmuş. Ona görə də vərəm dispanserinə verilmişəm. Müalicə olunduqdan sonra məni "Ümid" Uşaq Evinə gətiriblər. 10 il orada qaldıqdan sonra da bura dəyişilmişəm. İdmanı çox sevirəm. Cüdo, futbol, kikboksinqlə məşğul oluram. Müəlliməmiz məsləhət bilib ki, daha çox futbolun üzərində dayanım. Qadın futbol klubunun yaxşı futbolçulara ehtiyacı var. Bilirsiniz niyə idmançı olmaq istəyirəm? Vətənimi, dövlətimi çox sevirəm. Atalı-analı uşaqlardan çox bizim bu dövlətə borcumuz var. Bizi yaşadan da, qayğımızı çəkən də, hətta həyat verən də dövlətimizdir. Valideynlərimiz bizi küçəyə atıb, amma dövlətimiz bizə bu gözəllikdə şərait yaradıb. Dövlətimiz arzuladığımız və insana yaşaması üçün lazım olan və verə biləcəyi çox şeyi bizlərdən əsirgəməyib. Bu da bir qismətdir. Hərdən fikirləşirəm ki, bu, bizim taleyimizdir. Elə bizim taleyimiz belə də olmalıymış ki, olub. İnsan ata-anasını çox istəyər, onlara dua edər. Biz isə dövlətə dua edirik. Onun qüdrətlənməsini istəyirik. İdmançı olmaqda da məqsədim Azərbaycana xidmət etmək, vətənimin adını yüksəltməkdir. Bir baxın, arzulayırdım ki, telefonum olsun. İndi telefonum var, amma zəng edib danışmaq istədiyim bir əzizim yoxdur. Anam, bacım, qohumlarım olsaydı, onlarla danışardım".

Zeynəb deyir ki, xəyalında bir ana obrazı yaradıb: "Bütün günü onunla danışıb dərdləşirəm. Sarı saçlı, mavi gözlü, çox mehriban bir xanımdır mənim yaratdığım ana. Bilmirəm analar övladlarını necə sevir". Zeynəb susur, əlinin arxası ilə yanağına süzülüb bizi də boğacaq göz yaşlarını silir. "Müəllim, olar bir söz soruşum? Ata necə olur? Deyirlər ki, atalar qızlarını çox istəyir? Bu, doğrudur?" Nəfəsimiz çıxmır. Udduğumuz hava sinəmizdə daş kimi düyünlənir. Nə deyəcəyimizi bilmirik. Boğulduğumuz göz yaşımızın içindən çıxıb güclə "hə" deyə bilirik.

Digər həmsöhbətimiz Vüqar Dadaşov 11 ildir Uşaq evindədir.

- Üç yaşımdan buradayam. Atam da, anam da rəhmətə gedib. Atam qəzada dünyasını dəyişib. Anam isə COVID-19 virusuna yoluxdu. Amma qohumlarım var. Bibim hərdən gəlib məni evlərinə aparır. Hərdən də yanıma gəlib baş çəkir. Bakılıyam. İdmanı çox sevirəm, əsasən də futbolu. Məşhur futbolçu Neymar mənim idealımdır. Onun kimi futbolçu olmaq istərdim. Amma bilirəm ki, bu, mümkün deyil. Gərək valideynin ola, səni uşaqlıqdan futbol məktəbinə yazdıra. Arzudur da... Düşünürəm ki, idman kollecinə daxil olsam, bəlkə də həyatımı özüm qura bilərəm...

Günay müəllimə deyir ki, Vüqar uşaqlardan ibarət komandada ilin futbolçusu seçilib: "Ümid edirik ki, gələcəkdə ölkəmizi təmsil edən ən yaxşı futbolçulardan olacaq. Uşaq evinin bütün sakinləri Vüqara futbolçu kimi azarkeşlik edir, oyunlarını izləyirlər".

Vüqar söhbəti davam etdirir: "Müəssisəmizin uşaqları, hamımız bir-birimizi çox istəyirik. Çoxlu dostlarım var. Əsas dostlarım İbrahim və Elvindir. Elvin həm də doğma qardaşımdır. Bir bacım vardı, 17 yaşında rəhmətə gedib. Elə çox istəyirəm ki, onun məzarını ziyarət edəm".

Vüqar Uşaq evində onlara göstərilən diqqət və qayğıdan da bəhs edir: "Bizə burada çox yaxşı baxırlar. Yemək-içməyimizə, geyimimizə xüsusi diqqət yetirilir".

10 yaşlı Savatxan Həbiyev Cəlilabad rayonundan olduğunu, Uşaq evində iki ildir ki, yaşadığını deyir. O, söhbətə məktəb həyatından başlayır: "Dərslərimi yaxşı oxuyuram. Amma məktəbə gedəndə bura üçün darıxıram. Burada müəllimlər çox gözəldir, məni çox istəyirlər. Mən də Nəzirə müəllim, Könül müəllimi çox istəyirəm".

Savatxan deyir ki, ən çox anası ilə babasını arzulayır: "Babam həkim idi. Mən də böyüyəndə cərrah olmaq istəyirəm. İndi mənə əmimlə nənəm baxır. Yəqin gəlib aparարlar. Bəlkə də... yox, mütləq ardımca gələcəklər". Tavana zillənmiş gözlərində muncuq-muncuq yaş gilələnir...

16 yaşlı Aylin Kərimova 3 ildir ki, Uşaq evinin sakinidir. Əvvəllər uşaq sığınacağında yaşayıb. Aylin deyir ki, atasının rəhmətə getdiyini, anasınınsa adının Türkan olduğunu eşidib: "Amma dəqiq xatırlamıram. Bildiyim odur ki, 4 yaşında sığınacağa verilmişəm. Rəsm çəkməyi çox sevirəm. Bir il rəqsə getmişəm, üzgüçülüklə də məşğul oluram. Bu il bərbərlik kursunu bitirəcəyəm. Qadın bərbəri olacağam. Yağlı boya ilə şəkil çəkməyi, taxtanın üstündə sapla işləməyi çox sevirəm. Əl işlərimi bəyənirlər. Ayişə adlı yaxın bir rəfiqəm var. Onu çox sevirəm. Aramızda qəribə bir doğmalıq mövcuddur. Hərdən mənə elə gəlir ki, Ayişə mənim özümdür. Gələcək haqqında birlikdə plan qururuq. Düşünürəm ki, bir gözəllik salonu açaram. Amma necə? Arzudur da... Allah istəsə qismət olar. Amma reallıq deyilən bir şey də var. Gərək onu da nəzərə alasan".

Müəssisənin koordinatoru İlahə İmanova ilə söhbətimizi davam etdiririk:

- Müəssisəmizdə əsas diqqət yetirdiyimiz məqam tərbiyə və təhsildir. Tərbiyə müəssisədaxili əsas işimizdir. Bir valideyn kimi uşaqlarımızın məktəbdə fənn müəllimləri, məktəb rəhbərliyi, digər şəxslərlə davranışlarına, dərsə davamiyyətinə nəzarət edirik. Uşaqlarımızın valideynləri olaraq məktəbdə valideyn iclaslarına, digər tədbirlərə gedib onlarla birlikdə iştirak edirik. Müəssisə daxilində uşaqlar yaş qrupları üzrə bölünür. Onların sosial-psixoloji problemlərini, tələbatlarını öyrənirik.

İlahə İmanova deyir ki, uşaqla yaxşı ünsiyyət qura bilirsənsə, o, səndə doğmalıq tapa bilirsə, demək, sənə etibar edir: "İllərdir buradayıq. Artıq hər kəsin xasiyyətini bilirik. Onlarla başa düşdükləri dildə ünsiyyət qurmağı bacaranla daha çox doğmalaşır, etibar edir, bizi valideynləri kimi sevirlər. Əsas sevgini qazanmaqdır. Bu, birtərəfli olmamalıdır. Elə edirik ki, onlar bura üçün darıxsınlar, buranı öz evləri, bizi də valideynləri bilsinlər. Şükür ki, buna nail ola bilmişik".

Azyaşlılar üzrə qrup rəhbəri Nəzirə Qəhrəmanova 11 ildir Uşaq evində çalışır. Hazırda 6-11 yaşarası uşaqların qrup rəhbəridir. Qrupda 14 uşaq var: "Buradakı uşaqların hərəsinin öz dünyası var. Onların dünyasına daxil olmağı bacarmaq lazımdır. Gərək elə rəftar edəsən ki, axtardıqları valideyn sevgisini səndə tapa bilsinlər. O boşluğu doldurmaq asan olmur. Amma çalışıram ki, öhdəsindən gəlim. Bizim balalarımız bizə çox bağlanıblar. Elə biz də onlara. Günümün çoxunu burada keçirirəm. Körpələrimin birinin hansısa yeri ağrıyanda onu öz canımda hiss edirəm. Övladlarım kimi hər birini sevirəm. Bilirsiniz, bütün günümüzü onlarla birlikdə keçiririk".

Direktor müavini Günay Manafova deyir ki, uşaqlar bu vətənin, dövlətin övladları olduğunu yaxşı başa düşürlər: "Dövlət sözün həqiqi mənasında övladlarımıza atalıq edir. Ürəklərindəki mənəvi boşluğu da ölkəmizin birinci xanımı Mehriban Əliyeva, qızları Leyla xanım, Arzu xanım doldururlar. Demək olar ki, mütəmadi olaraq müəssisəmizi ziyarət edib sakinlərə qayğı və diqqət göstərirlər".

Direktor müavini onu da dedi ki, müəssisənin Buzovna qəsəbəsində "Yay evi" var. Yay tətilini uşaqlar orada keçirəcəklər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

























# İDMAN



## "Transferlər nəzarətim altındadır"



**"İyunun 25-dən məşqlərə başlamışıq. Demək olar ki, 10 gündür hazırlaşırıq, ilk tsikli keçmişik. Deməzdim təəccübləndim. Lakin sevindirici hal odur ki, yetərincə uzunmüddətli pauzadan sonra futbolçular xoş təəssürat yaratdılar, düşərgəyə yaxşı vəziyyətdə qayıtdılar. Bu, məni sevindirdi. Eyni zamanda bu məqam bizə kömək olur ki, tez yüklələmələrə keçək. Yoxlama oyunlarına daha tez hazır olaq". Bu sözləri "Neftçi"nin baş məşqçisi Samir Abasov klubun televiziyasına müsahibəsində deyib.**

O, Kiprin "Apollon" klubundan heyətə cəlb olunan Sessi D'Almeydanın çıxışını bir neçə aydır izlədiklərini bildirib: "Sessinin üzv olduğu klubu ilə danışıqlarımız çoxdan gedirdi. Bu futbolçu qışdan nəzarətimizdə idi. Şükürlər olsun ki, ilk transferimiz oldu, bizə qoşuldu. Dayaq yarımmüdafiəçisidir O, aqressiyası, mübarizliyi, döyüşkənliyi ilə seçilir. Hansı ki, bu baxımdan keçən il problemlərimiz var idi. İnanırıq ki, bizə yetərincə kömək olacaq".

Samir Abasov Paraqvayın "Sportivo Ameliano" klubundan icarəyə götürülən Luis Ortis barədə də fikirlərini bölüşüb: "Ortis bizə icarə əsasında qoşulub. Kömək etsə, gələcəkdə klubu ilə danışıqlarımız davam edəcək. Bir neçə mövqedə - həm yarımmüdafiənin solunda, həm sağında, eləcə də 5-li müdafiə sistemində sol hücumameyilli müdafiəçi kimi çıxış edə bilir. Bir futbolçu bir neçə mövqedə oynaya bilirsə, bu, onun üstünlüyüdür və bizə xeyri dəyə bilər".

Mütəxəssis "Sumqayıt"da rəhbərliyi altında çıxış etmiş Elvin Bədəlovun keçidinə də münasibət bildirib: "Çempionatda legioner limiti ləğv olunub. Lakin bu o demək deyil ki, bizdə yerli futbolçu olmayacaq. Elvini "Neftçi" cameəsi yaxşı tanıyır. Burada oynayıb. Sağ olsunlar, dəvətimizi, mənim istəyimi qəbul etdilər, "Neftçi"yə qoşuldular. Futbolçu olaraq bizə kömək edəcək, inanıram ki, "Neftçi"nin yükünü daşıya biləcəklər".

"Neftçi"nin baş məşqçisi "Araz-Naxçıvan"dan İqor Ribeyronun keçidinə görə xoşbəxt olduğunu vurğulayıb: "Ribeyronun üstün cəhəti odur ki, bizi tanıyır. Söhbət Azərbaycan çempionatından gedir. Çox klublar bu cür varianta əl atırlar. Yəni imkanı daha yuxarı olan kollektivlər digər Azərbaycan klublarından futbolçu götürürlər. İqor çempionatımızın ən yaxşı müdafiəçilərindən biridir. İnanıram ki, bizə xeyir verəcək. Özü də "Neftçi"yə keçməkdə israrlı idi. "Neftçi" flaqmandır. Müdafiəyə yenə transferimiz olacaq. Xoşbəxtəm ki, Ribeyronu götürə bildik".

S.Abasov heyəti daha da gücləndirəcəklərini qeyd edib: "Transferlərimiz davam edəcək. Çalışırıq ki, Polşaya təlim-məşq toplanışına gedənə qədər daha bir neçə futbolçunu komandamıza gətirək. Düzdür, transfer etmək çətindir. Təkcə biz yox, bütün klublar üçün bu belədir. Bəzən elə olur ki, futbolçunu razı salırsan, menecerləri ilə problem çıxır, yaxud menecerlərlə ortaq məxrəcə gəlirsən, onun klubu ilə hansısa problem yaranır. Hazırda danışdığımız bir neçə futbolçu var. Hansılar ki, transfer günü sabah da alına bilər, birisigün də. Lakin futbolçu rəsmi müqaviləyə imza atmadan, transfer reallaşdı deyə bilmərik. Dediyim kimi, bəzən son anda əldən çıxır. Skaut departamenti də daim işləyir. Bütün transferlər mənim nəzarətim altındadır. Onlarla bağlı qərarı 100-də 100 mən verirəm. Heyətə yalnız mənim bəyəndiyim futbolçular cəlb olunur".

Sonda o, yeni mövsüm üçün hədəflərindən danışıb: "Yüksək hədəflər uğrunda mübarizə aparacağıq. Futbolçularımızı da buna yönəldəcəyik. Əlbəttə, bu, çətindir. Çünki biz komandanı yenidən qururuq. Transferlərimiz vaxtında reallaşsa, keçənilkindən tamam fərqli heyət görəcəksiniz. Ola bilər adaptasiya çətin olsun. Yeni ölkə, yeni klub və sairə. Düzdür, bir qədər çətin olacaq. Amma inanıram ki, öhdəsindən gələcəyik. Təzə gələn hər kəs bilməlidir ki, "Neftçi"nin adı hədəfdir. Bundan qırağa çıxmalı deyilik".



## Benzia seçim qarşısında qaldı

**Bu yay "Qarabağ"la müqavilə müddəti başa çatdığı üçün klubla yolları ayıran Yassin Benziaya təzə müştəri çıxıb.**

Ağdam klubunda iki mövsüm uğurlu oyunlarından sonra Əlcəzair millisinin üzvü bir çox əcnəbi klubun maraq dairəsinə düşüb. "Africafoot" saytının yaydığı məlumata görə, Çin Superliqasının autsayderi olan "Changchun Yatai" da Benzianı transfer etmək istəyir.

Bundan başqa, hazırda azad agent olan Benzia Səudiyyə Ərəbistanın bir klubunun və Tunisin "Esptrance de" komandasının da maraq dairəsindədir. Lakin sayt yazır ki, Çin klubunun təklifi, daha əlverişli maliyyə şərtləri və meydanda liderlik vədi sayəsində üstünlük qazana bilər.

Benzianın yekunda maddi baxımdan ona daha yaxşı təklif edən klubu seçəcəyi gözlənilir. 30 yaşlı futbolçu "Qarabağ"la sırf maliyyə məsələlərində razılığa gələ bilmədiyi üçün klubdan ayrılmışdı.

## Marko " Qarabağ"dan ayrılıb

**"Qarabağ"ın sabiq oyunçusu, Monteneqro millisinin futbolçusu Marko Veşoviç ölkəsinin "Vijesti" nəşrinə müsahibə verib. Müsahibədə 33 yaşlı futbolçu Ağdam klubundakı karyerasına və gələcək planlarına toxunub.**

Bu yay müqaviləsi bitdikdən sonra "Qarabağ"la yollarını ayıran təcrübəli futbolçu deyib: "Qarabağ"da dörd uğurlu və gözəl il keçirdim. Çətin idi. Çünki klubun ambisiyaları hər mövsüm artırdı, lakin həm yerli çempionatda, həm də Avropa arenasında keyfiyyət və nəticələr göz önündə idi. Dörd dəfə çempion olduq, demək olar ki, eyni sayda "qızıl dubl" etdik, Avropa Liqasının 1/8 finalında "Bayer"lə qarşılaşdıq".

Veşoviç deyir ki, Avropanın həmin mövsüm sensasiyası olan komandaya - "Bayer"ə qarşı oyunu uzun müddət xatırlayacaqlar: "Təəssüf ki, hər iki oyunda əlavə dəqiqələrdə buraxdığımız qollara görə mərhələni keçə bilmədik. Klub böyüdükcə mən də oyunçu kimi inkişaf etdim. Amma artıq darıxırdım. Yeni motivasiyaya ehtiyac duyduğumu hiss etdim və yoluma davam etməyə qərar verdim. Klubdakı hər kəsə minnətdaram və onlara uğurlar arzulayıram". Hazırda azad agent olan Markonun dediyinə görə, ona olan maraq çoxdur: "Təkliflər kifayət qədərdir, lakin hazırda əvvəlki mövsümlərdə edə bilmədiyim istirahətin dadını çıxarmaq istəyirəm. Yaxın 10 gün ərzində konkret danışıqlar gözləyirəm. Karyeramı güclü bir liqada davam etdirmək istərdim, amma eyni zamanda ailəmlə sakit yaşaya biləcəyim Monteneqroya yaxın olmaq istəyirəm".

## Onun pulunu ailəsi alacaq

**"Liverpul" yol qəzasında dünyasını dəyişən hücumçusu Dioqo Jotanın 2027-ci ilə qədər olan əmək müqaviləsi üzrə maaşını tam ödəyəcək. Bu barədə "Record" məlumat yayıb. İngiltərə təmsilçisi Jotanın maaşını onun ailəsinə ödəyəcək. Daha əvvəl "mersisaydlılar" portuqaliyalı futbolçunun geyindiyi 20 nömrəli formanı dövriyyədən çıxaracaqlarını açıqlamışdılar.**

Qeyd edək ki, Dioqo Jota 2 gün əvvəl avtomobil qəzasında dünyasını dəyişib. Həmin qəzada onun qardaşı Andre Silva da həlak olub.

Xatırladaq ki, 28 yaşlı futbolçu 2020-ci ilin sentyabrından "Liverpul"un formasını geyinirdi. Bu müddət ərzində o, bütün yarışlarda - 182 matçda iştirak edib, 65 qol vurub və 26 məhsuldar ötürmə edib. Jota klubla İngiltərə çempionluğunu, İngiltərə Kubokunu və iki dəfə İngiltərə Liqa Kubokunu qazanıb. O, Portuqaliya millisi ilə birlikdə 2 dəfə Millətlər Liqasının qalibi olub.

## Emin Hüseynovdan növbəti qələbə



**Azərbaycanın MMA üzrə döyüşçüsü Emin Hüseynov Qazaxıstanda keçirilən döyüşdə növbəti qələbəsi ilə azarkeşlərimizi sevindirib. "RM İdman Klubu"nun döyüşçüsü yerli idmançı Bahdur Askerovla üz-üzə gəlib. Maraqlı və gərgin keçən döyüşün yekununda idmançımız qalib gələrək böyük uğura imza atıb. Belə ki, möhtəşəm nəticə Eminin növbəti kəmər döyüşünə vəsiqə qazanmasına yol açıb.**

Heydər Əliyev adına Beynəlxalq Hava Limanında idmançımızın möhtəşəm qarşılanma mərasimi keçirilib. Emin Hüseynov qələbəni Azərbaycan xalqına ərməğan etdiyini bildirib: "Çətin və maraqlı döyüş oldu. Rəqibimin kifayət qədər güclü tərəfləri var idi. Şükürlər olsun ki, qələbə qazanmağı bacardım. Azərbaycana ancaq zəfər yaraşır. Dövlətimizə və xalqımıza həsr edirəm".

"RM İdman Klubu"nun icraçı direktoru Tural Cavadov deyib ki, döyüş üçün hazırlıq prosesi gərgin məşqlərlə yadda qalıb: "Klub olaraq döyüşçümüzlə fəxr edirik və yeni zəfərlərə doğru birlikdə irəliləyirik. Emindən qələbə gözləyirdik. Proqnozlarımız özünü doğrultdu. Bizi qarşıda daha çətin döyüş gözləyir. Emin qarşıdan gələn döyüşə ciddi hazırlaşacaq".

Emin Hüseynovun məşqçisi Ruslan Məmmədhəsənov da qazanılan qələbəyə görə çox sevincli olduqlarını bildirdi. O deyib ki, zəfərdən sonra daha çox çəkilən əziyyətin yerdə qalmamasına görə fəxr edirsən: "Çətin hazırlıq dövrü oldu. Taktiki tərəfdən rəqibi təhlil etmişdik. Eminin döyüşlərdə xüsusi üstünlükləri var. O, istənilən rəqibə qarşı favoritdir. Hələ heç nə bitməyib. Daha maraqlı döyüşlər və zəfərlər irəlidədir".

*Hazırladı:*
*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*




## "BMW iX3"də dönmə siqnalı avtomatik işə salınacaq



**"BMW iX3" elektromobili test yürüşündə özünü ən yaxşı tərəfdən göstərib. Müasir avtomobillər tədricən idarəetməni sürücünün "əlindən alır".**

Məsələn, "Tesla"nın təhlükəsizlik sistemləri sükanın böyük hissəsini öz üzərinə götürə bilir. Lakin hər şey plan üzrə getmədikdə, sükanı avtopilotun "virtual əli"ndən almaq çətin olur. "BMW" isə sürücü yardım sisteminin davranışını yumşaltmağa qərar verib.

"Neue Klasse" platforması əsasında qurulacaq ilk elektromobil olan "iX3" insanla simbioz yaratmağa çalışır. Bu o deməkdir ki, avtomobilin sensorları və sistemləri sürücü ilə mübarizə aparmır, əksinə, həqiqi köməkçi kimi çıxış edərək hərəkəti daha təhlükəsiz və az stressli edir. İstehsalçı "BMW iX3" üçün 650 km yürüş məsafəsi vəd edir. Bu, 400 kilovata qədər gücü dəstəkləyən yeni batareya sayəsində mümkün olur. Bu texnologiya cəmi 10 dəqiqəlik şarjla, təxminən, 320 km məsafəni qət etməyə imkan verir. "BMW"nin "superbeyin" adlandırdığı elektromobilin hesablama platforması "Qualcomm Snapdragon Ride" çipinə əsaslanır. Bu qədər güclü prosessor indiyədək avtomobillərə quraşdırılmayıb. Çip qabaqcıl sensor dəsti, yüksəkdəqiqlikli kameralar və dəqiq radarların məlumatlarını emal edir. Bütün bu sistemlər birlikdə elektromobilə ətraf mühiti yüksək keyfiyyətlə qavrama imkanı verir. Ən vacib komponent sürücünün vəziyyətini izləmə sistemidir. Bu sistem baxışın hara yönəldiyini və yolun izlənilməsinə yetərincə diqqət ayrılıb-ayrılmadığını müəyyən edir.

"BMW iX3" baxış istiqamətinin izlənməsi texnologiyasından istifadə edir və digər müasir avtomobillərdən fərqli olaraq sürücünü siqnallarla narahat etmir, əksinə, sürmə keyfiyyətini həqiqətən yaxşılaşdırır. Şosseyə çıxış zamanı sürücü köməkçisi avtomobili müstəqil şəkildə idarə edə və hətta hərəkət zolağını dəyişə bilir. Əgər sürücü bunu əl ilə etmək istəsə, sistem özü dönmə siqnalını aktivləşdirir. Kor nöqtə yoxlanılmadan zolaq dəyişmək çətin olacaq, amma əvvəlcə güzgülərə baxılarsa, elektromobil müqavimət göstərməyəcək. "BMW"də ikinci yardımçı prosessor "Heart of Joy" adını alıb. Şirkətin özü tərəfindən hazırlanmış bu çip dartı qüvvəsinə, sabitliyə və elektrik mühərriklərinə nəzarət edir. Əvvəllər bu funksiyaları onlarla ayrı-ayrı prosessor yerinə yetirirdi.



## Duzlu suda əriyən plastik

**Plastik tullantıların sürətlə artması alimləri bu materiala alternativ axtarmağa məcbur edir. Yapon alimləri bu sahədə dönüş nöqtəsinə çox yaxınlaşıblar.**

RIKEN Yeni Materialların Tədqiqi Mərkəzinin və Tokio Universitetinin tədqiqatçıları yeni növ plastik material hazırlayıblar. Bu material neft əsaslı ənənəvi plastmaslardan möhkəmlik baxımından geri qalmır. Lakin o, duzla təmas etdikdə ilkin komponentlərinə parçalanır. Təbiətdə mövcud olan bakteriyalar isə bu komponentləri emal edir və nəticədə mikroplastik və ya nanoplastik qalıqlar həll olur.

Müasir bioparçalanan plastiklər təbiətdə tam şəkildə parçalanmır. Yapon alimləri tərəfindən təqdim edilən yeni material isə duzlu suda cəmi 1 saat ərzində tamamilə həll olur, duzların da mövcud olduğu torpaqda isə nümunənin ölçüsündən asılı olaraq təxminən 200 saat ərzində parçalanır. Zəhərli olmayan bu material yanmaya davamlıdır və karbon qazı yaymır. Üzərinə örtük tətbiq edildikdən sonra isə adi plastik məmulatlar kimi funksional olur. Hazırda tədqiqat qrupu həmin örtüyün tətbiqi üçün optimal üsulun hazırlanmasına fokuslanıb ki, bu da materialın hələlik kommersiya istifadəsinə tam hazır olmadığını göstərir.

## "Xiaomi"nin yeni elektromobili



**Çinin "Xiaomi" şirkəti yeni elektrikli avtomobilini təqdim edib. 9 rəng variantı ilə 3 versiyada satışa çıxarılan elektromobilin başlanğıc qiyməti, təxminən, 35 min 400 dollar olaraq müəyyən edilib. Yeni modelin akkumulyatoru ilə 835 kilometr məsafə qət etmək mümkündür.**

Qeyd etmək lazımdır ki, bu model şirkətin ikinci elektromobilidir. "Xiaomi" 2024-cü ilin martında "SU7" adlı ilk elektrikli idman avtomobil modelini təqdim etmişdi.

## Ən nazik, yüngül və qatlana bilən "Samsung" smartfonu



**"Samsung" qatlana bilən yeni "Galaxy Z Fold 7" smartfonu ilə bağlı bir neçə yeni açıqlama verib və onun bir neçə rekord qıracağını vəd edib.**

"Ən yeni "Galaxy Z" seriyası bu günə qədər istehsal edilmiş ən nazik, ən yüngül və ən funksional qatlana bilən smartfondur. O, diqqətlə düşünülmüş və davamlı quruluşa malikdir", - deyə şirkətin bloq yazısında bildirilib.

Qeyri-rəsmi məlumatlara əsasən, "Samsung Galaxy Z Fold 7"nin gövdə qalınlığı təxminən 9 mm təşkil edəcək. Müqayisə üçün qeyd etmək olar ki, "OPPO Find N5" modelində bu göstərici 8,93 mm-dir. "Galaxy Z Fold 7"nin çəkisi isə hələ məlum deyil.

## "Honor"un qatlanan smartfonu



**"Honor" şirkəti Çində yeni qatlana bilən smartfonunu təqdim edib. Söhbət "Honor Magic V5"dən gedir.**

Yeni cihaz texnologiya bazarının ən nazik və yüngül gövdəli qatlana bilən smartfonudur. Onun gövdə qalınlığı tam açıq vəziyyətdə 4,1 mm, qapalı vəziyyətdə 8,8 mm, çəkisi isə 217 qram təşkil edir. "Honor Magic V5"in gövdəsində innovasiyalı materiallardan istifadə edilib. Smartfonun arxa paneli zərbələrə davamlı olduqca yüngül və dözümlü olan aerokosmik lifdən hazırlanıb. "Honor Magic V5" yüksək piksel keyfiyyətli 7,95 düym ölçülü daxili və 6,43 düym ölçülü xarici OLED ekranla təchiz olunub. Hər iki ekranın maksimal parlaqlıq səviyyəsi 5000 nit təşkil edir. Smartfonun gövdəsi sudan və tozdan qorunma özəlliyinə sahibdir. Smartfon "Snapdragon 8 Elite" prosessoru vasitəsilə çalışır.

## Süni zəka əsaslı video-redaktor təqdim edilib



**"Meta" şirkəti süni zəkadan istifadə edən video-redaktə funksiyasını istifadəyə verib. O, ABŞ və dünyanın 10-dan çox ölkəsindəki istifadəçilər üçün "Meta AI" və "Edits" tətbiqlərində əlçatandır.**

Yeni funksiya məhdud müddət ərzində pulsuz təqdim olunacaq və istifadəçilərə videonun ilk 10 saniyəsini redaktə etmək imkanı verəcək. Yeni alət 50-dən çox təklif təqdim edir. Bu təkliflər vasitəsilə videolara mövzu əlavə etmək, fonu və qəhrəmanların geyimlərini dəyişmək mümkündür. Məsələn, "Meta AI" vasitəsilə klipin üslubunu video-oyun və ya anime tərzinə çevirmək, onu səhrada çəkilmiş kimi göstərmək, istifadəçiyə süni zəka tərəfindən yaradılmış smokinq geyindirmək və daha bir çox vizual dəyişikliklər etmək olar.

Videonu redaktə etmək üçün onu "Meta AI" tətbiqinə, "Meta.AI" veb saytına və ya "Edits" tətbiqinə yükləmək və təqdim olunan təkliflərdən birini seçmək lazımdır. Bundan sonra "Meta AI" videonu seçilmiş ssenariyə uyğun şəkildə dəyişəcək.

Hazırda istifadəçilərin öz təkliflərini daxil etmələri mümkün olmasa da, "Meta" bu ilin sonuna doğru belə bir imkanı əlavə edəcəyini vəd edib.

## Damar üzərindən beyin çipi implantasiya edilib

Çinin Nankay Universitetinin alimləri dünyada ilk dəfə qan damarları vasitəsilə implantasiya edilmiş beyin-kompüter interfeysinin sınağını uğurla həyata keçiriblər. Prosedur insult nəticəsində 6 ay əvvəl bədəninin bir tərəfi iflic olmuş 67 yaşlı kişiyə qolunun hərəkətliliyini yenidən bərpa etməyə kömək edib. Minimal invaziv əməliyyat son dərəcə nazik elektrodlar yerləşdirilmiş stentin boyundakı damarların içərisinə daxil edilməsindən ibarət olub. Cəmi 50 mikrometr qalınlığında olan bu elektrodlar sinə nahiyəsində dərialtı yerləşdirilmiş naqilsiz qurğu ilə birləşdirilib və bu da beyin dalğalarını (EEQ siqnallarını) oxumağa və ötürməyə imkan verib. Bu texnologiya sayəsində pasiyent heç bir əlavə fəsad - infeksiya və ya tromboz olmadan, öz istəyi ilə əşyaları tutmağı və gündəlik tapşırıqları yerinə yetirməyi öyrənib.

Alimlər bu texnologiyanı daha öncə heyvanlar üzərində uğurla tətbiq ediblər. 2022-ci ildə qoyun beyin-kompüter interfeysi sayəsində hərəkətləri idarə edib. 2023-cü ildə isə implantasiya olunmuş elektrodlarla təchiz edilmiş meymun robotlaşdırılmış əl vasitəsilə müstəqil şəkildə qidalanıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Birinci Qarabağ müharibəsində itkin düşən üç şəhid Kəlbəcərdə dəfn edilib

**Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və şəxsiyyəti müəyyənləşdirilən Yusif İsmayıl oğlu Əzizov, Mehman Camal oğlu Musayev və Qafar Qəmbər oğlu Qarayev Kəlbəcər rayonunda dəfn ediliblər.**



AZƏRTAC xəbər verir ki, şəhidlərlə vida mərasimi Kəlbəcər şəhər Şəhidlər xiyabanında keçirilib.

Mərasimdə şəhidlərin ailə üzvləri, yaxınları, Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşları, ictimaiyyət nümayəndələri və rayon sakinləri iştirak ediblər. Cənazə namazı qılınaraq şəhidlərimizin ruhuna dualar oxunub.

Şəhidlərin nəşi yaylım atəşi altında torpağa tapşırılıb.

Qeyd edək ki, hər üç şəhid 27 mart 1993-cü ildə Kəlbəcər rayonunun Çıraqlı kəndində itkin düşmüşdü.

# Aİ-də anomal istilərlə bağlı iş yerlərində ölüm halları artıb

**Avropa Həmkarlar İttifaqları Konfederasiyasının fikrincə, isti hava dalğaları zamanı işçilərin sağlamlığını qorumaq üçün vahid qaydalar hazırlamaq lazımdır. Konfederasiyanın bu qərara gəlməsinə səbəb Avropanı bürüyən istilərin artıq iş yerində ölümlərə səbəb olmasıdır.**





İspaniya və Fransa bu il isti hava səbəbindən ilk olaraq iş yerində ölüm halları barədə məlumat veriblər. Oxşar faciələr artıq əvvəlki illərdə yay aylarında hər iki ölkədə, eləcə də İtaliya və Yunanıstanda baş vermişdir. Yaranmış vəziyyətlə bağlı Avropa Həmkarlar İttifaqları Konfederasiyası həyəcan təbili çalır. Beynəlxalq Əmək Təşkilatının məlumatına görə, əsrin əvvəlindən bəri Avropa İttifaqında (Aİ) istilər səbəbindən iş yerlərində ölənlərin sayı 42 faiz artıb. Konfederasiya qeyd edir ki, temperatur 30°C-dən çox olduqda istehsalatda bədbəxt hadisələrin başvermə riski 5-7 faiz artır. Temperatur 38°C-dən yuxarı qalxdıqda isə risk 10-15 faiz yüksəlir.

Buna görə də konfederasiya işçilərin Avropa səviyyəsində müdafiəsi üçün tədbirlər görməyə çağırır. Konfederasiyanın katibi Giulio Romani deyib: "Biz riskləri təkcə havanın temperaturunu deyil, digər şərtləri də nəzərə alaraq qiymətləndirməliyik. Hesab edirik ki, tibbi müayinələr, monitorinqlər və dövri yoxlamalar hüququ olmalıdır. Və nəhayət, işçinin həddindən artıq istilərin onun həyatını təhlükə altına atdığına inandığı hallarda intizam tənbehi tədbirləri və sanksiyalar olmadan işdən kənarda qalmaq hüququ tanınmalıdır".

Aİ-də işçilərin 23 faizi iş vaxtının ən azı dörddə birində yüksək temperatura məruz qalır. Onların 36 faizi kənd təsərrüfatı və sənayedə, 38 faizi isə tikintidə çalışır.

Konfederasiya müxtəlif sənaye sahələri üçün maksimum iş temperaturunun təyin edilməsini tələb edir. Bloka üzv olan bəzi dövlətlərdə artıq bunlar var: Məsələn, Belçikada yüngül fiziki iş üçün 29, orta ağır fiziki iş üçün 26, ağır fiziki iş üçün 22 və çox ağır fiziki iş üçün 18°, Macarıstanda oturaq iş və yüngül fiziki iş üçün 31, orta ağır fiziki iş üçün 29 və ağır fiziki iş üçün 27°C-dir. Latviyada otaqda maksimum iş temperaturu 28°C-dən çox olmamalıdır. İspaniyada oturaq iş, məsələn, ofis işləri üçün maksimum iş temperaturu 27, yüngül fiziki iş üçün - 25°C-dir. Lakin bu məhdudiyyətlər bütün iş növlərinə, işçilərə və binalara şamil edilmir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# MAQATE: "Zaporojye AES-də vəziyyət son dərəcə təhlükəlidir"

## İranın nüvə obyektlərində isə təftiş həyati əhəmiyyət kəsb edir

**Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) baş direktoru Rafael Mariano Qrossi bəyan edib ki, Ukraynada Rusiyanın nəzarəti altında olan Zaporojye Atom-Elektrik Stansiyası (AES) xarici enerji təchizatını tamamilə itirib və vəziyyət son dərəcə təhlükəlidir. Onun dediyinə görə, iyulun 4-də AES xarici enerji təchizatından tamamilə məhrum olub.**





Bunun Rusiya-Ukrayna müharibəsinin başlanmasından bəri 9-cu və 2023-cü ilin sonundan ilk hal olduğunu qeyd edən Qrossi deyib: "Stansiya hazırda qəzalı dizel generatorları ilə işləyir və bu, nüvə təhlükəsizliyinin son dərəcə təhlükəli vəziyyətdə olduğunu göstərir".

Qeyd edək ki, AES-in zədələnməsinə görə, münaqişə tərəfləri bir-birini ittiham edir.

MAQATE rəhbəri həmçinin bildirib ki, İran obyektlərinin təftişini bərpa etmək üçün Tehranla danışıqlar çox vacibdir. Qrossi İranın nüvə obyektlərinin təftişini mümkün qədər tez bərpa etmək üçün Tehranla danışıqların həyati əhəmiyyət daşıdığını deyib.

İranın MAQATE ilə əməkdaşlığı dayandırmasından sonra "X" sosial media saytındakı yazıya görə, Qrossi məsələ ilə bağlı açıqlama verib. Bildirib ki, agentliyin İranda monitorinq və yoxlama fəaliyyətlərini mümkün qədər tez bərpa etmək üçün bu prosesi necə həyata keçirəcəyi ilə bağlı Tehranla danışıqlar aparması həyati əhəmiyyət kəsb edir.

MAQATE-nin başqa bir açıqlamasına görə, İsrailin hücumları ilə başlayan münaqişə boyu İranda qalan müfəttişlər agentliyin Vyanadakı qərargahına qayıdıblar.

Məlum olduğu kimi, İran Qrossini İsrail və Amerikanın ölkə daxilindəki nüvə obyektlərinə hücumlarını qanuniləşdirməkdə və İsrailin xeyrinə casusluq etməkdə ittiham edib və Qrossinin ölkəyə girişinə qadağa qoyub. İyunun 25-də isə İran parlamenti MAQATE ilə əməkdaşlığın dayandırılması haqqında qanun layihəsini səsə qoyaraq qəbul edib. Parlamentin qəbul etdiyi qanunları təsdiqləyən orqan olan Keşikçilər Şurası iyunun 26-da qanunu təsdiqləyib.

Prezident Məsud Pezeşkianın imzaladığı MAQATE ilə əməkdaşlığı dayandıran qanun iyulun 2-də qüvvəyə minib.

***R.CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
XANKƏNDİ ZİRVƏSİ
BUNUN XÜSUSİ MƏNASI VAR
İlham Əliyev Donald Trampı təbrik edib
Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Donald Trampa
Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü keçirilib
Modern inkişaf möcüzəsi
Möhtəşəm quruculuq Azərbaycanın gücünün, iradəsinin və dövlətçilik potensialının təcəssümüdür

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*




# Bilmək istəyirəm

*Dövlət qurumunda işləyirəm. İstirahət bazasına güzəştli yollayış almaq üçün Sanatoriya-Kurort Elektron Rezervasiya Sistemində qeydiyyatdan keçmək istədikdə, sistem buna imkan vermir, "sanatoriya seçin" yazır. Həmkarlar İttifaqı Komitəsinə müraciət etdikdə bildirildi ki, istirahət mərkəzlərinə yalnız evli şəxslər yollayış ala bilər, çünki otaqlar ikinəfərlikdir və bu, Kurortlar İdarəsinin qərarıdır. Bilmək istəyirəm: evlilik statusuna görə istirahət imkanlarının məhdudlaşdırılması hüquqi baxımdan nə dərəcədə düzgündür? Bu, subay şəxslərə qarşı bərabərlik prinsipinin pozulması və diskriminasiya sayılırmı?*

***Yeganə XUDİYEVA,***
***Bakı şəhəri***

✓ - Sualınıza cavab olaraq bildiririk ki, həqiqətən də, təsvir etdyiniz hal Azərbaycan Respublikasının bir sıra qanunvericilik aktlarının pozuntusu, xüsusilə ayrı-seçkilik kimi qiymətləndirilə bilər.

Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin 3-cü hissəsinə görə, dövlət irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. O cümlədən insan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşə, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır. Burada "sosial mənsubiyyət" dedikdə onun nikahda olub-olmaması da ehtiva olunur. Yəni şəxsin evli olub-olmaması və ya hər hansı amilə görə ona əmək, istirahət hüquqlarının realizəsindən imtina edilməsi antikonstitusiondur. Bundan başqa, Əmək Məcəlləsinin 16-cı maddəsinin 1-ci hissəsinə görə, əmək münasibətlərində əmlak vəziyyətinə, ictimai-sosial mənşəyinə, yaşına, ailə vəziyyətinə, həmkarlar ittifaqlarına mənsubiyyətinə, qulluq mövqeyinə, həmçinin işçinin işgüzar keyfiyyətləri, peşəkarlıq səriştəsi, əməyinin nəticələri ilə bağlı olmayan digər amillərə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəminində bilavasitə və ya dolayısı ilə imtiyazların və güzəştlərin müəyyən edilməsi, habelə hüquqlarının məhdudlaşdırılması qəti qadağandır. Göründüyü kimi, Əmək Məcəlləsi də şəxsin ailə vəziyyətinə görə diskriminasiya olunmasını qadağan edir. Bundan başqa, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanuna əsasən, Azərbaycan Respublikasının ərazisində istehlakçılar üçün bərabər şərait yaradılması məqsədilə alqı-satqı prosesində, iş görülməsində və xidmət göstərilməsində istehlakçı ilə istehsalçı, satıcı ilə icraçı arasında münasibətlərin eyni cür tənzimlənməsinin, istehlakçıların hüquqlarının müdafiəsinin ümumi hüquqi, iqtisadi və sosial əsasları təmin edilməldir. Yəni sizə ailə vəziyyətinizə görə istirahət hüququnuzdan imtina olunması adıçəkilən qanunun tələbinə ziddir - fərqi yoxdur bu məhdudiyyət haradan qaynaqlanır - HİK-in müvafiq strukturundan və ya kurort müəssisəsinin özündən.

Məsələnin həlli ilə bağlı HİK-ə yazılı müraciət edə, bu, nəticə verməzsə, məhkəməyə, habelə konstitusion hüququn pozuntusu olduğu üçün Ombudsman Aparatına müraciət edə bilərsiniz.

*Dövlət qurumuna təcili məsələ ilə bağlı ərizə ilə müraciət etmişəm, amma 3 aydır heç bir cavab yoxdur. Bilmək istəyirəm, təşkilat vətəndaşın məktubuna cavab verməlidir, yoxsa bu, onun ixtiyarından asılıdır?*

***Q.ÜLVİYYƏ,***
***Bakı şəhəri***

✓ - Qeyd olunmalıdır ki, vətəndaş müraciətlərinin cavablandırılmaması kobud konstitusion pozuntu hesab olunmaqdadır. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinə əsasən, vətəndaşların dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir. "Vətəndaşların müraciətləri haqqında" qanunun 10.1-ci maddəsinə görə, vətəndaşların müraciətlərinə ən geci 15 iş günü, əlavə öyrənilmə və yoxlanılma tələb edən müraciətlərə isə ən geci 30 iş günü müddətində baxılır. Qanunun 16-cı maddəsində onun tələblərini pozan şəxslərin məsuliyyət daşıdıqları qeyd olunur. İnzibati Xətalar Məcəlləsinin 594-1-ci maddəsinə əsasən, vətəndaşların müraciətləri haqqında qanunvericiliyin pozulmasına, yəni "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq verilən müraciətin qəbul edilməməsinə görə vəzifəli şəxslərə xəbərdarlıq edilir və ya onlar 100 manat məbləğində, hüquqi şəxslər 200 manat məbləğində cərimə edilir. Vəziyyətdən çıxış yolu kimi, qanun pozuntusu ilə bağlı həmin qurumun rəhbərliyinə və ya yuxarı dövlət orqanına şikayət edə bilərsiniz. Eyni zamanda Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana) müraciət edə bilərsiniz. İnzibati Xətalar Məcəlləsinin yuxarıda qeyd olunan müddəası üzrə inzibati araşdırmaya başlamaq, inzibati protokol tərtib etmək hüququ ombudsmana məxsusdur.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iyulun 6-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Gün ərzində bəzi yerlərdə fasilələrlə yağış yağacağı ehtimalı var.**

Arabir güclənən şimal-qərb küləyi axşam mülayimləşəcək. Havanın temperaturu gecə 19-22°, gündüz 24-27° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 758 mm civə sütunu olacaq. Nisbi rütubət 60-70 faiz olacaq. Abşeron çimərliklərində arabir güclənən şimal-qərb küləyi axşam mülayimləşəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zağulba) 20-21°, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 21-22° isti olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 19-22°, gündüz 25-30° isti, dağlarda gecə 5-10°, gündüz 12-17° isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi arabir güclənəcək. Havanın temperaturu gecə 15-20°, gündüz 25-30° isti olacaq.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöldə bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 17-22°, bəzi yerlərdə 24° isti olacaq.

Şərqi Zəngəzur - Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilanda bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 15-20°, bəzi yerlərdə 24° isti olacaq.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz və Naftalanda bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 15-20°, gündüz 24-29° isti olacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz və Qusarda bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 13-18°, gündüz 20-25°, dağlarda gecə 5-10°, gündüz 12-17° isti olacaq.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan və Neftçalada bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 19-22°, gündüz 25-30° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar və Cəlilabadda bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Arabir duman olacaq. Şimal-şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 19-21°, gündüz 24-29°, dağlarda gecə 15-17°, gündüz 18-20° isti olacaq.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3053
Sifariş 1354

Qiyməti 60 qəpik